# ÜMUMİ TARİX 8

METODİK VƏSAİT



*ELNUR HÜSEYNOV*
*NİYAMƏDDİN QULİYEV*
*PƏRVİZ AĞALAROV*

*Ümumi təhsil müəssisələrinin* **8***-ci sinifləri üçün*

# ÜMUMİ TARİX

*fənni üzrə dərsliyin*

## METODİK VƏSAİTİ

© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

# Mündəricat

Dərslik və müəllim üçün metodik vəsait haqqında ..... 4

Ümumi tarix fənninin tədrisinin müasir tələbləri ..... 5

Tarixin tədrisinin məqsədləri ..... 6

Ümumi tarixlə bağlı ümumi təlim nəticələri ..... 6

VIII sinif Ümumi tarix fənni üzrə məzmun standartları ..... 7

Fəndaxili və fənlərarası inteqrasiyanın zəruriliyi ..... 8

VIII sinif Ümumi tarix fənni üzrə alt standartların inteqrasiya imkanları ..... 11

Şagird nailiyyətlərinin məktəbdaxili qiymətləndirilməsi ..... 12

Qiymətləndirmənin üsul və vasitələri ..... 13

Təlim məqsədlərinin düzgün reallaşdırılması ilə bağlı tövsiyələr ..... 14

İnteraktiv tədris forması ..... 18

Müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına dair tövsiyələr ..... 19

Fəal dərsin quruluşu. Planlaşdırma ..... 19

Motivasiya qurmaq üçün müəllimə məsləhət ..... 22

Fəal dərsin planlaşdırılmasına dair tövsiyələr. ..... 22

Dərslərin illik planlaşdırılması ..... 23






1 Qızılbaş dövlətləri ..... 25

2 Böyük Moğol dövləti ..... 35

3 Çin ..... 39

4 Osmanlı imperiyası ..... 42

5 Volqaboyu və Ural, Sibir, Mərkəzi Asiyanın türk xalqları ..... 52

6 Qafqaz ..... 58

7 Mədəniyyət ..... 66

8 İngiltərə ..... 73

9 Şimali Amerika ..... 83

10 Fransa ..... 90

11 Rusiya ..... 101

12 Mədəniyyət ..... 108








**Metodik vəsaitdə verilən bu və ya digər tövsiyələr sizin vasitənizlə şagirdlərin Ümumi tarix fənni üzrə bilik və bacarıqlarının formalaşdırılıb inkişaf etdirilməsinə hesablanmışdır.**

## DƏRSLİK VƏ MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT HAQQINDA

Sizə təqdim etdiyimiz VIII sinif üçün Ümumi tarix dərslik komplekti Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi Azərbaycan Respublikasının ümumi təhsil məktəbləri üçün Ümumi tarix fənni üzrə təhsil proqramı (kurikulumu) əsasında hazırlanmışdır. Dərslik komplekti özünün funksiyasına, məzmun və strukturuna görə fənn üzrə tədris planı və proqramı əsasında hazırlanmış, nəzəri və praktik biliklərin əsaslarının sistemli və anlaşıqlı şəkildə izahı verilməklə təqdim olunmuşdur.

Dərsliklərin komplekt şəkildə nəşr olunması təhsil prosesində müəllim-şagird fəaliyyətinin tam təsəvvür olunmasını və üzvi şəkildə əlaqələndirilməsini təmin edir, müəllimin planlaşdırmadan qiymətləndirməyə qədər bütün fəaliyyətini istiqamətləndirir, təlim prosesində şagirdlərin müstəqilliyinin və tətbiq bacarıqlarının genişlənməsinə imkan yaradır. Bu baxımdan şagirdlər məlumatlar əldə etmək üçün axtarışlara cəlb olunur, müstəqil surətdə tədqiqatlar aparır, bunun üçün onlara fəal təlim şəraiti yaradılır. Şagirdlərin fərdi marağı nəzərə alınmaqla onlarda zəruri həyati bacarıqlarının formalaşdırılmasına, məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişaf etdirilməsinə imkan yaradılır, təlimə maraq artırılır.

Ümumi tarix fənni üzrə VIII sinif dərsliyi şagirdlərə məntiqi, tənqidi və yaradıcı təfəkkürün, sadədən mürəkkəbə doğru inkişafın, fənnin tədrisində yeni texnologiya və kommunikasiya vasitələrinin tətbiq olunması bacarıqlarının inkişafını ön plana çəkir. Dərslik şagirdlərdə tədqiqatçılıq bacarığı, fikirlərini ümumiləşdirərək təqdimatlar etmək, qanunauyğunluqlara əsasən proqnoz vermək, müxtəlif hadisə, proses və təzahürlərlə bağlı oxşarlıq və fərqli cəhətləri özündə əks etdirən cədvəllər, qrafiklər hazırlamaq, esse yazmaq, kontur xəritələr üzərində işləmək tarixdə baş verən hadisə və prosesləri təhlil edib qiymətləndirmək bacarığı formalaşdırır.

Dərslik komplektində Ümumi tarix üzrə təhsil proqramında (kurikulumunda) nəzərdə tutulmuş bütün məzmun standartları reallaşdırılmış, faktların dəqiqliyi, əyaniliyi, müasirliyi, xronologiyanın gözlənilməsi ön plana çəkilmişdir. Təlim materiallarında sadədədən mürəkkəbə, məntiqi və xronoloji ardıcıllıq nəzərə alınmışdır. Dərslikdə öz əksini tapmış təlim materiallarının yaş səviyyəsinə uyğun, anlaşıqlı olması diqqətdə saxlanılmışdır.

Ən zəruri informasiyalar, tapşırıq, sual və çalışmaları özündə əks etdirən 8-ci sinif Ümumi tarix dərsliyi istiqamətverici, yönəldici, düşündürücü funksiyaları özündə birləşdirir. Dərslikdə artıq informasiya yükünə yer verilməmiş, məzmunun keyfiyyətli olması üçün orijinallıq qorunmuşdur. Sadədən mürəkkəbə, xronoloji və məntiqi ardıcıllığı nəzərə alındığı dərslik 12 paraqraf və 2 bölmədən ibarət tərtib edilmişdir. Paraqraflar tərtib olunarkən standartlar və onların reallaşdırılması üçün mənbələr, xəritələr, illüstrasiyalar, sxemlər, cədvəllər, sual və tapşırıqlar və s. vasitələr nəzərə alınmışdır. Metodik vəsaitdə hazırlanmasında standartlar, inteqrasiya cədvəli, dərslərin icmalı, interaktiv dərs nümunələri, qiymətləndirmə və qiymətləndirmə vasitələri öz əksini tapmışdır. Bununla yanaşı, dərslik və metodik vəsaitin hazırlanmasında istifadə edilmiş mənbə və ədəbiyyatlar,

internet resurslarının siyahısı təqdim edilmişdir. Tərtib edilmiş paraqrafların hər biri qruplaşdırılmış, forma və üsullar təqdim olunmuş, işin texnologiyasına aydınlıq gətirilmiş, dərslikdən istifadənin bütün mexanizmləri işıqlandırılmışdır. Bir sözlə, dərslik komplektinə daxil olan dərslik və müəllim üçün metodik vəsait dövlətin və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin qoyduğu tələbi maksimum səviyyədə gözləməklə tərtib olunmuşdur.

**Şərti işarələr**

| S | T | M | M | A |
|---|---|---|---|---|
| **Sual** | **Tapşırıq** | **Maraqlıdır** | **Mənbə** | **Araşdırma** |

# ÜMUMİ TARİX FƏNNİNİN TƏDRİSİNİN MÜASİR TƏLƏBLƏRİ

## Ümumi müddəalar

Müasir dövrdə dünyada bir çox sahələrdə olduğu kimi təhsil sahəsində yeni çağırışlar aktualdır. Təhsil sahəsi də yeni dövrlə ayaqlaşmalı və texnologiyalara adekvat qurulmalıdır. Digər fənlər kimi, Ümumi tarixin tədrisində də yeni dövrün tələbləri nəzərə alınmalıdır. Tarix hadisə və proseslərin, tarixi şəxsiyyətlərin fəaliyyətinə aid faktların yadda saxlanılması deyil, onların müqayisə edilməsi, təhlili və dəyərləndirilməsidir. Ona görə də tarix fənninin tədrisinin müasir tələblərə uyğunlaşdırılması zəruridir. Tədris prosesinin əsas resurslarından biri olan dərsliklərin məzmun və forma baxımdan təkmilləşdirilməsi, onların yalnız bilik mənbəyi deyil, həmçinin bacarıq və dəyərlər aşılamaq üçün vasitə olması diqqətdə saxlanılmışdır. Bu modelin əsasında tarixi hadisə, təzahür və proseslərə aid məlumatları, anlayışları və dəyərləri qazandırmaqla yanaşı, şagirdlərə gələcəkdə istifadə edə biləcəyi müqayisə, təhlil, ümumiləşdirmə və nəticəyə gəlmə bacarıqları qazandırmaq təşkil edir. Beynəlxalq təcrübə şagirdlərdə aşağıdakı bacarıqları formalaşdırmağı hədəfləyir.

- tarixi hadisə, proses və təzahürləri araşdırmaq və nəticələrini təqdim etmək;
- tarixi mənbələri təsnif etmək, orada verilən məlumatları anlamaq, analiz etmək, sintez etmək və dəyərləndirmək;
- tarixi hadisələri müvafiq dövrün tarixi şərtləri əsasında dəyərləndirmək və bu günü anlamaqda ondan istifadə etmək;
- müəyyən tarixi hadisə və proseslə bağlı məlumatları sistemləşdirmək, yəni səbəb-nəticə əlaqəsini təsbit etmək;
- təhlil və sintezə əsaslanan şifahi və yazılı təqdimat hazırlamaq.

## Tarixin tədrisinin məqsədləri

Ümumi tarix fənninin ümumtəhsil məktəblərində tədrisi dərin və əhatəli biliyə, bacarıq və vərdişlərə, yüksək intellektə, geniş dünyagörüşünə malik olan və onu daim inkişaf etdirməyə çalışan şəxsiyyət formalaşdırmağa, dünya xalqlarının adət-ənənələrinə, bəşəri dəyərlərə əsaslanan, dünya tarixinin keçmişinə, dünəninə və bu gününə dərindən yiyələnən, beynəlxalq münasibətlərdən baş çıxaran vətəndaş tərbiyə etməyə xidmət edir.

Ümumi tarix fənni şagirdlərdə ünsiyyət qurmaq və əməkdaşlıq etmək kimi yüksək mənəvi keyfiyyətlərin, mühakimə yürütmək, qoyulmuş problemə fərqli baxış nümayiş etdirmək, öz nöqteyi-nəzərini əsaslandırmaq, hüquqlarını qorumaq, başqalarının hüquqlarına hörmətlə yanaşmaq, dövlət, cəmiyyət və xalq qarşısında vəzifələrinə məsuliyyətlə yanaşmaq bacarığının formalaşmasına xidmət edir.

Ümumi tarix fənni üzrə təhsil proqramının (kurikulumun) əsas cəhətlərindən biri kimi nəticəyönümlülük şagird fəaliyyətinin ardıcıl izlənilməsini, onun nailiyyətlərindəki irəliləyişlərin müntəzəm qiymətləndirilməsini təmin edir. Şagirdlərə gündəlik həyatda lazım olan zəruri bacarıqların aşılanmasını və onun ardıcıl olaraq inkişaf etdirilməsini ön plana çəkir. Təlim prosesi ilə gözlənilən nəticə arasında qarşılıqlı əlaqə üçün zəmin yaradır.

Bu məqsədlərin reallaşdırılması üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi uyğun hesab edilir:

- tarixi hadisələrin, həmçinin müasir həyatda baş verən ictimai hadisələrin dərk, təhlil və təsnif edilməsi;
- milli-mənəvi dəyərlərdən, mədəni irsdən istifadə etməklə daxili potensialın zənginləşdirilməsi və onların gələcək nəsillərə ötürülməsi;
- dövlətçilik ənənələrinə istinad olunması, ölkəmizin müstəqil dövlət quruculuğunda şüurlu və məsuliyyətli vətəndaş kimi iştirak etməsi;
- dünya tarixində baş vermiş hadisələr nəzərə alınmaqla milli mənafenin və maraqların qorunması;
- müxtəlif mənbələri təhlil etməklə onlardan nəticələrin çıxarılması, sosioloji məlumatlar üzərində işin təşkili, sosial, iqtisadi, mədəni problemlərin tarixi baxımdan inkişafının digər fənlərlə əlaqədə izlənilməsi;
- tarixi hadisələrin qarşılıqlı əlaqələrini təhlil etməklə məntiqi və yaradıcı təfəkkürün inkişaf etdirilməsi.

## Ümumi tarixlə bağlı ümumi təlim nəticələri

Ümumi orta təhsil səviyyəsi üzrə Ümumi tarixlə bağlı ümumi təlim nəticələrini aşağıdakı kimi formalaşdırmaq olar.

1. Tarixi məkanı və ümumdünya tarixinin dövrləşməsini, qədim dövrlərdən müasir dövrlərə qədər dünyada gedən əsas tarixi prosesləri, dünya tarixində xüsusi rolu olmuş dövlətləri, dünya mədəniyyətini və sivilizasiyaları, əsas insan hüquqlarının, demokratiyanın nə olduğunu bilir.

2. Dünyada gedən müxtəlif sosial-iqtisadi, mədəni və siyasi prosesləri, demokratiyanın əsas prinsiplərini anlayır. Tarixi faktların zaman və məkanla əlaqəsini, dünyanın müxtəlif sivilizasiyalarının nailiyyətlərini, xüsusiyyətlərini, dünya tarixində mühüm rol oy-

namış şəxsiyyətləri, dünya mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir.

3. Tarixi faktlardan istifadə edərək, xronoloji ardıcıllığı gözləməklə dünyada yaranan dövlətlərin siyasi, sosial-iqtisadi və mədəni nailiyyətlərindən, tarixi şəxsiyyətlərin təcrübəsindən, ümumbəşəri, etnomədəni və milli dəyərlərin qarşılıqlı əlaqələrindən, həyati məsələlərin və problemlərin həllində istifadə edir.

4. Tarixi məkanda müxtəlif dövrlərdə yaranan dünya tarixinin gedişinə təsir göstərən dövlətlərin ərazisini xəritə əsasında müqayisə edir. Dünya ölkələrinin tarixi inkişafının ümumi cəhətlərini müəyyən edərək tarixi şəxsiyyətlərin fəaliyyətini, demokratiyanın əsas anlayışlarını, Şərq sivilizasiyasının dünya mədəniyyətinə təsirini təhlil edir.

5. Tarixi zaman və məkan daxilində dünya tarixində mühüm rol oynamış dövlətləri, şəxsiyyətləri, sivilizasiyaları, cəmiyyətdə gedən çoxşaxəli inkişafın prinsiplərini, əsas hadisələrin səbəb və nəticə əlaqələrini, ümumi qanunauyğunluqları, qanun və qanunçuluğun əhəmiyyətini, mədəni nailiyyətləri qiymətləndirərkən sərbəst qərar qəbul edir.

6. Bəşər tarixinin inkişafına təsir göstərmiş dövlətlərin və şəxsiyyətlərin oxşar və fərqli cəhətləri, özünəməxsus xüsusiyyətləri ilə bağlı cədvəllər tərtib edir. Tarixi paralellər aparaq müxtəlif zaman və məkanda mövcud olan sivilizasiyaların problemlərini və inkişafını, əsas tarixi hadisələri, ümumi qanunauyğunluqları, sosial-iqtisadi və mədəni proseslərin formalarını, hüquqi xarakterli informasiyaları sintez edir.

Beləliklə, bu konsepsiyanın yazılmasında əsas məqsəd yeni təhsil proqramının (kurikulum) tələblərini nəzərə almaqla yuxarıda sadalanan məsələləri özündə əks etdirən, şagirdlərin təfəkkürünün inkişaf etdirilməsinə yönəlik və faktoloji materialların daha az olduğu yeni bir dərslik layihəsi hazırlamaqdır.

## VIII SİNİF ÜMUMİ TARİX FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARI

### VIII sinif

**VIII sinfin sonunda şagird:**

- hadisə, proses və təzahürlər arasında səbəb-nəticə əlaqələrini ifadə edən xronoloji cədvəllər hazırlayır;
- feodal münasibətlərinin inkişafı və dağılmasını xalqların və dövlətlərin geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir, həmin dəyişiklikləri kontur xəritəyə köçürür;
- mərkəzləşmiş feodal dövlətlərinin yaranmasını və inkişaf xüsusiyyətlərini təhlil edir;
- tarixi şəxsiyyətləri oxşar və fərqli cəhətlərinə görə fərqləndirir;
- Şərqdə və Qərbdə intibah mədəniyyətlərinin inkişaf xüsusiyyətlərini, onların qarşılıqlı təsirini izah edir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Tarixi zaman**

**Şagird:**

*1.1. Tarixi faktların tarixi zamanla əlaqəsini anladığını nümayiş etdirir.*

1.1.1. Oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətlərini izah edir.
1.1.2. Oxşar proses və hadisələri əlaqələndirən sinxron cədvəllər tərtib edir.
1.1.3. Hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir.

**2. Tarixi məkan**
**Şagird:**
*2.1. Məkanda baş verən hadisə, proses və təzahürlərlə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*
2.1.1. Feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, dünyada baş vermiş iqtisadi, sosial dəyşiklikləri məkanla əlaqədə izah edir.
2.1.2. Dövlətlərin və xalqların həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür.

**3. Dövlət**
**Şagird:**
*3.1. Dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*
3.1.1. Dövlətlərin (İngiltərə, Fransa, Rusiya, ABŞ, Osmanlı, İran, Çin, Hindistan, Mərkəzi Asiyanın türk dövlətləri, Qazaxıstan, Krım, Sibir, Volqaboyu, Qafqaz xalqları) yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil edir.
3.1.2. Yeni tipli dövlətlərin qeyri-bərabər inkişafına aid esse yazır.

**4. Şəxsiyyət**
**Şagird:**
*4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.*
4.1.1. Tarixi şəxsiyyətləri (Oliver Kromvel, Maksimilian Robespyer, I Pyotr, II Yekaterina, Corc Vaşinqton, Benjamin Franklin, Köprülü Mehmet paşa, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar) müqayisə edir.
4.1.2. Tarixi şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır.

**5. Mədəniyyət**
**Şagird:**
*5.1. Mədəniyyətləri və sivilizasiyaları qiymətləndirir.*
5.1.1. Şərq və Qərbdə intibah mədəniyyətinin xüsusiyyətlərini izah edir.
5.1.2. Elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edir.
5.1.3. Dünya mədəniyyətinin nailiyyətlərinə dair cədvəl və qrafiklər hazırlayır.

## FƏNDAXİLİ VƏ FƏNLƏRARASI İNTEQRASİYANIN ZƏRURİLİYİ

İnteqrasiya müasir təlimin əsas prinsipi kimi öz aktuallığını qoruyub saxlayır. Tarix fənninin tədrisində də fəndaxili və fənlərarası əlaqələrin tətbiqi əsasdır və təlimin interaktiv-

liyini təmin etmək üçün başlıca amildir. Ənənəvi təlimdə daha çox şagirdlərə faktlar toplusu verilir və onları əzbərləmək tələb olunurdu. Nəticədə şagirdlər həyatda onlara lazım olmayan məsələləri də öyrənməli olurdular. İnteqrativ tədris isə fənn sahələrinin kombinasiyasını özündə əks etdirməklə şagirdi obyektə deyil, subyektə çevirir. Burada təhsilin məqsədinə hadisə və təzahürləri öyrənmək və bilmək deyil, həm də əldə olunmuş bilik, bacarıq və dəyərlərdən müxtəlif situasiyalarda istifadə etmək, araşdırmaları təkmilləşdirmək, anlama, birbaşa şəxsi iştirak daxildir. Bu cür yanaşma şagirdlərə öyrənmə zamanı müxtəlif fənlər arasında bilik və konsepsiya səviyyəsində dəyərli əlaqələr yaratmaqda köməklik göstərir.

İnteqrasiya necə həyata keçirilməlidir? İnteqrasiya çox zaman biliklərin əlaqələndirilməsi formasında həyata keçirilir. Burada bir fakt haqqında biliyə həmin fakt haqqında başqa fənlərdə verilən məlumat əlavə olunur. Müasir dövrdə inteqrasiyaya tamamilə başqa cür yanaşılır. Digər fənlərdə olduğu kimi, Ümumi tarix fənn kurikulumunda da inteqrasiya fəndaxili əlaqələr *(üfüqi inteqrasiya)*, fənlərarası əlaqələr *(şaquli inteqrasiya)* şəklində həyata keçirilir. Bu inteqrasiya məzmun xətləri, siniflər üzrə gözlənilən təlim nəticələri və məzmun standartları arasında *(bilik və bacarıqlar sistemində)* reallaşdırılır. Belə ki ümumi orta təhsil səviyyəsində formalaşdırılan bacarıqlarla tam orta təhsil səviyyəsində formalaşdırılan bacarıqlar məzmun etibarilə bir-biri ilə sıx əlaqəlidir, biri digərini tamamlayır və inkişaf etdirir.

Tarix fənninin tədrisi prosesində iki tip inteqrasiya tətbiq etmək məqsədəuyğundur. Birinci tipə fənn daxilində *(şaquli və üfqi)* inteqrasiya, ikinci tipə isə fənlərarası (üfüqi) inteqrasiya daxildir. Birinci tip inteqrasiya özündə aşağıdakı modelləri birləşdirir:

- ✓ fraqmentləşdirilmiş *(hissələrə bölünmüş)* inteqrasiya;
- ✓ əlaqəli inteqrasiya;
- ✓ sıxlaşdırılmış *(iç-içə yerləşdirilmiş)* inteqrasiya.

Kurikulumun ənənəvi planlaşdırma və təşkili modeli olan fraqmentləşmiş inteqrasiya digər fənlərdə olduğu kimi, Ümumi tarixin də müstəqil tədris sahəsidir. Ümumi orta və tam orta təhsil pillələrində Ümumi tarix ayrıca fənn kimi tədris olunur. Bu modeldə fraqmentlənmə olmasına baxmayaraq, Ümumi tarix fənni daxilində tədris prioritetlərini sistemli təşkil etmək, üst-üstə düşmə və yüklənmə hallarını azaltmaq üçün inteqrasiya mövzularının, bacarıqların və konsepsiyaların sıra ilə qeyd olunması və dəyərləndirilməsi ilə başlana bilər. Məsələn, 8-ci sinifdə "Qızılbaş dövlətləri" mövzusu bu qəbildəndir. Belə ki müxtəlif tarixi dövrlərdə Azərbaycanın bir sıra əraziləri bu imperiyaların tərkibində olduğundan o dövlətlərdə baş vermiş hadisə və təzahürlərdə oxşarlıq çoxdur. Bu mövzuların inteqrasiyası şagirdlərə Azərbaycan tarixinin həmin dövrünü tam halda dəyərləndirməklə yanaşı, hadisə və təzahürlər arasında oxşar və fərqli prosesləri müqayisə edərək səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək imkanı verir. Bu inteqrasiya modeli məzmun, konsepsiya və bacarıqların şaquli əlaqələndirilməsinin sadə forması da ola bilər.

Əlaqəli inteqrasiya modeli Ümumi tarixi fənni daxilində diqqəti mövzulara, bacarıqlara və konsepsiyalara yönəldir. Bu modeldə fənn daxilindəki mövzular, bacarıqlar və konsepsiyalar arasındakı əlaqələr aydın şəkildə qurulur. Məsələn, insanlar arasında bərabərsizliyin yaranmasının nəticəsi olaraq sosial qrup və təbəqələrin meydana çıxması ilk dövlət qurumlarının və dövlətlərin yaranması ilə, onlar da, öz növbəsində, xalqın fiziki və mənəvi varlığının qorunması üçün tariximizin bütün mərhələlərində müstəqil dövlətçiliyə

malik olmaq və s. ilə əlaqələndirilir. Bu modelin üstünlüyü ondadır ki, hər bir sinifdə, hər bir təhsil mərhələsində dövlətçilik və onun qorunması konsepsiyası əlaqələndirilir, sistemləşdirilir və genişləndirilir. Bu da, öz növbəsində, fənn daxilində mövzuların və bacarıqların əvvəlkilərə istinad olunaraq yenidən nəzərdən keçirilməsinə və mənimsənilməsinə gətirib çıxarır.

Sıxlaşdırılmış *(iç-içə yerləşdirilmiş)* modelə çox vaxt "yuva" modeli də deyirlər. Ümumi tarixin inteqrativ kurikulumunda bu modeli açıq şəkildə əlaqələndirmələrin və ya kombinasiyaların qurulması yolu ilə tətbiq etmək mümkündür. Bu modelin tətbiqi əsas diqqətin fənnin daxilində çoxşaxəli bacarıqlara *(sosial bacarıq, düşünmə bacarığı və məqsədyönümlü bacarıq)* yönəldilməsinə şərait yaradır. Məsələn, müəllim Qərbi Avropada və Rusiyada təhkimli kəndli əməyindən istifadəni şagirdlərin diqqətində saxlamaqla yanaşı, onlara "mərkəzləşdirilmiş dövlətlə digər dövlətlərin fərqi" mövzusunda esse yazılmasına nail ola bilər. Bu modelin tətbiqi eyni vaxtda müxtəlif sahələrə diqqətin yönəldilməsinə, əhatəli və məqsədyönümlü bilik əldə olunmasına şərait yaradır.

İnteqrasiyanın ikinci tipi fənlər arasında tətbiq olunur. Bu zaman Ümumi tarix fənninin ümumi orta və tam orta təhsil səviyyəsində Azərbaycan dili, Azərbaycan tarixi, Coğrafiya, Ədəbiyyat, Həyat bilgisi və s. fənlər ilə inteqrasiyası mümkündür. Ümumi tarixinin inteqrativ kurikulumunda fənlər arasında inteqrasiyasının aşağıdakı modellərini tətbiq etmək mümkündür:

- ardıcıl (sıralanmış model);
- ümumi (ortaq model);
- zəncirvari (hörülmüş) model.

Ümumi tarix fənninin Azərbaycan tarixi fənni ilə inteqrasiyası daha çox ardıcıl *(sıralanmış)* modelin tətbiqi nəticəsində mümkündür. Bu fənlərdə çoxlu oxşar bölmələr və mövzular vardır ki, onlar ayrı-ayrılıqda tədris olunur. Lakin onları elə planlaşdırmaq olar ki, *(bunun üstün cəhəti həmin fənlərin eyni müəllim tərəfindən tədris olunmasıdır)* əlaqəli konsepsiyalar, biliklər, bacarıqlar eyni çərçivədə yaranır və eyni vaxtda öyrənilir. Bu cür inteqrasiyasının həyata keçirilməsi üçün kurikuluma dair sənədlərdə məzmun hökmən balanslaşdırılmalıdır. Bu zaman standartın standartla uyğunluğu mütləq nəzərə alınmalıdır.

Ümumi model iki müxtəlif fənni vahid istiqamət üzrə bir araya gətirir. Ümumi model üzrə yanaşmaya əsasən inteqrasiya apara bilmək üçün fənn müəllimləri təlim prosesinə fənlərarası mövqedən yanaşaraq fənbirləşmə yığıncaqlarında əsas konsepsiyaları, bacarıq və dəyərləri müəyyənləşdirirlər. Bu daha çox tarix və ədəbiyyat fənlərinin tədrisində mümkündür.

*Zəncirvari model* tarixin tədrisinin inteqrasiyası kurikulumun tələbinə görə fənlərarası standartların üst-üstə düşən konsepsiyaları və onların məlum olan xüsusiyyətləri əsasında tətbiq olunur. Bu model ortaq *(ümumi)* modellə oxşardır. Lakin model elm sahələri üzrə üst-üstə düşən bacarıqlar, konsepsiyalar və dəyərlər üzərində qurulur. Bu model fənn sahələrini sinergetik birləşdirir, yəni bir fənn üzrə biliklər digər fəndən ayrılmır, bölünmə yalnız fərqləndirilən məzmunun və ya anlayışın tədrisində baş verir. Bu model inteqrasiya fənlərinin məzmunundan əlaqəli fikirləri seçib ayırmaq nəticəsində yaranır.

# VIII SİNİF ÜMUMİ TARİX FƏNNİ ÜZRƏ ALT STANDARTLARIN İNTEQRASİYA İMKANLARI

| Tarixi zaman | |
|---|---|
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 1.1.1. Oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətlərini izah edir. | Azərbaycan tarixi (Az.t.) 1.1.1.<br>Azərbaycan dili (A.d.) 1.2.2.<br>Ədəbiyyat (Əd.) 2.2.1.<br>Xarici dil (X.d.) 2.1.3. |
| 1.1.2. Oxşar proses və hadisələri əlaqələndirən sinxron cədvəllər tərtib edir. | Azərbaycan tarixi (Az.t.) 1.1.2.<br>Həyat bilgisi (H.b.) 2.2.1.<br>İnformatika (İnf.) 3.2.4. |
| 1.1.3. Hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir. | Azərbaycan tarixi (Az.t.) 1.1.2<br>İnformatika (İnf.) 3.2.2. |
| **Tarixi məkan** | |
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 2.1.1. Feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, dünyada baş vermiş iqtisadi, sosial dəyşiklikləri məkanla əlaqədə izah edir. | Azərbaycan tarixi (Az.t.) 2.1.1.<br>Azərbaycan dili (A.d.) 1.1.1., 1.2.4.<br>Ədəbiyyat (Əd.) 2.1.2.<br>Coğrafiya (Coğ.) 3.2.2.<br>Həyat bilgisi (H.b.) 2.1.1.<br>Xarici dil (X.d.) 2.1.3. |
| 2.1.2. Dövlətlərin və xalqların həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür. | Azərbaycan tarixi (Az.t.) 2.1.2.<br>Coğrafiya (Coğ.) 1.3.2. |
| **Dövlət** | |
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 3.1.1. Dövlətlərin (İngiltərə, Fransa, Rusiya, ABŞ, Osmanlı, İran, Çin, Hindistan, Mərkəzi Asiyanın türk dövlətləri, Qazaxıstan, Krım, Sibir, Volqaboyu, Qafqaz xalqları) yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil edir. | Azərbaycan tarixi (Az.t.) 3.1.1.<br>Azərbaycan dili (A.d.) 1.1.2., 1.2.4.<br>Ədəbiyyat (Əd.) 2.1.3.<br>Həyat bilgisi (H.b.) 2.1.1, 2.1.2.<br>Xarici dil (X.d.) 3.1.4. |
| 3.1.2. Yeni tipli dövlətlərin qeyri-bərabər inkişafına aid esse yazır. | Azərbaycan tarixi (Az.t.) 3.1.2.<br>Azərbaycan dili (A.d.) 3.1.1.<br>Ədəbiyyat (Əd.) 3.1.3. |

| Şəxsiyyət | |
|---|---|
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 4.1.1. Tarixi şəxsiyyətləri (Oliver Kromvel, Maksimilian Robespyer, I Pyotr, II Yekaterina, Corc Vaşinqton, Benjamin Franklin, Köprülü Mehmet paşa, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar) müqayisə edir. | Azərbaycan tarixi (Az.t.) 4.1.1.<br>Azərbaycan dili (A.d.) 1.2.4.<br>Ədəbiyyat (Əd.) 2.2.1.<br>Xarici dil (X.d.) 2.1.2. |
| 4.1.2. Tarixi şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır. | Azərbaycan tarixi (Az.t.) 4.1.2.<br>İnformatika (İnf.) 3.2.3.<br>Texnologiya (Tex.) 4.2.1. |
| **Mədəniyyət** | |
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 5.1.1. Şərq və Qərbdə intibah mədəniyyətinin xüsusiyyətlərini izah edir. | Azərbaycan tarixi (Az.t.) 5.1.1.<br>Azərbaycan dili (A.d.) 1.2.4.<br>Ədəbiyyat (Əd.) 2.1.3.<br>Həyat bilgisi (H.b.) 2.1.1.<br>Xarici dil (X.d.) 2.1.3.<br>Təsviri incəsənət (T.i.) 1.2.1., 2.1.1., 3.1.2. |
| 5.1.2. Elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edir. | Azərbaycan tarixi (Az.t.) 5.1.2.<br>Azərbaycan dili (A.d.) 1.1.1., 2.2.3.<br>Ədəbiyyat (Əd.) 2.1.2.<br>Həyat bilgisi (H.b.) 2.1.1. |
| 5.1.3. Dünya mədəniyyətinin nailiyyətlərinə dair cədvəl və qrafiklər hazırlayır. | Azərbaycan tarixi (Az.t.) 5.1.3.<br>İnformatika (İnf.) 3.2.2.<br>Texnologiya (Tex.) 4.2.1. |

## ŞAGİRD NAİLİYYƏTLƏRİNİN MƏKTƏBDAXİLİ QİYMƏTLƏNDİRİLMƏSİ

Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nailiyyətləridir. Qiymətləndirmə isə onu üzə çıxaran ən etibarlı mənbədir. Qiymətləndirmə təlim nəticələri ilə balanslaşan bir prosesdir. Təlim prosesinin təkmilləşdirilməsi, habelə dövlət təhsil standartlarının monitorinqinin həyata keçirilməsində də qiymətləndirmə bir mexanizm kimi əvəzolunmaz mövqeyə malikdir. Bu sistem hüquqi cəhətdən "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə "Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1633 nömrəli Fərmanının 3-cü hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 28 dekabr 2018-ci il tarixli 8/1 nömrəli Kollegiya Qərarı ilə təsdiq edilmiş Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (məktəbdaxili qiymətləndirmənin) aparılması Qaydası ilə tənzimlənmişdir.

Qiymətləndirmənin ən əhəmiyyətli növü məktəbdaxili qiymətləndirmədir. Məktəb-

daxili qiymətləndirmə məzmunca öyrənənin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması kimi qəbul edilir, şagird irəliləyişlərinin *(geriləmələrinin)* izlənilməsi *(monitorinqi)*; təlim prosesində qərarların qəbulu; şagirdin təlim nəticələrinin qiymətləndirilməsi; kurikulumun qiymətləndirilməsi məqsədlərinə xidmət edir. Şagird nailiyyətlərinin qiymətləndirilməsi şagirdin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması prosesi kimi qəbul edilir.

**Qiymətləndirmə prosesinin tətbiq edilməsinin səbəbi:**

- təlim nəticələrinin, standartların mənimsənilməsi səviyyəsini öyrənmək;
- şagirdlərin təlimə marağını yüksəltmək;
- şagirdin güclü və zəif cəhətlərini müəyyən etmək;
- şagird nailiyyətini dəyərləndirmək;
- şagirdin nəyə nail olduğuna əmin olmaq;
- şagirdin gələcək uğurlarının maksimallaşdırılması.

**Qiymətləndirmələrin aparılmasında aşağıdakı prinsiplərə riayət olunur:**

- məqsədəuyğunluq;
- nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi;
- toplanılmış məlumatların keyfiyyətcə müvafiqliyinin və etibarlılığının təmin olunması;
- qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq;
- təlim fəaliyyətində qiymətləndirilmə nəticələrinin inkişafetdirici rolunun təmin olunması.

Prosesin tamlığı üçün şagird nailiyyətlərinin qiymətləndirilməsi biri digərinin mövcudluğunu təmin edən və aparılmasına zəmin yaradan üç növü üzrə həyata keçirilir:

- diaqnostik *(ilkin səviyyənin qiymətləndirilməsi)*;
- formativ *(irəliləmə və geriləmələrin izlənilməsi)*;
- summativ *(yekun)*.

## Qiymətləndirmənin üsul və vasitələri

Hər bir fənn kurikulumunda məzmun standartları və onların mənimsənilməsi üçün istifadə edilən startegiyalarla yanaşı, nail olunmuş təlim nəticələrinin, əldə edilmiş bilik və bacarıqların qiymətləndirilməsi məqsədilə müvafiq qiymətləndirmə standartlarının nümunələrindən də istifadə olunur.

Fənn kurikulumlarında təyin edilmiş standartlar olmadan şagirdlərin kurikulum üzrə fəaliyyətini qiymətləndirmək üçün tələb olunan vasitələri hazırlamaq mümkün deyil. Fənlərin məzmun standartlarının təsis edilməsində əsas məqsəd bu standartların hər bir şagird tərəfindən mənimsənilməsi istiqamətində təlim məqsədlərinin təyin edilməsidir.

Xüsusi qeyd etmək lazımdır ki, qiymətləndirmə vasitələri *(eyni çətinlik dərəcəli və müxtəlif variantlı testlər, yardımçı tədris materialları)* nümunələrə və müvafiq təlimatlara əsasən müəl-

limlər tərəfindən hazırlanır, məktəbin rəhbərliyi tərəfindən təsdiq edilir. Qiymətləndirmə vasitələrinin hazırlanması zamanı əvvəlcə qiymətləndirmənin aparılacağı növ müəyyənləşdirilməlidir. Yalnız bundan sonra prosesi icra etmək olar. Vasitələr qiymətləndirmənin hər bir növü üzrə (həm diaqnostik, həm formativ, həm də summativ qiymətləndirmə), onların məzmununa uyğun aparılmalıdır ki, nəticədə qarşıya qoyulmuş məqsədə çatmaq mümkün olsun.

Hörmətli müəllimlər, müəllif olaraq 6-7 və 10-cu sinif Ümumi tarix metodik vəsaitlərinin (Elnur Hüseynov, Niyaməddin Quliyev Pərviz Ağalarov, Ümumi tarix 6, Metodik vəsait, Bakı Şərq-Qərb 2021., Elnur Hüseynov, Niyaməddin Quliyev Pərviz Ağalarov, Ümumi tarix 7, Metodik vəsait, Bakı Şərq-Qərb 2022, Elnur Hüseynov, Niyaməddin Quliyev Pərviz Ağalarov, Ümumi tarix 10, Metodik vəsait, Bakı Şərq-Qərb 2022) yazılması zamanı məktəbdaxili qiymətləndirməni üsul və vasitələrindən olan özünüqiymətləndirmə, qarşılıqlı qiymətləndirmə, qısa cavablı tapşırıqlar, çoxseçimli (test) tapşırıqları, uyğunlaşdırma (qarşılaşdırma) tapşırıqlar, doğru-yanlış cavablı tapşırıqlar, açıq cavablı tapşırıqlar, şifahi sual-cavab, müşahidə, müşahidə vərəqləri, yoxlama vərəqləri, qrup qiymətləndirmə vərəqi, şagirdin özünüqiymətləndirmə vərəqi, şagirdlərin qarşılıqlı qiymətləndirmə vərəqi, diskussiyanın qiymətləndirilməsi, dəyərlərin qiymətləndirilməsi kimi nümunələr, eləcə də diaqnostik, formativ və summativ qiymətləndirmə zamanı daha çox istifadə olunan vasitələr haqqında sizə kömək məqsədi ilə bir sıra məlumatlar vermişik ki, dərsinizi quran zaman bu məlumatlar sizə kömək edə bilər.

## TƏLİM MƏQSƏDLƏRİNİN DÜZGÜN REALLAŞDIRILMASI İLƏ BAĞLI TÖVSİYƏLƏR

Məzmun standartlarının düzgün və vaxtında reallaşmasını təmin etmək üçün birinci şərt təlim məqsədlərinin düzgün yazılmasıdır. Yaxın və uzaq hədəfləri özündə birləşdirən məqsədlərin yazılması müəllimdən böyük istedad tələb edir. Bunun üçün müəllim tənqidi düşüncəyə, yaradıcı təfəkkürə, məntiqi əsaslanmaya, planlaşdırma bacarığına, perspektivi görmə istedadına malik olmalıdır. Təlim məqsədlərinin düzgün yazılmasının şərtləri aşağıdakılardır:

- təlim məqsədinin məzmun standartının tələbinə uyğunluğu;
- məqsəd çıxararkən məzmun standartlarının qismən və ya bütövlükdə reallaşdırılacağının müəyyən edilməsi;
- məzmun standartlarındakı ümumi məsələlərin mövzu baxımından xüsusiləşdirilməsi;
- məzmun standartında biliyin kateqoriyalarının müəyyən edilməsi *(deklarativ, prosedural, kontekstual);*
- məzmun standartında bacarığın xüsusiyyətinin müəyyən edilməsi *(idraki, emosional, psixomotor);*
- hər məqsədin yalnız bir fəaliyyəti əks etdirməsi və ölçülə bilən olması;
- təlim məqsədlərinə uyğun şagird nailiyyətinin qiymətləndirilməsinin üsul və vasitələrinin seçilməsi.

Təlim məqsədləri yazılarkən mərhələlilik və əlaqəlilik mütləq nəzərə alınmalıdır. Məqsədlər taksonomiya – sadədən mürəkkəbə doğru zəncirvari, iyerarxiya üzrə inkişafı əks etdirən şəkildə yazılmalıdır. Təlim məqsədlərinin taksonomik quruluşu tədris prosesi-

ni planlaşdırmaq və onun nəticəsini ölçmək imkanı verir. Məqsədləri qruplaşdıran zaman sadədən mürəkkəbə prinsipi nəzərə alınmalıdır. Təlim məqsədlərinin, standartların *(məzmun və qiymətləndirmə)* və şagird fəaliyyətinin səviyyələndirilməsi zamanı hər üç taksonomiyadan istifadə etmək faydalı olardı:

- İdraki (təfəkkür, koqnitiv);
- Emosional (hissi, affektiv);
- Psixomotor (hərəki).

Vəsaitdə məqsədlər yazılan zaman standartların ardıcıllığı əsasında iyerarxik – pilləli, əlaqəli və taksonomiyanın mərhələlərinə uyğunluq gözlənilmişdir.

İstifadə olunan təlim texnologiyaları idrak (Blum) taksonomiyasının mərhələlərinə uyğun şəkildə seçilmiş və təsnif edilmişdir. Aşağıdakı cədvələ uyğun olaraq fəaliyyətlər təsbit olunmuş və mərhələlərə uyğun texnologiyalarla müşayiət edilmişdir.

| Bilmə | Şagird |
|---|---|
| Bu kateqoriya öyrənilmiş tədris materialının yadda saxlanılması və yenidən əks etdirilməsi, yada salınmasıdır. Bu kateqoriyanın tədris məqsədi lazımi məlumatların yada salınmasıdır. | istifadə olunan terminləri bilir;<br>konkret faktları bilir;<br>proseduru və metodları bilir;<br>əsas anlayışları bilir;<br>prinsipləri və qaydaları bilir. |
| **Anlama** | **Şagird** |
| Bu kateqoriya öyrənilmiş biliyin əhəmiyyətinin başa düşülməsi mərhələsidir. Onun göstərişi öyrənilmiş materialın bir formadan başqasına, bir dildən başqasına və ya yığcam izahata *(nəticənin izahı)* keçməkdir. Tədrisin belə nəticələri dərs materialının sadə yadda saxlanılmasından üstündür. | prinsipləri, qaydaları və faktları başa düşür;<br>materialı öz sözləri ilə izah edir;<br>sxemləri, diaqramları izah edir;<br>materialın sözlərlə izahını başqa anlayışlarla əvəz edə bilir;<br>əldə edilmiş biliklərdən gələcəkdə əldə edilə bilən nəticəni təsvir edir. |
| **Tətbiqetmə** | **Şagird** |
| Bu kateqoriya öyrənilmiş materialı yeni situasiyalarda, konkret şəraitdə tətbiq etmək bacarığıdır. Bura: prinsiplərin, qanunların, metod və üsulların tətbiqi daxildir. Tədris nəticələrinin, sadəcə, başa düşülməsi yox, onun daha yüksək səviyyədə nəticələrindən istifadə etmək qabiliyyətidir. | yeni şəraitdə prinsiplərdən və anlayışlardan istifadə edə bilir;<br>konkret praktiki situasiyalarda qanunları, nəzəriyyələri tətbiq edir;<br>prosedur və metodların düzgün tətbiqini nümayiş etdirir. |

| Təhliletmə | Şagird |
|---|---|
| Bu kateqoriya tədris materialını əsas hissələrə ayırmaq, onun strukturunu müəyyənləşdirmək bacarığıdır. Bura bütövün hissələrə bölünməsi, onların arasında əlaqələrin üzə çıxarılması, bütövün təşkili prinsiplərinin başa düşülməsi daxildir. Bu zaman tədrisin nəticələri, sadəcə, başa düşmə və tətbiqetmə deyil, daha yüksək intellektual səviyyəyə uyğun olur. | gizli, gözə görünməyən təsəvvürləri açıqlayır;<br>məntiqi izahatda səhvləri və unudulmuşları görür;<br>faktlar və nəticələr arasında fərqi üzə çıxarır;<br>dəlillərin əhəmiyyətini qiymətləndirir. |
| **Sintez** | **Şagird** |
| Bu kateqoriya elementləri, hissələri birləşdirmək, yeniliyə malik bütövün əldə edilməsi bacarığıdır. Bu yolla müəyyən çıxış, məruzələrin hazırlanması və ya sxemlərin hazırlanması mümkündür. Beləliklə, təhsil nəticələri yaradıcı xarakter daşıyaraq, yeni sxem və strukturların formalaşmasına imkan yaradır. | kiçik yaradıcı xarakterli inşa yazır;<br>eksperimentin həyata keçirilmə planını təklif edir;<br>müəyyən problemin həlli üçün plan hazırlamaq üçün müxtəlif bilik sahələrindən istifadə edir. |
| **Dəyərləndirmə** | **Şagird** |
| Bu kateqoriya bu və ya digər materialın əhəmiyyətini qiymətləndirmə, əsaslandırma və onun izahetmə bacarığıdır. Şagirdin mühakiməsi dəqiq müəyyənləşmiş meyarlara əsaslanmalıdır. Meyarlar daxili və xarici struktura, məntiqi xüsusiyyətlərə malik ola bilər. Bu kriteriyalar müəllim və şagirdin özü tərəfindən müəyyənləşə bilər. | materialın məntiqi quruluşunu qiymətləndirir:<br>nəticələrin faktlara əsaslanmasını qiymətləndirir;<br>bu və ya digər fəaliyyətin nəticəsində əldə edilmiş məhsulun keyfiyyətini meyarlar əsasında qiymətləndirir. |

| İdraki bacarıqlar | İnkişaf mərhələləri |
|---|---|
| BİLMƏ | xatırlama, tanıma, göstərmə, sadalama, adlandırma |
| ANLAMA | izah etmə, nümunə göstərmə, öz sözləri ilə təsvir etmə, fərqləndirmə |
| TƏTBİQETMƏ | həll etmə, istifadə etmə, cümlə qurma |
| TƏHLİLETMƏ | hissələrə ayırma, struktur müəyyənləşdirmə, müqayisə etmə |
| SİNTEZ | yaratma, plan tutma, tərtib etmə |
| DƏYƏRLƏNDİRMƏ | münasibət bildirmə, qərar qəbul etmə |

Araşdırmalar onu göstərir ki, məktəblərdə dərs deyən müəllimlər şagirdləri formativ qiymətləndirən zaman çox vaxt şagirdləri səviyyələr üzrə qiymətləndirmək məsələsində çətinlik çəkirlər.

Hörməli müəllimlər, sizlərə taksonomiya nəzərə alınmaqla aşağıdakı formada şagirdin dərs prosesində səviyyələr üzrə qiymətləndirilməsi üçün bir neçə nümunə təklif edirik. Onu da deyək ki, mövcud olan standartlar heç də həmişə aşağıdakı nümunə formasında şagirdləri qiymətləndirməyə imkan vermir. Bununla belə ümidvarıq ki, sizə təqdim etdiyimiz nümunə dərs proseində sizə yararlı olacaqdır.

**8-ci sinif Ümumi tarix fənninin 1.1.3. standartı əsasında hazırlanan səviyyələrə nümunə**

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini ***sadalayır.*** | Hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini ***öz sözləri ilə təsvir edir.*** | Hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllərin ***strukturunu müəyyənləşdirir.*** | Hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər ***tərtib edir.*** |

Cədvəldən göründüyü kimi, IV səviyyədə 1.1.3. standartı əsasında nümunə kimi hazırlanan səviyyələri təqdim edirik. IV səviyyə taksonomiyanın SİNTEZ səviyyəsini özündə əks etdirir. Belə olan halda biz taksonomiyaya söykənərək şagirdləri TƏHLİLETMƏ (III səviyyə), ANLAMA (II səviyyə), BİLMƏ (I səviyyə) səviyyələrinə uyğun olaraq qiymətləndirməni tövsiyə olaraq sizlərə təqdim etdik.

**8-ci sinif Ümumi tarix fənninin 4.1.1. standartı əsasında hazırlanan səviyyələrə aid nümunə:**

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tarixi şəxsiyyətləri ***xatırlayır.*** | Tarixi şəxsiyyətləri ***nümunə olaraq göstərir.*** | Tarixi şəxsiyyətlərlə bağlı ***cümlələr qurur.*** | Tarixi şəxsiyyətləri ***müqayisə edir.*** |

Cədvəldən göründüyü kimi, IV səviyyədə 4.1.1. standartını nümunə olaraq vermişik. Bu nümunədə də şagirdləri taksonomiyanın BİLMƏ *(I səviyyə)*, ANLAMA *(II səviyyə)*, TƏTBİQETMƏ *(III səviyyə)* və TƏHLİLETMƏ səviyyəsinə uyğun qiymətləndirməyi məqsədəmüvafiq bilmişik.

## İNTERAKTİV TƏDRİS FORMASI

İnteraktiv (fəal) təlim şagirdlərin idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur. Şagirdlərin parta arxasında oturaraq kitab oxuması, iş vərəqlərini doldurması, müəllimi dinləməsilə yanaşı, eyni zamanda kitabxanada, kompüterdə qrup və ya fərdi şəkildə fəaliyyət göstərməsi onun əsas əlamətlərindən hesab edilir. Fəal təlim müasir şəraitdə pedaqoji prosesin qurulmasına yeni yanaşmadır. Belə yanaşma tərzində təlim şagirdlərin təkcə yaddaşının yeni elmi biliklərlə (informasiya ilə) zənginləşdirilməsinə deyil, həm də təfəkkürün inkişaf etdirilməsinə, ən mühüm bacarıq və vərdişlərin əldə olunmasına yönəldilir. Bu zaman şagirdlər açıq sual vermək, problemləri araşdırmaq, tədqiqat aparmaq və müzakirə etmək imkanı qazanırlar. Onlar təlim materiallarının mənimsənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, ümumiləşdirmələr aparmağı öyrənirlər. Beləliklə, uşaqlar həm tədris, həm də sosial xarakterli problemlərin müstəqil həllinə cəlb olunur, müxtəlif informasiya mənbələrindən istifadə edir, sistematik olaraq müstəqil şəkildə bilik ehtiyatını artırırlar.

İnteraktiv təlim şagirdlərin diqqət mərkəzində olduğu bir pedaqoji təcrübədir. Burada şagirdlərin yalnız nə öyrəndiklərinə deyil, necə öyrəndiklərinə diqqət yetirilir. Müəllim olaraq biz şagirdləri passiv məlumat almağa deyil, «yaxşı düşünməyə» təşviq etməliyik. Aktiv öyrənmə şagirdləri məktəbdə və ondan kənarda özünə inamlı olmağa həvəsləndirir və onların müstəqil öyrənmələrinə məsuliyyətli olmağı dəstəkləyir.

Tədqiqatlar göstərir ki, şagirdlərə, sadəcə, nəyi bilməli olduqlarını izah etməklə anlayışları ötürmək mümkün deyil. Biz onlara fikirlərini formalaşdırmaq, düşüncələrini inkişaf etdirmək üçün şərait yaratmalıyıq. Aktiv öyrənmə dəyərləndirmə, qiymətləndirmə, təhlil etmə, sintez kimi daha mürəkkəb idraki prosesləri inkişaf etdirir. Bununla yanaşı bəzi şagirdlər passiv alınan məlumatlardan öz şəxsi qənaətlərinə də gələ bilərlər. Aktiv öyrənmə yaradılan imkanlar daxilində bütün şagirdlərə bilik və bacarıqlar əldə etməyi təmin edir.

## Tarixin tədrisində interaktiv öyrənmə

Çox zaman tarixə ağır məzmunlu, çoxsaylı fakt və xronologiyanın əzbərlənməsini tələb edən fənn kimi baxılır. Məlumatlar şagirdlərə təkcə informasiya vermir, onlara nəyi bilmək lazım olduğunu izah etməklə, həm də ibrətamiz bir yolla, eləcə də stimullaşdırıcı vasitələrlə də öyrədilə bilər.

Müəllim hər bir şagirdə fərdi yanaşmalı və daim arxasında olmalıdır.

- *Şagirdlərimə, sadəcə, faktlar təqdim etməyib, onların düşüncəsinə çağırış etdiyimə necə əmin ola bilərəm?*
- *Şagirdlərə tarixi məlumatları müxtəlif formatlarda təqdim edə bilərəmmi?*
- *Öyrənənləri əyani vasitələrə, dinləyib-anlamaya, müzakirə və ya bir-biri ilə söhbət etməyə necə təşviq edə bilərəm?*
- *Şagirdləri aktiv iştirakçı olmağa və öyrənmələri üçün üzərlərində daha çox məsuliyyət götürməyə, onlara məktəbi bitirdikdən sonra da müvəffəq olmaları üçün lazım olacaq müstəqil bacarıqları inkişaf etdirməyə necə sövq edə bilərəm?*

## Müəllimə məsləhət

Mövzu şagirdlərə maraqlı olduqda onlar daha dərindən öyrənirlər. Aktiv öyrənmə strategiyaları bunu şərait yarada bilər. Öyrənənlərin mövzuya marağını və həvəsini artırmaq üçün dərsə əlavə "rəng" qatın. Şagirdlər müşahidə və ya sorğu aparmaqla fəal şəkildə öyrənirlər. Onlara öyrənmək üçün bir mövzu vermək əvəzinə "Nəyə görə tarixçilər Nadir şahı II Makedoniyalı İsgəndər və ya şərqin Napaleonu adlandırmışlar?" "ABŞ-nin yaranması dünyanın sonrakı inkişafına necə təsir göstərdi?" kimi tədqiqata yönəlik suallar vermək yaxşı olardı. Öyrənənlərin tədqiqatçılıq bacarıqları olmadığından əvvəlcə bu, çətin görünə bilər. Onlara bir tarixi film izləmələri tövsiyə edilə bilər. Növbəti dərsə filmlə bağlı müzakirə ilə başlamaq olar. Bu, dəyər və problemlər haqqında daha geniş debatlara gətirib çıxara bilər.

Şagirdləri etibarlı internet saytlarına yönəltmək lazım ola bilər. Bu cür tədqiqatlar öyrənənə tarixçi üçün vacib bir bacarıq olan məlumat topladıqları məkanı tənqidi qiymətləndirməyə imkan yarada bilər. Onlar internet saytları, eləcə də digər informasiya qaynaqları haqda – "mövcud veb saytı kim yaradıb?" və "bu veb saytı yaratmağa onları motivasiya edən nə idi?" – düşünə bilərlər.

## İnteraktiv öyrənmə strategiyaları

Bəzən mövzu ilə bağlı bütün siniflə hər hansı bir sualla müraciət olunmaqla yanaşı, müzakirə etmək lazım gəlir. Müəllim dərsinə müzakirə ediləcək mövzunu əhatə edən Powerpointdə hazırlanmış təqdimatla başlaya bilər. Şagirdlərə uzun bir mühazirə oxumaq nadir hallarda effektli olur, çünki onlar öyrənmə prosesində fəal iştirak etmir, əksinə, passiv dinləyici rolunda çıxış edirlər. Buna baxmayaraq, müəllim onların belə öyrənmə keyfiyyətini qiymətləndirməlidir. O, şagirdlər üçün tarixi mövzuları təkcə "nəql etməyə"

deyil, onların öyrənmələrinə kömək edəcək aktiv mühit yaratmalıdır. Bu yaradıcı yanaşmanızı nümayiş etdirmək şansınızdır! İnteraktiv öyrənmə strategiyaları o halda yaxşı işləyir ki, öyrənənlər məlumatları fərqli bir formaya çevirirlər. Məsələn, yazılı mətni götürüb afişaya çevirmək.

Ən yaxşı birgə fəaliyyət göstərməkdir.

## Vizual metafora yaratmaq üçün məsləhətlər

Mətni daha parlaq və daha duyğulu etməyə imkan verən ədəbi bir texnika olan metaforadan dərs ideyası kimi istifadə edin. Bir əşya, varlıq və hadisəyə məxsus əlamətin başqa bir əşya, varlıq və ya hadisə üzərinə köçürülməsi yolu ilə düzələn metaforadan mətn tərtib edərkən, dərsi planlaşdıranda, müqayisələr aparanda, bənzətmələr edəndə istifadə edin.

## Debatlar qurmaq üçün məsləhətlər

Şagirdlərin müzakirəyə cəlb olunmasının aktiv yolu onların əsas bir məsələni müzakirə etmələrinə şərait yaratmaqdır. Müzakirələr şagirdlərə bir yerdə işləmək, müxtəlif fikir və nəzəriyyələri eşitmək, öz şəxsi qərarını formalaşdırmaq üçün onları sintez etmək imkanı verir. Şagirdləri debata həvəsləndirmək üçün seçiləcək mövzu geniş müzakirələr aparmaq üçün yararlı olmalıdır.

Bunun üçün şagirdlərə aşağıdakı formada müzakirə mövzusu təklif edin: "Müharibələrin aparılması dövləti iqtisadi cəhətdən zəiflədir". Bu ifadə ilə nə qədər razısınız?

## Rollu oyunlar qurmaq üçün məsləhətlər.

Rollu oyunlar şagirdlərin tarixi hadisələri öyrənə bilməsi üçün daha rahat bir vasitədir. Tarixi hadisələr əsasında səhnələşdirmələr öyrənənlərə əsas hadisələri başa düşməyə yaxından kömək edə bilər. Əgər bir mətn qavramanı çətin qavranılırsa, bu mətnin rollar vasitəsilə təqdimi şagirdlərə mətni anlamaqda kömək edə bilər.

Bunun üçün hər bir şagirdə dərsin əvvəllində əsas hadisələri oxumaq tapşırılır. Şagirdlərdə əsas obrazlar haqqında təəssürat yaradıb onlara ssenari yazmaq, sonra səhnələşdirmək tapşırılır. Bu zaman məhkəmə formatından da istifadə etmək olar: bir tərəf müdafiə edir, digəri mühakimə edir. Hər biri məhkəməyə dəlil və ya şahidlər təqdim edə bilər. Dərsin sonunda qərar qəbul edilir.

## Viktorinalar və oyunlar yaratmaq üçün məsləhətlər

Oyun oynamaq öyrənənləri həvəsləndirmək üçün əyləncəli bir yoldur. Komandalarla şagirdlərin ev tapşırığını başa düşməsini yoxlamaq üçün sürətli bir yol kimi dərsin əvvəlində söz axtarışı kimi oyunlardan, viktorinalardan, krosvordlardan istifadə edilir. Bu, dərsi tamamlamadan əvvəl hər hansı bir səhv düşüncəni düzəltməyə imkan verir. Eləcə də

dərslərin sonunda, əsas məsələləri dərk etməkdə çətinlik çəkən şagirdləri müəyyən etmək, onların öyrənmə dərəcəsini yoxlamaq üçün əla üsuldur.

Bu zaman şagirdlərdən viktorina oyunları və ya suallar hazırlamalarını xahiş etmək olar, yaradıcı və effektli yolla öz həmyaşıdlarının biliyinin sınanması onları öyrənməyə təşviq edər. Bu üsulla keçilən dərsin təkrarı kimi növbəti dərsin başlanğıcında istifadə edilə bilər.

## Bir-birini öyrətmək üçün məsləhətlər

Unutmayın ki, dərsə maraq göstərən şagirdlər tədris resursu kimi çox dəyərli ola bilərlər. Onlardan bir-birlərinə öyrətmələrini istəmək önəmli nailiyyət əldə etmək yoludur. Tədqiqatlarını auditoriyada həmyaşıdlarına anlaya biləcəyi bir yolla şifahi şəkildə izah etmək şagirdlərdən yüksək səviyyəli düşüncə tələb edir.

Bu zaman şagirdlərə tədqiqatçılıq xarakterli tapşırıq verilir, sonra onlara tədqiqat zamanı əldə etdikləri məlumatları yoxlamaq öyrədilir. Əgər şagirdlər, bir-birlərini öyrədərlərsə, deməli, mövzunu mənimsəmişlər. Həmyaşıdları tərəfindən öyrədilmiş şagirdlərdən sinifdə nə öyrəndiklərini izah etmələrini istəmək və ya onların düzgün öyrədilməsini yoxlamaq üçün viktorina kimi qısa bir qiymətləndirmə tapşırığından istifadə etmək mümkündür.

## Filmlər çəkmək üçün məsləhətlər

Smarfonlar və planşetlər kimi yeni texnologiyalar sinifdə filmləri çox əlçatan, sürətli və effektiv bir öyrənmə vasitəsinə çevirmişdir. Şagirdlər tarixi bir hadisəni, səhnələşməni, siyasi iclası və ya debatı yaddaşa köçürə bilərlər ki, bu da onlara sonradan "tarixi zamana çevrilmiş" bu hadisənin yenidən canlandırılmasına imkan yaradar.

## Afişaların yaradılması üçün məsləhətlər

Şagirdlərə mətni vizual görüntülərə çevirmək tapşırılır. Bu onların dərsin əsas məqamlarını nə qədər dərk etdiklərini yoxlamaq üçün çox faydalı bir yoldur. Əgər şagird afişa yaratmaq üçün öz şəxsi versiyasını təklif edirsə, deməli, bu uğurlu dərsdir. Məsələn; quldarlığın ləğv edilməsinin vacibliyini təsvir etmək, siyasi partiyanı təbilğ etmək, sosial bərabərsizliklə mübarizə aparmaq, yeni bir ixtiranı reklam etmək, tibbi nailiyyəti və ya əsgərlərin müharibəyə çağırışı kimi məsələlərə dair plakat hazırlamaq, mövzunun mənimsənilmə səviyyəsinin göstəricisidir.

## Diaqramların, qrafiklərin hazırlanması üçün məsləhətlər

Əsas hadisələrin xronoloji ardıcıllıqla yerləşdirilməsi bir hadisənin nə vaxt baş verdiyini, niyə baş verdiyini anlamaq çox faydalı ola bilər. Müharibələr, siyasi nəzarətin artırılması və ya azalması, iqtisadi inkişafın təsiri kimi əsas məqamları qeyd etmək üçün fərqli rəng kodlaşmasından istifadə şagirdə dərsi başa düşməkdə əlavə bir dəstək ola bilər. Bu zaman diaqramlardan istifadə etmək olar.

Şagirdlərə tarixi dəyişiklik və inkişaf qanunauyğunluqlarını başa düşməkdə vizual cəhətdən kömək etmək üçün diaqramalardan, əlavə qrafiklər yaratmaqda istiqamət vermək yaxşıdır. Qrafiklərdə xronoloji inkişafı, həmçinin əsas hadisələrin təsirini göstərmək olar. Məsələn, qrafikdə bir ölkədə immiqrasiyanı azalda və ya artıra biləcək müharibələrin və ya digər hadisələrin təsirini vermək olar.

## Sinifdənxaric öyrənmə üçün məsləhətlər

Şagirdlər sinifdən kənarda da fəal şəkildə öyrənə bilərlər. Aktiv təlimin əsas hissəsi onlara öyrənmələri üçün daha çox məsuliyyətli olmağı aşılamaqdır. Tədqiqat layihəsi üçün muzeyə, sənət qalereyasına və ya maraqlı tarixi yerə səyahət etmələri tövsiyə edilə bilər. Mövzu ilə duyğusal bir əlaqənin olması şagirdlərin marağına səbəb olur. Onlar tarixi hadisəni xatırlayan bir ailə üzvündən müsahibə götürə və ya bu tədbirin özündə iştirak edə bilərlər. Şagirdlər ünsiyyət qurduqda və emosionallığa qapandıqda öyrəndiklərində daha çox dəyər və aktuallıq görürlər. Tədrisə daha çox maraqlanır və bağlanırlar.

## İnteraktiv təlim prosesində müəllimin rolu

Dərs prosesində fasilitator rolunu oynayan müəllim dərslikdə verilən materialla yanaşı, keçiləcək mövzu ilə bağlı əlavə maraqlı məlumata da malik olmalıdır. Qəbul etmək vacibdir ki, aktiv öyrənmə strategiyalarından istifadə müəllim rolunu kökündən dəyişdirir. "Müəllim yönümlü" tədris əvəzinə, müəllim şagirdlər üçün bələdçi rolunu oynayır.

Bunun uçun müəllim aşağıdakıları etməlidir:

- Şagirdlərə dərsdə yeni materialı necə öyrənmənin faydalı olduğunu xatırlatmalı;
- Müxtəlif mənbələrdən tarixi məlumatları əldə edilməsi yollarına dair göstərişlər verməli;
- Şagirdlərin dərsin ümumi məqsədini bilmələrinə əmin olmalıdır. Bunun üçün fəaliyyətə başlamalarından əvvəl şagirdlərə bəzi təlimatları, əsas anlayışları, hədəfləri, meyarları xatırlatmaq məqsədəmüvafiqdir.
- Tədrisi "dəyişmənin" yollarını tapmalıdır. Şagirdlərə kitablar, məqalələr, veb saytlar yaratmaq və ya onları təqdim etmək tapşırığı vermək yaxşı olardı. Bu zaman onlar (səviyyəsindən asılı olmayaraq) daha yüksək səviyyəli təfəkkürə söykənməklə yeni dərsi əvvəlcədən öyrənə və dərsə hazır gələ bilərlər. Bunun üçün çox diqqətli düşünmək lazımdır: şagirdlər nə araşdırmalı olduğuna dair konkret bir təlimat almalıdırlar. Əgər şagirdlər müəllimindən lazımi qədər dəstək almazlarsa, onların araşdırmaları məqsədsiz və yöndəmsiz olar.

- Tarixi mövzuda tədqiqatların aparılmasının, tezislərin, proyektlərin və təqdimatların hazırlanmasının və s. yollarını öyrətməyə, bu sahədə şagirdlərə lazımi dəstək verməyə hazır olmalı;
- Birgə öyrənmə üçün münasib şərait yaratmağa kömək etməlidir. Əgər müəllim şagirdlərin yaradıcı yanaşmada və fikir mübadiləsində özlərini inamlı və rahat hiss etməsini istəyirsə, onda dinləmənin və bölüşmələrin qarantı kimi sinifdə dəstəkləyici davranış qaydaları qurmalıdır. Fəal öyrənmə mühiti şagirdləri risk etməyə və mülahizələrini sürməyə sövq edir. Bu zaman onların özlərini rahat hiss etmələrinə əmin olmaq lazımdır. Əgər şagirdlər nədənsə çəkinsələr və ya özlərini təzyiq altında hiss etsələr, effektiv öyrənmə alınmayacaq.
- Şagirdlərin marağını stimullaşdıran cəlbedici öyrənmə mühiti yaratmalıdır. Öyrənənlər onu yeni bir formaya salmaq imkanı olan materialla fəal çalışırlar. Bunun üçün çox diqqətli bir planlaşdırma lazımdır.
- Sinfin bütün üzvlərinin öyrənmə ehtiyaclarını diqqətdə saxlamaq lazımdır. Fərqləndirilmiş ehtiyaclara cavab verən aktiv öyrənmə strategiyaları hazırlanmalıdır.
- Dərsdə yanlış təsəvvürləri və ya faktiki səhvləri düzəldə bilmək üçün lazımi məlumatlara malik olmalıdır.
- Sinfin bütün üzvlərinin uğurlu nəticələr göstərməsinə yardımçı olmaq üçün şagirdlərin işləri yoxlanmalıdır. Dərsdə şagirdlərin bilməsini və anlamasını qiymətləndirmək üçün imkan tapmaq lazımdır.
- Şagirdləri müzakirəyə, təhlil etməyə, səbəb və nəticə əlaqələrini müəyyənləşdirməyə, müqayisələr aparmağa, tarixi şəxsiyyətlərin fəaliyyətini qiymətləndirməyə, sual verməyə sövq etməlidir.
- Əməkdaşlıq fəal öyrənmənin vacib bir tərəfidir. Sadəcə, müəllimi dinləmənin əvəzinə, şagirdlər fikirlərini bir-biri ilə bölüşəcəklər. Buna kömək etmək üçün müəllim sinfin quruluşu barədə düşünməlidir. Şagirdlərin həmyaşıdları ilə fikirlərini bölüşmək, həm də müəllimin göstərişlərini dinləmək imkanları olmalıdır. Bəzi şagirdlər fikirlərini bölüşməkdə çətinlik çəkirlər. Hansı şagirdin necə işlədiyini, onların birlikdə çalışıb çalışmadığını onlara aydın şəkildə necə çatdıracağınızı anlamaq üçün diqqətlə düşünmək lazım gələcəkdir.
- Qruplaşdırma çox vacibdir. Bu zaman müəllim daha az idarəedici kimi çıxış etməli, şagirdlər həmyaşıdları tərəfindən dəstəkləndiklərini hiss etməlidirlər.

Qrup işi zamanı diqqətdə saxlanılmalıdır:

– Hansı şagirdlər daha fəaldır?

– Kim yaxşı dinləyir və daha sakit, yaxud özünə daha az güvənən şagirdlərin öyrənməsini dəstəkləyir?

– Hansı şagird öz biliklərinə arxayın olaraq daha az qabiliyyətli şagirdlərə yaxından yardım edə bilir?

## Müəllim məsləhəti

Davamlı peşə inkişafı, müəllimlər üçün olduğu kimi, şagirdlərimiz üçün də təlimin və tədrisin keyfiyyətinin artırılmasına yönəlmiş uzunmüddətli bir prosesdir. Bu, tez-tez yeni-

liyi və əməkdaşlığı inkişaf etdirməklə həyata keçirilir. Müxtəlif tipli məlumatların əldə edilməsi məktəbinizdə və ya daha geniş yerli və ya milli səviyyədə öyrənməyinizə fayda gətirəcəkdir. Məktəbinizdə peşəkar şagird birliyinin inkişaf etdirilməsi sizə uğurlu təcrübələri bölüşmək və öyrənmə yanaşmalarını, müxtəlif mövzularda araşdırmalar aparmağa imkan verə bilər.

Tarixin səmərəli tədrisi üçün fəal-interaktiv metodların tətbiqi şəxsiyyətin formalaşmasına və inkişafına kömək edir. Hazırda tarixin tədrisində əsas məqsəd ondan ibarətdir ki, dərs şagirdyönümlü, standartlara və məqsədə uyğun olsun. İnteraktiv təlim metodları ilə işləmək üçün aşağıdakı prinsipləri gözləmək yaxşı olardı:

1. Fəal təlim üçün iş formalarının müəyyənləşdirilməsi.
2. Fəal dərsin mərhələləri.
3. Fəal dərsin strukturu.

İnteraktiv metoda müxtəlif növ üsullar, iş formaları daxildir. Fəal-interaktiv üsullara rollu oyunlar, modelləşdirmə, diskussiyalar, debat, akvarium, xəritə üzərində iş və s. daxildir. Üsullarla yanaşı, fərdi, cüt, qrup və kollektiv iş formalarının da müasir təlimdə tətbiq olunması zəruri hesab olunur. Bu cür metodlar şagirdlərdə nəinki dərsə marağı artırır, həm də daha dərindən mənimsəməni, vətəndaşlıq vərdişlərinin tərbiyələndirilməsini və demokratik dəyərlərə bağlılığı təmin edir. İnteraktiv metodikanın tətbiqi nəticəsində müasir dərs şagirdlərdə araşdırma və nəticə çıxarma bacarığını formalaşdırır.

## MÜƏLLİMİN TƏLİM FƏALİYYƏTİNİN PLANLAŞDIRILMASINA DAİR TÖVSİYƏLƏR

Dərslikdə müəllimin həm gündəlik, həm də illik planlaşdırmasını aparması üçün kifayət qədər material və resurs verilmişdir. Planlaşdırma müəllimlərin qarşısında duran ən mühüm vəzifədir. Planlaşdırma əsas məqsədləri müəyyənləşdirmək və onlara nail olmaq üçün müəllimlərin fəaliyyət istiqamətidir. İllik planlaşdırmada tədris vahidinin nə zaman və hansı ardıcıllıqla tədris ediləcəyi, eyni zamanda hər fəslə ayrılacaq vaxt göstərilir. Vəsaitdə müəllimlər üçün perspektiv plan nümunəsi verilsə də, onun müstəqil şəkildə hazırlanma qaydası ilə tanış olmaq üçün fənnin planlaşdırılması ardıcıllığı daxil edilmişdir. Bu ardıcıllıq aşağıdakı kimidir:

**1. Tədris vahidlərini dəqiqləşdirmək, ardıcıllıq prinsiplərini müəyyənləşdirmək.** Məzmunun ardıcıllığı *(asandan çətinə doğru)*, xronoloji ardıcıllıq *(zaman ardıcıllığı)*, məntiqi ardıcıllıq *(Əvvəlcə növbəti anlayışların açılmasında mühüm əhəmiyyət daşıyan anlayışlar öyrədilir.)* nəzərdə tutulur.

**2. Hər tədris vahidi üçün tədris planına əsasən vaxt bölgüsü aparmaq.** Tədris vahidləri üçün vaxt bölgüsünü müəyyənləşdirərkən fənn üzrə illik dərs saatlarının ümumi sayı nəzərə alınır. Hər tədris vahidinə onun əhəmiyyətliliyi və mürəkkəbliyi baxımından vaxt ayrılır.

**3. Dərsliklə əlaqəli şəkildə işləmək.** İllik planlaşdırma apararkən müəllim mütləq məzmun standartları, qiymətləndirmə standartları, tədris planı, dərslik *(istifadə olunacaq mətnlər və digər materiallar)*, müəllim üçün vəsaitə istinad etməlidir. Dərs ilinin həftələri, tədris ilində baş verəcək mühüm hadisələr *(tarixi günlər)*, tədris vahidlərinin və onlara daxil olan mövzuların adı müəyyən edilməlidir.

## Fəal dərsin quruluşu. Planlaşdırma

Planlaşdırmanın iki növü vardır: gündəlik və perspektiv. Müasir təhsil islahatının tələblərinə uyğun olaraq gündəlik və perspektiv planlaşdırma mahiyyətini əvvəlki ilə müqayisədə dəyişmiş interaktivliyə və nəticəyönümlülüyə şərait yaradan formaya üstünlük verilmişdir.

Fəal-interaktiv təlimdə gündəlik dərsin mərhələləri aşağıdakı kimidir:

**Dərsin birinci mərhələsi: motivasiya, problemin qoyulması**

Motivasiya hər hansı fəaliyyətin mexanizmini işə salan sövqedici qüvvədir. Fəal dərsdə təfəkkür prosesini hərəkətə gətirən və şagirdlərin idrak fəallığını artıran motivasiya qismində ortaya qoyulmuş problem və onun həlli tələbatı ilə çıxış edir.

**Dərsin ikinci mərhələsi: tədqiqatın aparılması**

Bu mərhələdə problemin həlli üçün irəli sürülən fərziyyələri təsdiq və ya təkzib edən, habelə qoyulan tədqiqat sualına cavab verməyə kömək edə biləcək faktları tapmaq zərurəti ortaya çıxır. Bunun üçün də tədqiqat müxtəlif iş formalarında aparıla bilər.

**Dərsin üçüncü mərhələsi: məlumatın mübadiləsi**

Bu mərhələdə iştirakçılar tədqiqatın gedişində əldə etdikləri tapıntıların, yeni informasiyanın mübadiləsini aparırlar. Qoyulmuş suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir-birinin təqdimatını fəal dinləməyə sövq edir. Təqdimat bir növ yeni biliklərin dairəsini cızır və hələlik bu biliklər natamam və xaotik xarakter daşıyır. Məhz bu mərhələdə yeni bir tələbat – həmin bilikləri qaydaya salmaq, sistemləşdirmək, müəyyən nəticəyə gəlmək üçün tədqiqat sualına cavab tapmaq zərurəti yaranır.

**Dərsin dördüncü mərhələsi: məlumatın müzakirəsi və təşkili**

Bu mürəkkəb mərhələdir və bütün zehni vərdişlərin, təfəkkürün müxtəlif növlərinin *(məntiqi, tənqidi, yaradıcı)* səfərbərliyini tələb edir. Müəllim yönəldici, köməkçi suallardan istifadə etməklə əldə edilmiş faktların məqsədyönlü müzakirəsini və təşkilini təmin edir. İnformasiyanın təşkili bütün faktlar arasında əlaqələrin aşkara çıxarılmasına və onların sistemləşdirilməsinə yönəldilir.

**Dərsin beşinci mərhələsi: ümumiləşdirmə və nəticə**

Şagird nəinki əldə olunan bilikləri ümumiləşdirməli, həm də gəldiyi nəticəni tədqiqat sualı və irəli sürülmüş fərziyyələrlə (onların arasında düzgün olanı varmı?) tutuşdurmalıdır. Bu, çox mühüm məqamdır. Dərsin kulminasiyasını isə bilikləri özləri kəşf etdikləri üçün şagirdlərin duyduqları bənzərsiz sevinc və məmnuniyyət hissi təşkil edir.

**Dərsin altıncı mərhələsi: yaradıcı tətbiqetmə**

Məlum olduğu kimi, biliklərin mənimsənilməsinin başlıca meyarı onun yaradıcı surətdə tətbiqidir. Yaradıcı tətbiqetmə biliyi möhkəmləndirir, uşağa onun praktiki əhəmiyyətini açıb göstərir. Şagirdlərə müəyyən məsələlərin həlli üçün, yaxud hansısa yeni suallara cavab tapmaq üçün qazanılmış bilikləri tətbiq etməyə çalışmaq təklif edilir. Əgər yaradıcı

tətbiqetməni dərhal həyata keçirmək mümkün deyilsə və əvvəlcə biliklərin mənimsənilməsi yolunu sona qədər keçmək tələb olunursa, buna əməl etmək lazımdır. Lakin son nəticədə yaxşı olar ki, şagirdlərə əldə etdikləri biliklərin yaradıcı surətdə tətbiqinə dair çalışma verilməsi məqsədə müvafiqdir. Bu halda həmin bilik həmişəlik onların şüurunda həkk olunur. Bu mərhələ vaxt etibarilə yalnız bir akademik dərs saatı ilə məhdudlaşdırılmaya da bilər, yəni onun realizəsi sonrakı dərslərdə də mümkündür.

**Dərsin yeddinci mərhələsi: qiymətləndirmə və ya refleksiya**

Yuxarıda göstərildiyi kimi, fəal təlimin mühüm xüsusiyyətlərindən biri müstəqil təhsil *(öyrətməyi öyrənmək)*, müstəqil inkişaf vərdişlərinə yiyələnmək imkanıdır. Qiymətləndirmə istənilən prosesin təkmilləşdirilməsini təmin edən bir mexanizmdir. Təkmilləşmək üçün vaxtında öz qüsurlarını və öz məziyyətlərini aşkar etmək, uğur qazanılmasına nələrin mane olduğunu və nələrin kömək etdiyini müəyyənləşdirmək vacibdir. Şagirdlərin təlim fəaliyyətinin qiymətləndirmə və refleksiya prosesləri məhz bu məqsədə xidmət etməlidir.

Buna görə dərs başa çatdıqdan sonra göstərilmiş prosedurlardan birini qiymətləndirmə və refleksiyanı həyata keçirmək məqsədəuyğun olardı. Bəzən qiymətləndirmə və refleksiyanı dərsin müxtəlif mərhələlərinə daxil etmək olar. Bu, təlim prosesinin daha uğurla həyata keçməsinə kömək edər.

Şagirdlərin işinin səmərəlilik dərəcəsi həm kəmiyyət, həm də keyfiyyətcə qiymətləndirilə bilər. Bu, müxtəlif üsullarla və müxtəlif formalarda həyata keçirilə bilər. Lakin müəllim yadda saxlamalıdır ki, qiymətləndirmə, ilk növbədə, şagird üçün özünüqiymətləndirmə və özünənəzarət vasitəsi rolunu oynamalıdır. Özünüqiymətləndirmə vərdişlərini formalaşdırmaq məqsədilə bütün sinfin və müəllimin şagirdlərə, onları yeni biliklərin kəşfinə gətirib çıxarmış təlim hərəkətlərinin alqoritmini izləməyə kömək edə biləcək bir neçə sual verməsi kifayətdir. Nəticədə şagird öz tədqiqat fəaliyyətinin əsas mərhələlərini və ünsürlərini dərk etmiş olur.

**Refleksiya üçün verilə biləcək suallar**

Adətən, dərsin sonunda refleksiya üçün aşağıdakı formada suallardan istifadə etmək olar:

- Dərsdə hansı yeniliyi öyrəndiniz?
- Sizin üçün dərsin ən önəmli nəticəsi nə oldu?
- Sizə nə aydın olmadı?
- Hansı suallarınız var?
- Yeni materialın öyrənilməsi sizə hansı təsiri bağışladı?
- Dərsdə qarşıya qoyulan hədəfə çatdınızmı?
- Yeni mövzu üzərində necə işlədiniz?
- Hansı mənbələrdən istifadə etdiniz?
- Sizcə, hansı mənbələr daha inandırıcı və ya hansı mənbələr daha maraqlı idi?
- Dərsdə informasiya əldə etmənin hansı yeni üsullarını öyrəndiniz? və s.

## Motivasiya qurmaq üçün müəllimə məsləhət

Hörmətli müəllimlər! Sizə təqdim olunan dərslikdə paraqrafların sayı az (12 paraqraf) olsa da, dərs saatlarının miqdarı (27 saat) çoxdur. Paraqrafların sayının az olması ya söhbətin bir dövlətdən getdiyi səbəbindən, ya hadisənin eyni məkanda baş verməsindən, ya da haqqında bəhs edilən dövlətlərin bir-biri ilə bağlılığı səbəbindəndir.

Paraqrafların az olması avtomatik olaraq bizdə belə bir sual ortaya çıxarır; Qızılbaş dövlətləri, Osmanlı imperiyası, İngiltərə, Şimali Amerika, Fransa, Mədəniyyət və s. başlıqlı mövzuların hər saatına (qeyd edək ki, bu mövzuların tədrisinə 2 və daha artıq saat vaxt ayrılıb) ayrıca motivasiya qurmaq lazımdırmı? Bu suala biz tərəfdən yekdil şəkildə – "xeyr, hər iki saata ayrı-ayrılıqda motivasiya qurmaq mütləq deyil!" cavabı veriləcək.

Bir paraqrafın ayrı-ayrı saatlarına motivasiyanın qurulması müəllimin mövzuya yanaşmasından, dərsini necə qurmasından da asılıdır. Yeni dərsə motivasiyanın qurulması təkcə eyni mövzuya verilən çoxsaylı saatlar zamanı deyil, səhnələşdirilmiş, ekskursiya, disput və s. tipli dərslərin keçirildiyi vaxt, "oyunlar" keçirilən zaman da ixtisar edilə bilər.

Bəzən müəllimlər motivasiyanı quran zaman müxtəlif çətinliklərlə üzləşirlər. Məs. texniki imkanların və ya lazımi vəsaitin olmaması və ya bunlardan istifadənin mümkünsüzlüyü zaman müəllim hekayə qurmaq yolu ilə dərsə giriş edə, şagirdləri hansısa formada dərsə maraqlandıra bilər.

Bu məqsədlə də, hörmətli müəllimlər, sizlərə hər bir dərsə motivasiya qurmaq üçün, 6-cı siniflər üçün 2021-ci ildə "Şərq-Qərb" nəşriyyatında nəşr olunmuş Ümumi tarix dərsliyinin Müəllim Vəsaitində yeni dərsə giriş kimi dialoq formasında "Motivasiya qurmaq üçün hekayə qurmaq modeli" təqdim etmişik. Siz müəllim olaraq dərsliyin ilk paraqraflarından etibarən müvafiq olaraq ən sonuncu mövzusuna qədər (hətta tədrisinə bir neçə saat ayrılan paraqrafın hər bir saatı üçün də) bu "Motivasiya qurmaq üçün hekayə qurmaq modeli"-ndən motivasiya kimi istifadə edə bilərsiniz. Təbii ki, müvafiq mövzulara suallar qoymaq yolu ilə.

## FƏAL DƏRSİN PLANLAŞDIRILMASINA DAİR TÖVSİYƏLƏR

Hər bir dərsin yeddi mərhələdən ibarət olması mütləq deyil. Dərsi, əsasən, üç əsas mərhələyə ayırmaq olar:

1. Şagirdi dərsə maraqlandırmaq;
2. Araşdırma;
3. Nəticəçıxartma.

Dərsin neçə mərhələdən ibarət olması bir neçə amildən asılıdır. Təkcə dərsin məqsəd və vəzifələri, eləcə də forma və üsulundan asılı olaraq dərsin mərhələlərini azaltmaq *(mərhələləri birləşdirmək və ya hər hansı bir mərhələyə müraciət etməməklə)* mümkündür. Məsələn, ümumiləşdirici dərsdə motivasiya, yaradıcı tətbiqetmə, refleksiya kimi dərs mərhələlərindən istifadə etməmək mümkündür.

Dərsin neçə mərhələdən ibarət olmasına öyrəniləcək materialın həcmi, şagirdlərin paraqrafdakı məlumatlarla tanışlıq səviyyəsi, mənbələrin sayı, inteqrasiya imkanları, xəritə və ya kontur xəritə ilə işləmək imkanı, standartı *(və ya standartları)* reallaşdırmaq imkanı, şagirdlərin fəallıq səviyyəsi, dərs əsnasında diaqnostik qiymətləndirmənin aparılıb-aparılmamasının nəzərə alınması və s. də təsir göstərə bilər.

**Perspektiv planlaşdırma**

Perspektiv planlaşdırma hazırlanarkən tədris vahidi və mövzular üzrə dəqiqləşmələr aparılmalı, standartların reallaşdırılması üçün lazımi imkanlar müəyyən edilməli, tədris vahidlərinin və mövzuların ardıcıllığı müəyyənləşdirilərkən sadədən mürəkkəbə, məntiqi və xronoloji ardıcıllıq nəzərə alınmalıdır. Ümumi tarix fənni üçün bu ardıcıllığı müəyyənləşdirərkən bir neçə prinsip nəzərə alınmalıdır. Ən əsası isə məzmun ardıcıllığı baxımından məntiqi və xronoloji ardıcıllıq prinsipidir.

İnteqrasiya imkanları müəyyən edilməli və planlaşdırılmada qeyd olunmalıdır. MV-də sizlərə təqdim olunmuş illik planlaşdırma cədvəlində məzmun standartlarının digər fənlərlə inteqrasiya imkanları göstərilmişdir.

Əlavə resursların seçilməsi mövzu və inteqrasiya müəyyənləşdirdikdən sonra aparılmalıdır. Mövzulara görə məqsədyönlü vaxt bölgüsünün aparılması mühüm bacarıqlardan biridir. Tədris planına əsasən 8-ci sinifdə Ümumi tarix fənninin tədrisinə ayrılan saatdan kənara çıxmamaq şərtilə daha vacib, həm də şagirdlərin çətin qavradıqları mövzulara çox, asan mövzulara isə az vaxt ayıra bilərsiniz.

## Dərslərin illik planlaşdırılması

| № | Standart | Mövzu | Qiymətləndirmə | Saat |
|---|---|---|---|---|
| **I bölmə: Avropa və Amerika XVII–XVIII əsrlərdə** | | | | |
| 1. | | Qızılbaş dövlətləri | diaqnostik, formativ | 3 |
| 2. | | Böyük Moğol dövləti | formativ | 1 |
| 3. | | Çin | formativ | 1 |
| **Kiçik summativ qiymətləndirmə** | | | | 1 |
| 4. | | Osmanlı imperiyası | formativ | 4 |
| **Kiçik summativ qiymətləndirmə** | | | | 1 |
| 5. | | Mərkəzi Asiya,Volqaboyu,Ural və Sibir türkləri | formativ | 2 |
| 6. | | Qafqaz | formativ | 2 |
| **Kiçik summativ qiymətləndirmə** | | | | 1 |
| 7. | | Mədəniyyət | formativ | 2 |
| **II bölmə: Avropa və Amerika XVII–XVIII əsrlərdə** | | | | 13 |
| 8. | | İngiltərə | formativ | 3 |
| **Kiçik summativ qiymətləndirmə** | | | | 1 |
| 9. | | Şimali Amerika | formativ | 2 |
| 10. | | Fransa | formativ | 4 |
| **Kiçik summativ qiymətləndirmə** | | | | 1 |
| 11. | | Rusiya | formativ | 2 |
| 12. | | **Mədəniyyət** | formativ | 2 |

| | | | | |
|---|---|---|---|---|
| | | **Kiçik summativ qiymətləndirmə** | | 1 |
| | | **CƏMİ** | | 34 |

## Dərslərin icmalı və tövsiyələr

Hörmətli müəllimlər! Sizə təqdim edilmiş mövzuların icmalı tövsiyə xarakterlidir. Siz 8-ci sinif Ümumi tarix fənn kurikulumunun standartlarına uyğun olaraq qarşıya qoyduğunuz məqsədlərinizi mövzular vasitəsilə reallaşdıra bilərsiniz. Bu zaman siz forma və üsulların seçilməsində, eləcə də inteqrasiya imkanlarının reallaşdırılmasında sərbəstsiniz. İnteqrasiya kimi hansı dərsə hansı fənn standartının (və ya standartları) seçilməsində sizə Metodik vəsaitin 11-ci səhifəsində verilmiş "VIII sinif Ümumi tarix fənni üzrə alt standartların inteqrasiya imkanları" cədvəli kömək edəcəkdir.

Dərslərə resursların seçilməsi birbaşa sizin dərsə yanaşmanızdan irəli gələ bilər. Hər hansı bir resursun Azərbaycanın müxtəlif guşələrində eyni formada əlçatan olmadığını nəzərə alaraq dərs icmalı zamanı hansı resusrslardan istifadə olunduğunu qeyd etməyi məqsədəmüvafiq saymadıq. Bununla da keçəcəyiniz dərsə uyğun olaraq resursların seçilməsini öhdənizə buraxdıq.

Bütün gündəlik dərslərin vaxt bölgüsü və planlaşdırılması da sizdən asılıdır. Tələblərə uyğun olaraq gündəlik planlaşmanın aparılması və qiymətləndirmənin həyata keçirilməsi sizin şagirdlərin xüsusiyyətinə və metodunuza uyğunlaşmış şəkildə reallaşdırılarsa, daha səmərəli nəticə əldə oluna bilər. Təqdim olunmuş icmalların sonunda qiymətləndirmə səviyyələrinin verilməsini məqsədəuyğun hesab etmədik. Çünki sizə hazır şəkildə təqdim edilmiş səviyyələr sizin sinfinizdə keyfiyyətin düşməsinə səbəb ola bilər.

Hörmətli müəllimlər, kitabın fəal dərsin quruluşu hissəsində biz fəal təlimdə gündəlik planlaşdırma zamanı dərsin yeddi mərhələsini ardıcıllıqla versək də, mövzuların icmalı zamanı biz bu ardıcıllığa, demək olar ki, riayət etməmiş və çox zaman dərsin üçüncü və dördüncü mərhələlərini birləşdirib məlumatın mubadiləsi ilə müzakirəsi mərhələsi kimi vermiş, bəzən motivasiyaya, bəzən isə yaradıcı tətbiqetməyə yer ayırmamış, dərsin yeni bir mərhələsi kimi ev tapşırığını qeyd etmişik. Yuxarıda qeyd etdiyimiz kimi, dərs, ümumilikdə, üç əsas mərhələdən – şagirdi dərsə maraqlandırma, araşdırma və nəticəçıxartma mərhələsindən ibarət olduğundan hər bir müəllim şəraitinə, sinfinin səviyyəsinə, əldə etdiyi materiala, ən əsası, seçdiyi standarta və qarşısına qoyduğu məqsədə uyğun olaraq dərsini planlaşdıra və keçə bilər.

Əsas odur ki, müəllim bir 45 dəqiqə ərzində seçdiyi standartı və qarşısına qoyduğu məqsədi reallaşdırsın.

Hörmətli müəllimlər, inanırıq ki, sizə təqdim etdiyimiz tövsiyələr köməyinizə çatacaq və dərslikdən istifadənizi rahatlaşdıracaqdır.


1

QIZILBAŞ DÖVLƏTLƏRİ

Şah I Abbas, Xosrov xan, Əfşar dövləti,

*Qızılbaşlar Səfəvilər dövlətində hakim mövqe tuturdular. Səfəvilər dövlətinin həm də "Qızılbaşlar dövləti" adlandırılması bununla əlaqədar idi. Qızılbaşlar əvvəlcə Şamlı, Rumlu, Ustaclı, Təkəli, Əfşar, Qacar, Zülqədər, Varsaq, Qaradağlı (Qaradağ sufiləri), sonralar isə Bayat, Qaramanlı, Baharlı, Alpaut, Ərəşli, Qazaxlı, Borçalı və başqa türk tayfalarını birləşdirirdi.*

**Səfəvi dövləti.** Qızılbaşlığı dövlət ideologiyası səviyyəsinə yüksəltmiş Səfəvilər dövləti, Şah I Abbasın (1587–1629) keçirtdiyi islahatlar nəticəsində XVII yüzilliyin əvvəllərində yenidən gücləndi.

Şah I Abbas

Səfəvilərin şərq torpaqlarını işğaldan azad edən Şah I Abbas Osmanlı ilə bağlanmış müqaviləyə sadiq qalaraq qərb qonşusu ilə xoş münasibətlər saxlamağa çalışırdı.

M Şah Abbasın Osmanlı sultanı III Murada yazdığı məktubda deyilirdi: "İslam qoşunu (Osmanlı ordusu nəzərdə tutulur) kafirlərlə döyüşə getdiyi üçün bizim aramızda olan məhəbbət və birlik elə möhkəmlənmişdir ki, heç bir ixtilafımız yoxdur... Əgər siz əmr etsəniz, ölkələrimiz arasındakı sərhədlərdə dayanan qızılbaş əmirlərini və qoşunlarını dinsiz kafirləri dəf etmək üçün göndərə bilərəm ki, biz də kafirlərlə döyüşmək savabından bəhrəmənd (bəhrələnmiş) olaq və düşmənlər bizim ittifaqımızı eşidib ... məhv olsunlar".

T Verilənlər əsasında Şah I Abbasın fəaliyyətini qiymətləndirin.

Osmanlıda hakimiyyət dəyişikliyindən sonra taxta çıxan yeni sultan Şah I Abbasa yazdığı məktubla səfəviləri müharibəyə təhrik etdi.

8

Bu müharibə zamanı Səfəvi qoşunları Osmanlı tərəfindən işğal olunmuş ərazilərini azad etdi.

M III Muraddan sonra Osmanlı taxtına çıxan III Mehmet özünün baş çavuşunu Səfəvi sarayına göndərmiş və Səfəvi vəliəhdinin İstanbula göndərilməsini tələb etmişdi. Şah I Abbas elçiyə "Səfəvi qaydalarına görə ölkənin əsil sahibi vəliəhd sayılır və şah özü də onun təbəəsi hesab edilir" – deyə cavab vermiş və "sultana hörmət əlaməti olaraq özüm onun sarayına gedərəm", – demişdi. Elçinin bu münasibətinə dözməyən şah onun saqqalını qırxdıraraq İstanbula göndərmişdi.

T Səfəvi dövlətinin diplomatik münasibətlərini təhlil edin.

Şah I Abbas ingilis donanmasının köməyi ilə portuqaliyalıları səfəvilərin Hind okeanına mühüm çıxışı olan Hörmüzdən qovdu. Şah I Abbas Moskva çarlığı və Böyük Moğol dövlətləri ilə də dostluq əlaqələri saxlayırdı.

Şah I Abbasdan sonra hakimiyyətə gəlmiş nəvəsi I Səfinin hakimiyyəti illərində (1629–1642) osmanlılarla sülh müqaviləsinin imzalanması nəticəsində əmin-amanlığın yaranması və hərbi xərclərin azlığı Səfəvi dövlətinin iqtisadi gücünü artırdı.

Ənənəvi sənətkarlıq sahələri daha da inkişaf etdi. İstər qonşu, istərsə də Qərbi Avropa dövlətləri ilə geniş ticarət əlaqələri yaradıldı. Avropa ölkələrinə ixrac olunan mallar arasında Azərbaycan ustalarının toxuduqları xalçalar xüsusi yer tuturdu.

S Səfəvilərin Avropa dövlətləri ilə ticarət əlaqələri ölkənin iqtisadi inkişafına necə təsir göstərirdi?

Səfəvi hökmdarı II Abbasın dövründə (1642–1666) Moskva çarlığının təbəələri olan kazakların səfəvilərin ticarət karvanlarına hücumları iki dövlət arasındakı münasibətləri gərginləşdirdi.

1653-cü ildə Şirvan bəylərbəyi Xosrov xanın başçılıq etdiyi Səfəvi ordusu sayca bir neçə dəfə çox olan rus-kazak dəstələrini darmadağın edərək Moskva çarlarının Şimali Qafqazda inşa etdirdiyi qalaları dağıtdı.

Şah I Səfi

Şah II Abbas

9

# 1

*I saat*

# QIZILBAŞ DÖVLƏTLƏRİ

Şah I Abbas, Xosrov xan, Əfşar dövləti

***Qeyd:*** Mövcud dərsin tədrisinə üç saat ayrılmışdır. Bu paraqraf dərsliyin 8–19-cu səhifələrini əhatə edir. Dərslik müəllifi olaraq biz bu paraqrafı tədris saatına uyğun olaraq aşağıdakı qaydada bölmüşük:

– Birinci dərsdə diaqnostik qiymətləndirmə və 1.1.3. standartını reallaşırmaq üçün xronoloji cədvəllərin tərtib edilməsi nəzərdə tutulmuşdur.
– İkinci dərs saatı 8–12-ci səhifələrdəki məlumatları əhatə edir *(Bura istər şəkil, istər cədvəllər, istərsə də mənbə tipli əlavə, maraqlı məlumatlar daxildir).*
– Üçüncü saat 13-cü səhifədəki "Əfşar dövləti" yarımbaşlığından paraqrafın sonunadək olan məlumatları əhatə edir.

Onu da bildirək ki, bu bölgü mütləq deyil. Bu bölgünü siz dərs deyən müəllim kimi təlim strategiyasına, sinifdəki şagirdlərin bacarığına uyğun olaraq dəyişə və yeni bölgü forması yarada bilər.

**Standart:**

1.1.3. Hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir.

**Təlim məqsədi:**

Qızılbaşlar dövlətindəki hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir.

**Təlim formaları:** kollektiv, fərdi

**Təlim üsulları:** beyin həmləsi, zaman oxu ilə iş

**Dərsin mərhələləri**

**Motivasiya.** Şagirdləri dərsə maraqlandırmaqdan ötrü onların diqqətini keçən ilin sonlarına yaxın Azərbaycan tarixindən keçdikləri Səfəvilər dövlətinin yaradılması hadisəsinə yönəldə bilərsiniz. Bunun üçün beyin həmləsi üsulundan istifadə etməklə aşağıdakı sualları ünvanlaya bilərsiniz:

– İsmayılın hansı dövləti yaratdığını xatırlayırsınızmı?

– Səfəvilər dövlətinin yaradılmasında hansı türk tayfaları iştirak edirdi?

Cavablar alınandan sonra şagirdlərə növbəti sual verilə bilər:

– Səfəvilər dövlətinin yaradılmasında iştirak edən Şamlu, Rumlu, Ustaclı, Qacar, Əfşar və s. türk tayfaları hansı ümumi ad altında adlandırılırdılar?

Alınan cavabları ümumiləşdirib yeni dərsə keçid edə bilərsiniz.

***Qeyd:*** Birinci paraqrafın birinci saatı üçün nəzərdə tutulan bu dərsdə diaqnostik qiymətləndirmənin keçirilməsi və 1.1.3. standartının reallaşırılması nəzərdə tutulduğundan mövcud dərsə tədqiqat sualının qoyulmasını məqbul saymadıq.

**Tədqiqatın aparılması.** Diaqnostik qiymətləndirməni keçirmək üçün ayırdığınız vaxt bitdikdən sonra dərsin tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün şagirdləri aşağıdakı faktlarla tanış etmək yaxşı olardı. Çünki Qızılbaşlar dövlətindəki hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib etmək üçün şagirdlərə bütün paraqrafın oxunmasını tapşırmaqla qarşıya qoyduğunuz məqsədi reallaşdıra bilməzsiniz.

Şagirdləri tanış edə biləcəyiniz faktılar:

– 1785 – Ağa Məhəmməd xan Qacarın  Zəndlər üzərində qələbəsi, Azərbaycanın cənub hissəsini özünə tabe etməsi;
– XVII yüzilliyin əvvəlləri –Səfəvilər dövlətinin Şah I Abbasın keçirtdiyi islahatlar nəticəsində yenidən güclənməsi;
– 1736 – Suqovuşanda Nadirin şah seçilməsi, Səfəvilər dövlətinin sonu;
– 1722– Əfqan üsyançılarının Səfəvilərin paytaxtı İsfahanı ələ keçirməsi;
– 1797 – Ağa Məhəmməd xan Qacarın sui-qəsd nəticəsində öldürülməsi; Fətəli şah Qaçarın taxta çıxması;
– 1747 – Sui-qəsd nəticəsində Nadir şahın öldürülməsi; dövlətin xırda hakimliklərə parçalanması;
– 1724 – İstanbul müqaviləsinə əsasən Səfəvi torpaqlarının Rusiya ilə Osmanlı arasında bölüşdürülməsi;
– 1796 – Muğanda Ağa Məhəmməd xan Qacarın tacqoyma mərasimi – şah seçilməsi;
– 1729 – Damğan döyüşündə Nadir xanın (Səfəvilər) əfqanları məğlub etməsi, İsfahanın əfqanlardan geri alınması.

***Qeyd:*** Hörmətli müəllimlər, yuxarıda verilmiş faktlar az olarsa, siz özünüz dərslik əsasında əlavə faktlar hazırlayıb şagirdlərə təqdim edə bilərsiniz.

Əvvəlki illərdə şagirdlər xronoloji cədvəllər qurmaqla tanış olsalar da, hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib etmək onlar üçün yenilikdir. Buna görə də yaxşı olardı ki, cədvəlləri tərtib etməkdə şagirdlərə kömək edəsiniz.

Şagirdlərə verilə biləcək tapşırıqlar (Bütün tapşırıqların icrası zamanı xronoloji ardıcıllıq nəzərə alınmalıdır.):

1. Hadisələri xronoloji ardıcıllıqla düzün.
2. Hadisələri dövlətlərin yaranması və süqutuna görə düzün.

3. Hadisələri *(Qızılbaş dövlətlərinə nəzərən)* torpaqların itirilməsi və ələ keçrilməsinə uyğun düzün.

Dərsin tədqiqatın aparılması mərhələsi bitdikdən sonra dərs məlumat mübadiləsi və müzakirəsini, eləcə də ümumiləşdirməsini həyata keçirə bilərsiniz. Şagirdlərə;

– *Nəyə görə siz bu hadisələri dövlətlərin yaranması və süqutuna görə düzməyi məsləhət bildiniz?*
– *Nəyə görə siz bu hadisələri torpaqların itirilməsi və ələ keçirilməsinə uyğun düzməyi məsləhət bildiniz?* sualları ilə müraciət edilir.

Şagirdlərin verdikləri cavablar, əsaslandırılmış fikirlər dinlənilir və ümumi nəticə çıxarılır.

**Qiymətləndirmə meyarı:** xronoloji cədvəllər tərtibetmə

Dərs izlənməsi nəticəsində qiymətləndirmə meyarlar üzrə aparılır. Bununla belə şagirdləri fərdi şəkildə qiymətləndirimək üçün təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə yardımçı sual – məsələn, "Biz bu nəticəyə necə gəlib çıxdıq?" "Bütün bu hadisələrin baş verməsinə səbəb nə idi" və s. – verməklə qiymətləndirməni yekunlaşdırmaq mümkündür.

Şagirdlərə aşağıdakı özünüqiymətləndirmə vərəqinin doldurulması təklif edilə bilər.

Sadalananlar barədə öz şəxsi keyfiyyətlərinizi necə qiymətləndirirsiniz?

| Meyar | Qeyri-kafi | Kafi | Yaxşı | Əla |
|---|---|---|---|---|
| Əməkdaşlıq | | | | |
| Səmimiyyət | | | | |
| Başqalarına kömək | | | | |
| Başqalarına maraq | | | | |
| Başqalarına hörmət | | | | |
| Dinləmək bacarığı | | | | |
| Səhvin etirafı | | | | |
| Düzlük | | | | |
| Fikir söyləməzdən qabaq düşünmə | | | | |
| Başqaları haqqında ədalətlə fikir yürütmə | | | | |


Səfəvilərin Şimali Qafqazdakı rus qalalarını dağıtmalarının səbəbini izah edin.

Səfəvi şahları II Abbas və Süleymanı müqayisə edin.

Şah II Abbas Həştərxan üzərinə yürüşə hazırlığa başladı. Böyük Moğol dövlətinin səfəvilərin şərq sərhədlərini pozaraq Qəndəhar şəhərini mühasirəyə alması xəbərini eşidən şah Moskva çarının sülh xahişini qəbul etdi. Tezliklə Böyük Moğol dövləti ilə münasibətlər də qaydaya salındı.

Səfəvilərin qonşularla dinc münasibətlər saxlaması Süleyman şahın hakimiyyəti illərində də (1666–1694) davam etmişdi.

Süleyman şah

"Şah Süleyman ədalətli və qətiyyətli hökmdar idi. O, dövlət işlərini məharətlə idarə edir, elm və şəriətə hamilik edirdi. Hər bir zümrənin hüquqlarını ciddi şəkildə qoruyan Süleyman şah qonşu hökmdarlarla da dostluq münasibətlərini saxlayırdı.
Ömrünün axırlarında şiddətli ayaq ağrısından yeddi il yataqda yatmış, hicri 1105-ci (1694) ildə vəfat etmişdir".

10

XVII yüzilliyin sonlarında Səfəvi dövləti keçmiş qüdrətini itirməyə başladı. İqtisadi vəziyyətin get-gedə pisləşməsi ictimai həyata da təsirini göstərdi. Nəticədə ölkə əhalisi içərisində narazılıq artdı.

AVROPA ÖLKƏLƏRİNİN İQTİSADİ YÜKSƏLİŞİNİN SƏBƏBLƏRİ
- Böyük Coğrafi kəşflər nəticəsində dünya ticarətinin okeanlara keçməsi
- müstəmləkələrdən qiymətli metallar, ucuz xammal və işçi qüvvəsinin gətirilməsi
- əhalinin gəlirlərinin çoxalması
- əmək bölgüsünün olduğu və yeni texniki üsulların tətbiq edildiyi manufakturaların artması

Cədvələ əsaslanaraq Səfəvi dövlətinin iqtisadi vəziyyətini təhlil edin.

ASİYA ÖLKƏLƏRİNİN İQTİSADİ TƏNƏZZÜLÜNÜN SƏBƏBLƏRİ
- Böyük Coğrafi kəşflər nəticəsində İpək yolunun əhəmiyyətini itirməsi
- ərazilərinin işğallara məruz qalması
- pul kəsilməsi üçün qiymətli metalların azalması
- xammal ehtiyatlarının və işçi qüvvəsinin azalması
- vergilərin artırılması
- ucuz başa gələn istehsal məhsullarının idxalı nəticəsində sənətkarlıq məhsullarına olan tələbatın azalması

İqtisadi və siyasi gücünü itirmiş Səfəvi sarayı yerli hakimlərə və mərkəzi hakimiyyətə qarşı eyni vaxtda başlamış üsyanları yatıra bilmədi.

Şamaxıdakı rus tacirlərinin qarət olunması və kömək üçün Osmanlıya müraciət etməsi hər iki dövlətin zəifləmiş səfəvilərin ərazilərinə müdaxiləsinə şərait yaratdı. 1722-ci ildə əfqanların dövlətin paytaxtı İsfahanı ələ keçirməsi vəziyyəti daha da pisləşdirdi. Səfəvi şahı Sultan Hüseyn (1694–1722) taxtdan salındı. Onun əfqan işğalçılarının əlindən qurtulan oğlu Təhmasib (1722-1732) özünü şah elan etdi. 1724-cü ildə Rusiya ilə Osmanlı arasında imzalanan İstanbul müqaviləsinə əsasən Səfəvilər dövlətinin özəyi olan Azərbaycan bölüşdürüldü. Bakının işğal edilməsi şərəfinə Peterburqda, Ərdəbilin ələ keçirilməsi münasibətilə İstanbulda atəşfəşanlıq təşkil edildi.

Şah Sultan Hüseyn

XVII yüzilliyin əvvəllərində Səfəvi dövlətinin siyasi tarixinə dair cədvəl tərtib edin.

11

# 1

II saat

# QIZILBAŞ DÖVLƏTLƏRİ

Şah I Abbas, Xosrov xan, Əfşar dövləti

**Standartlar:**

3.1.1. Dövlətlərin *(İngiltərə, Fransa, Rusiya, ABŞ, Osmanlı, İran, Çin, Hindistan, Mərkəzi Asiyanın türk dövlətləri, Qazaxıstan, Krım, Sibir, Volqaboyu, Qafqaz xalqları)* yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil edir.

4.1.2. Tarixi şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır.

**Təlim məqsədləri:**

1. Səfəvilər dövlətinin siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir.
2. Səfəvi şahları II Abbas ilə Süleymanın oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır.

**Təlim formaları:** böyük və kiçik qruplarla iş

**Təlim üsulları:** beyin həmləsi, mətn üzərində iş

**Dərsin mərhələləri**

**Motivasiya.** Dərs dördüncü paraqrafın ikinci saatını əhatə etdiyindən motivasiya qurmağı lazım bilmədik. Bununla belə müəllim dərslər arasında rabitənin qurulması məqsədilə bir neçə cümlə ilə dərsə giriş etməli və tədqiqat sualını elan etməlidir.

**Tədqiqat sualı:** Səfəvilər dövlətinin siyasi, sosial-iqtisadi münasibətlərinin inkişafı necə baş verdi?

**Tədqiqatın aparılması.** Tədqiqat sualı elan olunandan sonra kiçik qruplarla iş formasından istifadə etməklə mətn üzərində iş üsulu ilə dərsi qurmaq məqsədəmüvafiq olardı. Adından göründüyü kimi, şagirdlər onlara verilmiş mətn üzərində işləməlidirlər.

Qruplara tədqiqat üçün aşağıdakı tapşırıqları və ya müəllimin məsləhət bildiyi tapşırıqları vermək olar.

**I qrup**

1. Mətni oxuyun. Onu hissələrə elə bölün ki, hər birində fikir tamamlanmış olsun *(bölgünü rəngli qələmlərin köməyi ilə etmək tövsiyə edilir).*

2. Mətnin hər hissəsini adlandırın.
3. Boş buraxılmış yerləri doldurun.

Qızılbaşlığı dövlət ideologiyası səviyyəsinə yüksəltmiş Səfəvilər dövləti Şah I Abbasın (1587–1629) keçirtdiyi ___________ nəticəsində XVII yüzilliyin əvvəllərində yenidən gücləndi. Səfəvilərin ___________ işğaldan azad edən I Abbas Osmanlı ilə bağlanmış olan müqaviləyə sadiq qalaraq qərb qonşusu ilə xoş münasibətlər saxlamağa çalışırdı. Lakin Osmanlıda ______________________ sonra taxta çıxan yeni sultan Şah I Abbasa yazdığı məktubla Səfəviləri müharibəyə təhrik etdi. XVII yüzilliyin sonlarında Səfəvilər dövləti öz keçmiş qüdrətini itirməyə başladı. İqtisadi vəziyyətin get-gedə pisləşməsi ictimai həyata da öz təsirini göstərməyə başladı. Nəticədə ölkə əhalisi içərisində ___________ artmağa başladı. ___________ və ___________ gücünü itirmiş Səfəvi sarayı təyin etdiyi yerli hakimlərə və mərkəzi hakimiyyətə qarşı eyni vaxtda başlamış üsyanları yatırda bilmədi.

4. Cədvəli tamamlayın.

| Avropa ölkələrinin İqtisadi yüksəlişlərinin səbəbləri |
|---|
| |
| |
| |
| Əmək bölgüsünün mövcud olduğu və yeni texniki üsulların tətbiq edildiyi manufaktura istehsal üsulunun artması |

**II qrup**

1. Mətni oxuyun. Onu hissələrə elə bölün ki, hər birində fikir tamamlanmış olsun *(bölgünü rəngli qələmlərin köməyi ilə etmək tövsiyə edilir)*.
2. Mətnin hər hissəsini adlandırın.
3. Boş buraxılmış yerləri doldurun

XVII yüzilliyin əvvəllərində Səfəvi qoşunları dövlətin ___________ tərəfindən işğal olunmuş ərazilərini azad etdi. I Abbas ingilis donanmasının köməyilə ___________ Səfəvilərin Hind okeanına mühüm çıxışı olan Hörmüzdən qovdu. Şah I Abbas Moskva çarlığı və ___________ dövlətləri ilə də dostluq əlaqələri saxlayırdı. Şah I Abbasdan sonra hakimiyyətə gəlmiş nəvəsi I Səfinin hakimiyyəti illərində (1629–1642) osmanlılarla sülh müqaviləsinin imzalanması nəticəsində əmin-amanlığın və hərbi xərclərin azlığı Səfəvilər dövlətinin iqtisadi gücünü daha artırdı. Azərbaycanın şimalındakı iğtişaşçıların Şamaxıdakı ___________ qarət etməsi və kömək üçün Osmanlıya müraciət etməsi hər iki dövlətin zəifləmiş Səfəvilərin ərazilərinə soxulmalarına şərait yaratdı. Əfqan üsyançılarının 1722-ci ildə dövlətin paytaxtı ___________ ələ keçirməsi vəziyyəti daha da pisləşdirdi. Səfəvi şahı Sultan Hüseyn (1694–1722) taxtdan salındı. Şahın əfqan işğalçılarının əlindən qurtulan oğlu Təhmasib Xəzər dənizinin cənubuna gələrək Fətəli xan Qacarın köməyi ilə özünü şah elan etdi. 1724-cü ildə Rusiya ilə Osmanlı arasında imzalanan ____________________əsasən

Səfəvilər dövlətinin özəyi olan Azərbaycan bölüşdürüldü. Bakının işğal edilməsi şərəfinə Peterburqda, Ərdəbilin ələ keçirilməsi münasibətilə İstanbulda atəşfəşanlıq təşkil edildi.

4. Cədvəli tamamlayın:

| |
|---|
| Avropa ölkələrinin İqtisadi yüksəlişlərinin səbəbləri |
| Böyük Coğrafi kəşflər nəticəsində dünya ticarətinin okeanlara keçməsi |
| |
| |
| |

**III qrup**

1. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərin köməyi ilə etməniz məqsədəmüvafiq olardı).
2. Mətnin hər hissəsinə ad qoyun.
3. Boş buraxılmış yerləri doldurun.

Ənənəvi ___________ sahələri daha da inkişaf etdi. İstər qonşu, istərsə də Qərbi Avropa dövlətləri ilə geniş ticarət əlaqələri yaradıldı. Avropa ölkələrinə ixrac olunan mallar arasında Azərbaycan ustalarının toxuduqları xalçalar xüsusi yer tuturdu. Səfəvi hökmdarı ___________ hakimiyyəti illərində (1642–1666) _____________________təbəələri olan kazakların Səfəvilərin ticarət karvanlarına olan hücumları iki dövlət arasındakı münasibətləri gərginləşdirdi. ___________ildə Şirvan bəylərbəyi Xosrov xanın başçılıq etdiyi Səfəvi ordusu sayca özündən bir neçə dəfə çox olan rus-kazak dəstələrini darmadağın edərək Moskva çarlarının Şimali Qafqazdakı Qarasu çayı boyunca inşa etdirdiyi qalaları dağıtdı. Belə bir çətin dövrdə ayrı-ayrı qızılbaş tayfa əyanları və ___________ II Təhmasibin (1722–1733) ətrafında birləşməyə başladılar. Belə hərbi başçılardan biri Əfşar tayfasından olan Nadir xan idi. Qızılbaşların müqəddəs şəhəri sayılan Məşhədin, 1729-cu ildə **Damğan** döyüşündə qalib gəldikdən sonra isə ___________ əfqanlardan geri alınması Nadir xanın şöhrətinin artmasına səbəb oldu

4. Cədvəli tamamlayın:

| |
|---|
| Asiya ölkələrinin iqtisadi tənəzzüllərinin səbəbləri |
| |
| |
| |
| Ucuz başa gələn istehsal məhsullarının idxalı nəticəsində sənətkarlıq məhsullarına olan tələbatın azalması |

**IV qrup**

1. Mətni oxuyun. Onu hissələrə elə bölün ki, hər birində fikir tamamlanmış olsun *(bölgünü rəngli qələmlərin köməyi ilə etmək məqsədəmüvafiqdir)*.

2. Mətnin hər hissəsini adlandırın.

3. Boş buraxılmış yerləri doldurun.

Şah II Abbas ____________üzərinə yürüşə hazırlığa başladı. Lakin Böyük Moğolların Səfəvilərin ____________sərhədlərini pozaraq, Qəndəhar şəhərini mühasirəyə almaq xəbərini alan şah, ____________ çarının sülh xahişini qəbul etdi. Tezliklə Böyük Moğollarla münasibətlər də qaydaya salındı. Səfəvilərin qonşularla dinc münasibətlər saxlaması Süleyman şahın hakimiyyəti illərində (1666–1694) də davam etmişdi. Bundan narahat olan II Təhmasib Nadir xanla məsləhətləşmədən İrəvandakı ____________ qarşı hərbi əməliyyatlara başladı. Uğursuzluqla üzləşən şah II Təhmasib Nadir xan tərəfindən hakimiyyətdən uzaqlaşdırıldı. Taxta onun azyaşlı oğlu ____________ çıxarıldı. Lakin gerçək hakimiyyət Nadir xanın əlində idi. Qərbi Azərbaycandakı Murad Təpə və Azərbaycanın cənubundakı ____________ döyüşlərində Osmanlı ordularını məğlub edən Nadir xan onları Azərbaycan ərazilərindən çıxarılmasına nail oldu.

4. Cədvəli tamamlayın.

| |
|---|
| Asiya ölkələrinin iqtisadi tənəzzüllərinin səbəbləri |
| Böyük Coğrafi kəşflər nəticəsində İpək yolunun öz əhəmiyyətini itirməsi |
| |
| |
| |

Dərsin tədqiqatın aparılması mərhələsi üçün ayrılmış vaxt bitdikdən sonra dərsin yeni mərhələsinə – **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsinə keçid edilir.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qruplara tədqiqat aparmaq üçün ayrılmış vaxt bitdikdən sonra hər bir qrup təqdimat üçün nümayəndəsini seçir. Qruplar iş vərəqlərini lövhədən asır və təqdimatlarını həyata keçirirlər. Şagirdlər mətn üzərində işləyən zaman qrupların gəldiyi nəticələrlə, məlumatlarla, hissələrə bölünmüş mətnə verilən adlarla tanış olurlar. Suallar verilir. Fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə aşağıdakı suallarla müraciət edilə bilər:

– *Səfəvilərin Avropa dövlətləri ilə qurduğu ticarət əlaqələri ölkənin iqtisadi inkişafına necə təsir göstərirdi?*
– *Sizcə, Səfəvilərin Şimali Qafqazdakı rus qalalarını dağıtmalarının səbəbi nə ola bilərdi?*
– *Səfəvi dövlətinin iqtisadi vəziyyətini necə qiymətləndirirsiniz?*

– *Səfəvi dövlətinin XVII yüzilliyin əvvəlləri siyasi tarixini necə qiymətləndirərdiniz?*

**Yaradıcı tətbiqetmə:** Cədvəl formasında Səfəvi şahları II Abbas və Süleymanı müqayisə edin.

**Qiymətləndirmə meyarları:** təhliletmə, cədvəl hazırlama.

Şagirdini fərdi xüsusiyyətlərini öyrənmək üçün formativ qiymətləndirmənin də böyük əhəmiyyəti vardır. Mövcud dərsin qiymətləndirməsini yuxarıdakı meyara nəzərən dərs izləməsi nəticəsində həyata keçirməlisiniz. Dərsin sonunda şagirdi yuxarıda verilmiş meyar nəzərə alınmaqla səviyyələr üzrə qiymətləndirə bilərsiniz.

Qrup təqdimatı zamanı aşağıdakı qiymətləndirmə formasından istifadə edə bilərsiniz.

| Meyarlar | I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|---|
| Əsas anlayışlar, problemlər, mövzular, ideyalar | Seçilmir. | Seçilir, tərifi verilir və təsvir edilir. | Yaxşı seçilir, tərifi və təsviri verilir. | Mükəmməl surətdə seçilir, dəqiq tərifi və təsviri verilir. |
| Faktlar, informasiya | Yoxdur və ya qeyri-dəqiqdir | Səhvlər var. | Kiçik yanlışlıqlar var. | Yanlışlıqlar yoxdur. |
| Problemə aid göstəricilərin toplanması | Mühüm göstəriciləri tapa bilmir. | Problem üzrə az göstərici tapır. | Məntiqlə seçir və bir hissəsini təşkil edir. | Məntiqlə seçir və hər şeyi təşkil edir. |
| Nəticə çıxarmaq bacarığı | Nəticələr yoxdur və ya dəqiq deyil. | Yanmçıq nəticələr | Göstəricilərə əsaslanan məlumatlı nəticələr | Göstəricilərə əsaslanır. |
| Təqdimatın təşkili | Qeyri-kafi | Kafi | Yaxşı | Əla |

Vaxtınız qaldığı təqdirdə, refleksiya üçün aşağıdakı suallardan istifadə etmək olar.

– *Dərsdə hansı yeniliyi öyrəndiniz?*
– *Sizin üçün dərsin ən önəmli nəticəsi nə oldu?*
– *Sizə nə aydın olmadı?*
– *Hansı suallarınız var?*
– *Yeni materialın öyrənilməsi sizə hansı təsiri bağışladı?*



Belə çətin bir dövrdə ayrı-ayrı qızılbaş tayfa əyanları və hərbi başçılar II Təhmasibin ətrafında birləşməyə başladılar. Bu hərbi başçılardan biri Əfşar tayfasından olan Nadir xan idi. Qızılbaşların müqəddəs şəhəri sayılan Məşhədin, sonra isə İsfahanın əfqanlardan geri alınması Nadir xanın şöhrətinin artmasına səbəb oldu.

Nadir xan əfqanlarla döyüşdə

Şah II Təhmasib

Bundan narahat olan II Təhmasib Nadir xanla məsləhətləşmədən İrəvandakı Osmanlı ordusuna qarşı hərbi əməliyyatlara başladı. Uğursuzluqla üzləşən Şah II Təhmasib Nadir xan tərəfindən hakimiyyətdən uzaqlaşdırıldı. Taxta onun azyaşlı oğlu Abbas çıxarılsa da, gerçək hakimiyyət Nadir xanın əlində idi. Nadir xan Əfşar Rusiya ilə bağlanan müqavilələrə əsasən rus qoşunlarını Xəzərsahili Azərbaycan torpaqlarından çıxartdı.

S Nadir xanın Azərbaycan torpaqlarını işğaldan azad etməsi nə ilə nəticələndi?

Daha sonra Azərbaycandan cənubdakı Kərkük, Qərbi Azərbaycandakı **Üçmüəzzin*** və Muradtəpə döyüşlərində Osmanlı ordularını məğlub edən Nadir xan onların da Azərbaycan ərazilərindən tamamilə çıxarılmasına nail oldu.

★ *Müəzzin* məscidlərdə azan, namazlarda salam və təsbeh dualarının səsləndirən şəxsdir.

Muradtəpə döyüşü

Kərkük döyüşü

12

**Əfşar dövləti.** Səfəvilərin keçmiş sərhədlərini bərpa edən Nadir xan 1736-cı ildə Kür və Araz çaylarının qovuşduqları Suqovuşan adlı yerdə qurultay çağırdı. 2 min nəfərə yaxın nümayəndənin iştirak etdiyi bu məclisdə Nadir səs çoxluğu ilə şah seçildi.

M Nadir Səfəvilər dövlətinin şərq sərhədlərini özbəklərdən qorumaq üçün I Abbas tərəfindən Urmiya gölünün cənubundan Xorasana köçürülmüş Əfşar tayfasından idi. O, ömrü boyu türk kimliyini qoruyub saxlamış və türkman olmasından qürur duymuşdur. 1734-cü ildə Osmanlı vəziri Həkimzadəyə türkcə yazdığı məktubunda osmanlılarla türkmanların eyni kökdən olduqlarını, Səfəvi torpaqlarının alicənab Türkman xalqının irsi mülkü olmasını *(məhrusi-yi il-i cəlil-i türkman)* yazmışdı.

Nadir şah

Nadir şahın hakimiyyəti dövründə (1736–1747) mərkəzi hakimiyyətin gücləndirilməsi ilə yanaşı, türk-müsəlman dövlətləri arasındakı məzhəb ayrılığını aradan qaldırmaq üçün müxtəlif tədbirlər görüldü. O, səfəvilər dövründəki 12 imamın şərəfinə 12 dilimli çalma yerinə, ilk 4 xəlifənin rəmzi olan 4 künclü papaq qoyulmasına nail oldu.

Müxtəlif qoşun növləri hesabına güclü ordu yaradan Nadir şah şərqə doğru yürüşə başladı.

Qəndəhar döyüşü

Onun əsas məqsədi Qızılbaşların şərq hüdudunda yerləşən Qəndəhar şəhərini əfqanlardan geri almaq idi. 1738-ci ildə Qəndəhar şəhəri Əfşar dövlətinin tərkibinə qatıldı.

Əfşar imperatorluğunun bayrağı

13

# 1

III saat

# QIZILBAŞ DÖVLƏTLƏRİ

Şah I Abbas, Xosrov xan, Əfşar dövləti

**Standartlar.**

1.1.1. Oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətlərini izah edir.

4.1.1. Tarixi şəxsiyyətləri *(Oliver Kromvel, Maksimilian Robespyer, I Pyotr, II Yekaterina, Corc Vaşinqton, Benjamin Franklin, Köprülü Mehmet paşa, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar)* müqayisə edir.

**Təlim məqsədləri:**

1. Müxtəlif vaxtlarda baş verən oxşar tarixi faktların fərqli cəhətlərini izah edir.
2. Qızılbaş dövlətlərində hakimiyyətdə olan tarixi şəxsiyyətləri müqayisə edir.

**Təlim formaları:** böyük qruplarla iş, cütlərlə iş

**Təlim üsulları:** ardıcıl suallar

**Dərsin mərhələləri**

**Tədqiqat sualı:** Əfşar və Qacarlar dövlətlərində hakimiyyətdə olan tarixi şəxsiyyətləri qüdrətli hökmdar adlandıra bilərikmi?

**Tədqiqatın aparılması.** Tədqiqat sualına cavab tapmaq üçün dərsin ardıcıl suallar üsulundan istifadə edilməsi tədrisi tövsiyə edilir. Mətn abzaslara bölünür, hər abzas bir şagirdə ucadan oxudulur, digər bir şagird bir növ ona apponent olur. Abzasın oxunması bitdikdən sonra apponent şagird mətni oxuyana oxuduğu abzasdan bir və ya bir neçə sual verir, birinci şagird onun sualını cavablandırır. Sonra sual verən şagird oxumağa davam edir, ikinci isə oxunan abzasdan ona sual verir. Bu üsulun tətbiqi ilə şagirdlərdə ünsiyyət, mətnlə müstəqil işləmək, oxuyub anlama vərdişləri ilə yanaşı, sual qoymaq, sualı cavablandırmaq, müstəqil düşünmək kimi idraki bacarıqlar formalaşdırmaq mümkündür.

Ardıcıl suallar üsulu ilə dərsin keçilməsi ilə dərsin **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsi ilə **tədqiqatın aparılması** mərhələsi birləşdirilmiş olur.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Müzakirə başa çatdıqdan sonra nəticələr ümumiləşdirilir. Aşağıdakı yönəldici suallar vasitəsilə tədqiqat sualına cavab ala bilərsiniz.

– *1736 və 1796-cı illərdə baş verən oxşar hadisə haqqında nə deyə bilərsiniz?*
– *Sizcə, Nadir şahla I Abbasın hansı oxşar və fərqli cəhətləri vardır?*

- *Nadir şahın hansı addımını daha çox qiymətləndirirsiniz? Fikrinizi əsaslandırın.*
- *Nadir şahın şəxsiyyətini necə dəyərləndirmək olar?*
- *Kərim xan Zəndin siyasi fəaliyyətini dövlətçilik baxımından necə qiymətləndirmək olar?*
- *Zəndinlər sülaləsinin hakimiyyətinə son qoyulmasının tarixi əhəmiyyəti nədir?*
- *Sizcə, Qacarın Tiflisə hücumunun əsas səbəbi nə idi?*
- *Ağa Məhəmməd xan Qacarın Gürcüstandakı Rusiya valisinə yazdığı məktubdan nə anlaşılır?*
- *Sizcə, İran ərazisində türk sülalələrinin davamlı hakimiyyətdə olması nəyi sübut edir?*
- *Ağa Məhəmməd Qacarı hökmdar kimi necə qiymətləndirirsiniz?*

**Yaradıcı tətbiqetmə.** Şagirdlərin diqqəti dərsliyin 14-cü səhifəsinə yönədilir və onlara aşağıdakı tapşırıq verilir. Daha orijinal cavabın alınması üçün bunu fərdi iş kimi, ya da cütlərlə iş kimi vermək yaxşı olardı.

**Tapşırıq:** Şəkillər əsasında Əfşar ordusunun silahlanmasını *(yüngül və ağır silahlar, odlu və soyuq silahlar, yüngül və ağır zirehli geyimlər)* müəyyənləşdirin.

**Ev tapşırığı.** "Şərqin son fatehi" adlı afişa yaratmaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** izahetmə, müqayisəetmə

Şagirdlərin qiymətləndirilməsini yuxarıda yazılmış meyarlara müəyyənləşdirilən səviyyələr üzrə aparmaq məqsədəmüvafiqdir. Şagirdlərin cütlərlə işlədiyini nəzərə alaraq onlara aşağıdakı formada özünüqiymətləndirmə vərəqi vermək olar.

**Şagirdin adı və soyadı:** ____________________ **Tarix:**____________
**Sinif:** ________

| Öyrənmə sahələri | Müvəffəqiyyətlər | DƏRƏCƏLƏR | | |
|---|---|---|---|---|
| | | Bəli | Qismən | Xeyr |
| Tarixi zaman | Oxşar tarixi faktları aşkar etdim. Oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətləri izah etdim. | | | |
| Şəxsiyyət | Qızılbaş dövlətlərində hakimiyyətdə olan tarixi şəxsiyyətləri tanıdım. | | | |
| | Qızılbaş dövlətlərində hakimiyyətdə olan tarixi şəxsiyyətləri müqayisə etdim. | | | |



# 2

# BÖYÜK MOĞOL DÖVLƏTİ

Panipat, cagir, Maratx, Ost-Hind şirkəti, sipahi

**Standartlar:**

1.1.2. Oxşar proses və hadisələri əlaqələndirən sinxron cədvəllər tərtib edir.

3.1.1. Dövlətlərin *(İngiltərə, Fransa, Rusiya, ABŞ, Osmanlı, İran, Çin, Hindistan, Mərkəzi Asiyanın türk dövlətləri, Qazaxıstan, Krım, Sibir, Volqaboyu, Qafqaz xalqları)* yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil edir.

**Təlim məqsədləri:**

1. Böyük Moğol dövlətinə edilən hücumlarla bağlı sinxron cədvəllər tərtib edir.
2. Böyük Moğol dövlətini idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil edir.

**Təlim formaları:** böyük və kiçik qruplar

**Təlim üsulları:** beyin həmləsi, restavrasiya

**Dərsin mərhələləri**

**Motivasiya.** Aşağıda sizə mövcud dərs üçün motivasiya qurmağın bir neçə yolunu təkilf edirik. Müəllim olaraq hansı formadan istifadə emək və ya öz quracağınız motivasiyadan istifadə etmək artıq sizin səlahiyyətinizdədir.

**Motivasiya qurmağın birinci yolu.** Motivasiya qurmaq üçün şagirdlərin diqqətini dərsliyin 22-ci səhifəsindəki xəritəyə yönəldib *(Əgər sizdə texniki imkanlar buna imkan verirsə, yaxşı olar ki, bu xəritəni proyektor vasitəsilə lövhədə göstərəsiniz.)* onlara aşağıdakı suallarla müraciət edə bilərsiniz:

– *Gördüyünüz xəritə ilk baxışdan sizdə hansı təəssüratı yaradır?*
– *Xəritəyə əsasən gördüyünüz ərazidə vahid dövlətin olduğunu deyə bilərikmi? Nəyə görə?*
– *Sizcə, gördüyünüz xəritə hansı dövlətə aid ola bilər?*

**Motivasiya qurmağın digər yolları.** Motivasiya qurmaq üçün digər yol kimi şagirdlərə onların 7-ci sinifdə keçdikləri Böyük Moğol dövləti və ya Babur şah haqqında məlumat vermək təklif olunur.

Verdiyiniz məlumatlar və suallara verilən cavablardan əldə edilən fərziyyələri lazımi məcraya yönəldib dərsin motivasiyasını reallaşdıra bilərsiniz. Bunun ardınca tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı:** Böyük Moğol dövlətində siyasi və sosial-iqtisadi münasibətlər necə inkişaf etdi?

**Tədqiqatın aparılması:** Tədqiqatın aparılmasını kiçik qruplarla iş formasında aparılmasını tövsiyə edərdik. Fəal təlimin restavrasiya üsulundan istifadə etmək daha yaxşı olardı. Bu üsul şagirdlərə mətnlə işləməklə yanaşı, onlarda konspekt yazmaq və ondan istifadə etmək bacarığını formalaşdırır. Bunun üçün şagirdlərə xüsusi işarələrlə işarələnmiş, şərti işarələri olmayan ixtisar olunmuş mətn verilir. Şagirdlər müəyyən edilmiş vaxt çərçivəsində mətni bərpa edib onu genişləndirməlidirlər.

Bu zaman qruplara tədqiqat üçün aşağıdakı tapşırıqları verə bilərsiniz:

**I qrup**

1. Verilmiş mətni bərpa edin.

Əkbər şahdan sonra onun varisləri imperiyanın ərazilərini daha da genişləndirib hakimiyyətlərini, demək olar ki, bütün Hindistana yaya bildilər. Lakin ____________________
________________________________________________________________________________
________________________________________________________________________________

Fasiləsiz müharibələr, ____________________________________________________________
________________________________________________________________________________
_______ Belə şəraitdə mərkəzi hakimiyyətin _______________________________________
________________________________________________________________________________
________________________________________________________________________________

**II qrup**

Verilmiş mətni bərpa edin.

Avropalılar Hindistana hərbi təzyiqi gücləndirməyə başladılar. ____________________
________________________________________________________________________________
________________________________________________________________________________

Hind knyazlıqlarından güzəştlər qoparan Ost-Hind şirkəti _________________________
________________________________________________________________________________
________________________________________________________________________________

Müharibədə qalib gələn ingilislər hind torpaqlarının tamamilə işğalına başladılar.

İngilislər 1770-ci ildə ___________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________

**III qrup**

Verilmiş mətni bərpa edin.

XVIII əsrin 30-cu illərində Hindistan ərazisində Maratx, Benqal, Heydərabad kimi iri ___
_______________________________________________
_______________________________________________

Nadir şah imperiyasının dağılmasından sonra ______________________
_______________________________________________
_______________________________________________ Panipat döyüşü ilə bitdi.

Maratxların döyüşdə məğlub olması ___________________________
_______________________________________________
_______________________________________________

**IV qrup**

Verilmiş mətni bərpa edin.

Böyük Moğol imperatorluğu mərkəzləşdirilmiş dövlət idi. İmperator hakimiyyəti qeyri-məhdud idi. Dövlət torpaq fonduna daxil ___________________________
_______________________________________________
_______________________________________________

Dövlətə tabe edilmiş və xərac verən hind knyazların __________________
_______________________________________________
_______________________________________________

Müsəlman olmayan hinduslardan ___________________________
_______________________________________________
_______________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra məlumatın mübadiləsi və müzakirəsi mərhələsini həyata keçirilir. Bu mərhələdə şagirdlərə müəyyən vaxt verilir və onlardan bu vaxt ərzində cavabları hazırlayıb təqdim etmək tapşırılır. Təqdim edilən cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Qiymətləndirmə əvvəlcədən müəyyən edilən meyarlar əsasında həyata keçirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirib nəticə çıxartmaq üçün şagirdlərə aşağıdakı suallarla müraciət etmək olar.

– *Sizcə, nəyə görə ingilislər Hindistanın işğalını Ost-Hind şirkətinin əli ilə həyata keçirməyə çalışırdılar?*
– *Nadir şah imperiyasının dağılmasının Böyük Moğol dövləti üçün hansı müsbət və mənfi cəhətləri oldu?*
– *Böyük Moğol dövlətinin dağılmasını şərtləndirən amillər hansılar idi?*
– *Sizcə, siyasi dağınıqlıq, ara müharibələri sosial-iqtisadi inkişafı necə ləngidə bilərdi?*

**Yaradıcı tətbiqetmə:** XVII–XVIII əsrlərdə Hindistana edilən xarici müdaxiləni cədvəl formasında qurun.

**Qiymətləndirmə meyarları:** tərtibetmə, təhliletmə.

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə bu mərhələ zamanı siz müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğunuz şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilərsiniz.

Bununla yanaşı şagirdlərə aşağıdakı formada özünüqiymətləndirmə vərəqi də təqdim etmək, aşağıdakı suala cavab verməklə cədvəli doldurmaq təklif edilə bilər.

Sadalananlar barədə öz şəxsi keyfiyyətlərini necə qiymətləndirirsən?

| Meyar | Qeyri-kafi | Kafi | Yaxşı | Əla |
|---|---|---|---|---|
| Əməkdaşlıq | | | | |
| Başqalarına kömək | | | | |
| Başqalarına hörmət | | | | |
| Dinləmək bacarığı | | | | |
| Səhvin etirafı | | | | |
| Düzlük | | | | |
| Başqaları haqqında ədalətlə fikir yürütmə | | | | |




# 3

# ÇİN

Min, Mancur, boqdıxan, özünütəcrid siyasəti

**Standartlar:**

2.1.2. Dövlətlərin və xalqların həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür.

3.1.2. Yeni tipli dövlətlərin qeyri-bərabər inkişafına aid esse yazır.

**Təlim məqsədləri:**

1. Çinin həyatında baş verən ərazi dəyişikliklərini məlumatlar əsasında kontur xəritələrə köçürür.
2. Çin dövlətinin qeyri-bərabər inkişafına aid esse yazır.

**Təlim formaları:** böyük qruplarla iş, fərdi iş

**Təlim üsulları:** beyin həmləsi, esse yazmaq

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiya qurmaq üçün anlayışın çıxarılması üsulundan istifadə edə bilərsiniz. Bunun üçün lövhədə sizə aşağıda təqdim etdiyimiz formaya uyğun SmartArt qurmağı təklif edərdik.

Şagirdlərə verdiyiniz suallara aldığınız cavabları ümumiləşdirib lazımi məcraya yönəldərək tədqiqat sualını elan edilir.

**Tədqiqat sualı:** Çin dövlətinin qeyri-bərabər inkişafı necə baş verdi?

**Tədqiqatın aparılması.** 3.1.2. standartının reallaşdırılması üçün tədqiqatın fərdi iş formasında aparılması tövsiyə edilir. Şagirdlərə esse yazmaq üçün aşağıdakı tapşırıqları verə bilərsiniz:

– *Özünütəcrid siyasəti Tsin dövlətinin qeyri-bərabər inkişafına necə təsir etdi?*
– *Min sülaləsinin süqutu Çinin inkişafına hansı təsiri göstərdi?*
– *Mancur ağalığı dövründə Çində baş verən ictimai-iqtisadi inkişafı qiymətləndirin.*
– *Tsin sülaləsinin Çindəki hakimiyyətini dəyərləndirin.*




**Məlumatın mübadiləsi və müzakirəsi.** Esse yazmaq üçün ayrılan müddət bitdikdən sonra şagirdlər esseni oxuyurlar. Vaxt məhdudluğunu nəzərə alaraq hər mövzu üzrə 1-2 essenin oxunması kifayətdir. Lakin digər şagirdlərin yazdıqları esseləri növbəti dərs üçün oxuyub qiymətləndirilir və şagirdlər yazının nəticələri ilə tanış edilir. Hər mövzu üzrə esselər oxunduqdan sonra müzakirələr təşkil edib lazımi əlavələr etmək yaxşı olardı.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin yekunlaşdırılması üçün şagirdlərə aşağıdakı suallar verilə bilər:

- *Min sülaləsinin süqutunun hansı səbəbləri var idi?*
- *Sizcə, nə üçün mancurlar Çinin əvvəlki idarəçiliyinə toxunmadılar?*
- *Mancurların keçirdiyi aqrar islahatların nəticəsi nə oldu?*
- *Sizcə, Çin hökuməti avropalıların ölkəyə gəlişini qadağan etməsəydi, nə baş verə bilərdi?*

**Yaradıcı tətbiqetmə:** Mancur işğalı nəticəsində Çində baş verən ərazi dəyişiklikləri kontur xəritəyə köçürmək tapşırığından istifadə edilə bilər.

Şagirdlərə metodik vəsaitin sonunda verilmiş kontur xəritəni şagirdlərə təqdim edilir və onlara tapşırıq verilir:

Xəritə üzərində rəngli karandaşlarla qeyd edin:

- *Çin dövləti XVII yüzillikdə;*

– *Çin dövləti XVIII yüzillikdə;*
– *Çindən asılı olan dövlətlər;*
– *Çin dövlətinin qonşu dövlətləri:*

**Qiymətləndirmə meyarları:** kontur xəritələrə köçürmə, esse yazma.

Formativ qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğu şagirdin hansı meyarlara cavab verdiyini dəqiqləşdirə bilərsiz. Qiymətləndirmə zamanı şagirdlərin yuxarıdakı meyarlara uyğun səviyyələr üzrə qiymətləndirilməlidir.

Dərsin əsas hissəsində fərdi iş formasından istifadə edilməsini nəzərə alaraq şagirdlərə aşağıdakı formaya uyğun özünüqiymətləndirmə vərəqi də təqdim etmək olar.

**Ad və soyad:** ________________________________

Bu anket özünüqiymətləndirmə məqsədilə hazırlanmışdır. Gördüyünüz işləri ən düzgün formada ifadə edən seçimi işarələyin (+).

| MEYARLAR | DƏRƏCƏLƏR | | |
|---|---|---|---|
| | Həmişə | Bəzən | Heç vaxt |
| 1. Müəllimin izahlarını və məsləhətlərini dinlədim. | | | |
| 2. Təlimata əməl etdim. | | | |
| 3. Çalışmalarımı bitirdim. | | | |
| 4. Anlamadığım məsələyə aid sual verdim. | | | |
| 5. Tapşırığı yerinə yetirərkən vaxtdan düzgün istifadə etdim. | | | |
| 6. Tapşırığı yerinə yetirmək üçün müxtəlif materiallardan istifadə etdim. | | | |

**ŞƏRHLƏR:**

________________________________________________

________________________________________________


4

OSMANLI İMPERİYASI

durğunluq dövrü, Köprülü Mehmet paşa, geriləmə dövrü, "Lalə dövrü", "Yunan layihəsi", Yassı sülhü, III Səlimin islahatları

*Əsası oğuzların Qayı boyu tərəfindən qoyulmuş Osmanlı dövləti 1453-cü ildə Bizansın varlığına son qoyaraq onun paytaxtı Konstantinopolu fəth etmiş və bu şəhəri öz paytaxtına çevirərək İstanbul adlandırmışdı. XVI yüzillikdə hakimiyyətini üç qitəyə yayan Osmanlı dövləti XVII yüzilliyin əvvəllərində də qüdrətini qoruyub saxlaya bilmişdi.*

**Osmanlı imperiyası durğunluq dövründə.** Osmanlı imperiyası XVI yüzilliyin sonlarında geniş ərazilərə malik qüdrətli bir dövlət idi. Səfəvilərlə müharibələrdə qalib gələn osmanlılar Xəzər dənizinə qədər uzanan əraziləri tutmuşdu. Osmanlılar ticarət əlaqələrini genişləndirmək məqsədilə Volqa və Don çaylarını, həmçinin Aralıq dənizini Qırmızı dəniz və Hind okeanı ilə birləşdirəcək kanallar çəkilməsinə dair layihələri işləyib hazırlamışdı. Əvvəlki iqtisadi gücə malik olmayan Osmanlı dövləti bu layihələri gerçəkləşdirə bilmədi.

Yeni dövrün başlanğıcında Osmanlı dövləti tarixinin durğunluq, daha sonra isə geriləmə dönəminə daxil oldu.



28

Mərkəzi hakimiyyətin nüfuzdan düşməsinin əsas səbəbi taxta çıxan hökmdarların səriştəsiz olması idi. Belə ki əvvəllər hökmdar olacaq şəxs vilayətlərə başçılıq edərək təcrübə qazandığı halda, indi onlar "**qəfəs üsulu***" ilə tərbiyə olunurdu.

*"Qəfəs üsulu"*. I Əhmədin (1603–1617) dövründə taxta çıxan hökmdarın qardaşlarını fiziki cəhətdən aradan qaldırması qaydası ləğv olunaraq "Qəfəs üsulu" tətbiq edilməyə başladı. Bu üsula əsasən taxta çıxacaq vəliəhd saray hərəmxanasında yaşayır və mühafizlər adlanan xüsusi dəstə tərəfindən qorunurdu.

Taxta çıxarılan azyaşlı hökmdarların analarının – validə sultanların dövlət işlərinə qarışmaları, sultanların hərbi yürüşlərdə ordunun başında olmaması, rəhbər vəzifələrə təyin olunma zamanı rüşvətin artması, sədrəzəmlərin *(baş vəzirlərin)* tez-tez dəyişdirilmələri də dövlət idarəçiliyinin zəifləməsinə səbəb olurdu. Əhalinin xeyli hissəsi ehtiyac içərisində yaşadığı halda, sarayda dəbdəbəli tədbirlərin keçirilməsi, hüquq sistemindəki özbaşınalıq xalqın dövlətə olan inamını azaldırdı.

T "Qəfəs üsulu"nu əvvəlki sistemlə müqayisə edin.

Osmanlı iqtisadiyyatının zəifləməsinin müxtəlif səbəbləri var idi. Sultanların tez-tez dəyişdirilməsi zamanı "**cülus bəxşişləri**"**nin*** artırılması, sultan sarayının məsrəflərinin çoxalması kəndliləri var-yoxdan çıxardırdı. Yeni taxta çıxan sultan əvvəlki sultandan fərqlənmək üçün daha çox hədiyyələr paylamağa çalışırdı.

*Cülus bəxşişi* yeni taxta çıxan (cülus edən) sultanın istər mülki, istərsə də hərbi məmurlara payladığı hədiyyədir.

Böyük coğrafi kəşflər nəticəsində ticarət yollarının dəyişməsi, gömrük rüsumlarının azaldılması yerli istehsalçıların müflis olmasına səbəb olurdu. Nəticədə Osmanlı pulları da dəyərdən düşürdü.

S Osmanlı pullarının dəyərdən düşməsinə səbəb nə idi?

İqtisadi durğunluq ordunun da zəifləməsinə gətirib çıxarmışdı. Digər tərəfdən əsgərlikdə olmayanlar da təminatlarını yaxşılaşdırmaq üçün Osmanlı ordusunun əsas zərbə qüvvələrindən olan "Qapıpulu ocaqları"na yazılıb imtiyazlardan faydalanırdılar. "Ocaq dövlət üçündür" əvəzinə, artıq "dövlət ocaq üçündür" şüarları irəli sürülürdü. Osmanlı ordusunda Avropadakı kimi yeniliklər tətbiq olunmur, donanma get-gedə zəifləyirdi.

Kənd əhalisi öz təhlükəsizliyini təmin etmək üçün şəhərlərə köçürdü. Nəticədə kənd təsərrüfatı mallarının istehsalı azalır və şəhərlərdə işsizlik artırdı.

Mədrəsələrdə dünyəvi biliklərə üstünlük verilməməsi, "**beşik alimliyi***" sisteminin tətbiqi elm və təhsilin geridə qalmasına səbəb olurdu.

*"Beşik alimliyi"*. XVI yüzillikdən tətbiq edilən bu sistemə görə "alimin oğlu alimdir" hesab olunur, təhsillə yanaşı, bu sistemdən dövlət idarəçiliyində də istifadə olunurdu.

S "Beşik alimliyi" sisteminin mənfi cəhətləri nədən ibarətdir?

Bu səbəblərə görə Səfəvilər, Avstriya və Rusiya kimi güclü dövlətlərlə həmsərhəd olan Osmanlı dövləti daha öz sərhədlərini genişləndirmək gücündə deyildi. Xüsusilə də Böyük coğrafi kəşflər nəticəsində zənginləşən, hərbi işdə get-gedə üstünlük qazanan və mərkəzi hakimiyyətin gücləndiyi Avropa ölkələri ilə müqayisədə Osmanlı geridə qalmağa başladı.

29

4

*I saat*

# OSMANLI İMPERİYASI

Durğunluq dövrü, Köprülü Mehmet paşa, geriləmə dövrü, "Lalə dövrü", "Yunan layihəsi", Yassı sülhü, III Səlimin islahatları

***Qeyd:*** Mövcud paraqrafın tədrisinə dörd saat ayrılmışdır. Bu paraqraf dərsliyin 28–41-ci səhifələrini əhatə edir. Dərslik müəllifi olaraq biz bu paraqrafı tədris saatına uyğun olaraq aşağıdakı qaydada bölmüşük:

– Birinci dərs səhifə 28-dən başlayıb 32-ci səhifədəki **Osmanlı dövləti geriləmə dövründə** yarımbaşlığına olan məlumatları əhatə edir. Təbii ki, bu səhifələrdə yer alan sxemləri, əyani vasitələri, sual və tapşırıqları diqqətdən kənarda saxlamaq düzgün olmazdı.
– İkinci dərs saatı 32-ci səhifədəki **Osmanlı dövləti geriləmə dövründə yarımbaşlığından** 38-ci səhifəyədək olan məlumatları özündə əks etdirir.
– Üçüncü dərs saatı 38-ci səhifədən paraqrafın sonunadək olan materialları əhatə edir.
– 8-ci sinif Ümumi tarixin fənni üzrə bəzi standartlarının hər dərsdə reallaşdırılmasının çətin olduğunu nəzərə alaraq 4-cü saatın bu standartların reallaşdırılmasına həsr edilməsi tövsiyə edilir. Bu zaman müəllim 1.1.2., 1.1.3., 2.1.2., 3.1.2., 4.1.2. standartlarının reallaşdırılması üçün yaxşı imkan əldə etmiş olarsınız.

Onu da qeyd edək ki, bu bölgü mütləq deyil. Bölgünü siz dəyişə və yeni bölgü forması yarada bilərsiniz.

**Standartlar:**

1.1.1. Oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətlərini izah edir.
2.1.1. Feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, dünyada baş vermiş iqtisadi, sosial dəyşiklikləri məkanla əlaqədə izah edir.

**Təlim məqsədləri:**

1. Osmanlı imperiyasında oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətlərini izah edir.
2. Osmanlı imperiyasında baş vermiş iqtisadi, sosial dəyşiklikləri məkanla əlaqədə izah edir.

**Təlim formaları:** kollektiv, fərdi

**Təlim üsulları:** anlayışın çıxarılması, proqnozlaşdırılmış oxu




**Dərsin mərhələləri**

**Motivasiya.** Bu dərs üçün motivasiya qurmağın ən sadə və rahat yolu əvvəlki dərslərdə əldə edilən biliklər üzərində mövzuya giriş etməkdir. Anlayışın çıxarılması üsulundan istifadə etmək olar.

*Osmanlı dövləti* cavabını alandan sonra şagirdləri yeni dərsə kökləyib tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı:** XVII yüzillikdə Osmanlı imperiyasında iqtisadi, sosial dəyşikliklər necə baş verdi?

**Tədqiqatın aparılması.** Bu mərhələni reallaşdırmaq üçün *proqnozlaşdırılmış oxu* üsulundan istifadə etmək məqsədəmüvafiq olardı. Məzmunun mənimsənilməsinə həsr olunan dərsdə mövzudan bir hissə oxunur, fasilə edilir və şagirdlər hadisələrin sonrakı inkişafı barədə fərziyyələrini proqnoz cədvəlində qeyd edirlər. Mövzunun hissələri "*Sizcə, nə baş verəcək?*", "*Nə üçün belə düşünürsünüz?*", "*Nə baş verdi?*", "*Hadisə necə davam edərdi?*" kimi suallarla cavablandırılmaqla davam edə bilər.

**Məlumatın müadiləsi və müzakirəsi.** Bu mərhələdə şagirdlər tədqiqatın gedişində əldə etdikləri məlumatları, yeni informasiyanın mübadiləsini aparırlar. Qoyulmuş suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir-birinin təqdimatını fəal dinləməyə sövq edir. Taqdimat bir növ yeni biliklərin dairəsini cızır. Ola bilər ki, bu biliklər hələ natamam və xaotik xarakter daşısın. Bu zaman yeni bir tələbat – həmin bilikləri qaydaya salmaq, sistemləşdirmək, müəyyən bir nəticəyə gəlmək üçün tədqiqat sualına cavab tapmaq zərurəti yaranır. Bütün bilik, bacarıq və vərdişlərin, təfəkkürün müxtəlif növlərinin *(məntiq, tənqidi, yaradıcı)* səfərbərliyini tələb edir. Yönəldici və köməkçi sual-

lardan istifadə etməklə əldə edilmiş faktların məqsədyönlü müzakirəsinə və onların təşkilinə müəllim tərəfindən yardım edilir. İnformasiyanın təşkili bütün faktlar arasında əlaqələrin aşkara çıxarılmasına və onların sistemləşdirilməsinə yönəldilir. Nəticədə mövcud tədqiqat sualına cavab müəyyən edilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Bu mərhələdə şagirdlər yeni biliklərin əldə edilməsi üçün son addımı ataraq konkret nəticəyə gəlir və ümumiləşdirmələr aparırlar. Şagirdlər nəinki əldə olunan bilikləri ümumiləşdirməli, həm də gəldiyi nəticəni tədqiqat sualı ilə və irəli sürülmüş fərziyyələrlə müstəqil olaraq tutuşdurmalıdır. Dərsin kulminasiyasını isə bilikləri məhz özləri kəşf etdikləri üçün şagirdlərin duyduqları bənzərsiz sevinc və məmnuniyyət hissi təşkil edir. Bu proses zamanı müəllim dərsi yekunlaşdırmaq üçün aşağıdakı suallarla şagirdlərə müraciət edə bilər:

– *Sizcə, Osmanlı imperiyasının hansı dənizlərə çıxışı var idi?*
– *Osmanlı imperiyasının durğunluq və geriləməsinin hansı daxili səbəbləri var idi?*
– *Osmanlı imperiyasının durğunluq və geriləməsinin hansı xarici səbəbləri var idi?*
– *Sizcə, "Qəfəs üsulu" əvvəlki sistemlə müqayisədə faydalı idimi? Fikrinizi əsaslandırın.*
– *"Beşik alimliyi" sisteminin mənfi cəhətləri nədən ibarətdir?*
– *Osmanlı pullarının dəyərdən düşməsinə səbəb nə idi?*
– *Köprülü Mehmet Paşanın keçirdiyi islahatları necə dəyərləndirirsiniz?*

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə XVII yüzilliyin II yarısında Osmanlı dövlətinin xarici siyasətinə aid cədvəlin qurulması tapşırığı verilə bilər.

**Qiymətləndirmə meyarları:** Fərqli cəhətləri izahetmə, dəyşiklikləri məkanla əlaqədə izahetmə.

Qiymətləndirmə zamanı şagirdlər yuxarıdakı meyarlara uyğun səviyyələr üzrə qiymətləndirilməlidir.

Dərsin sonunda vaxtınız qalacağı halda refleksiya üçün aşağıdakı sualları verə bilərsiniz:

– *Yeni materialın öyrənilməsi sizə hansı təsiri bağışladı?*
– *Dərsdə informasiya əldə etmənin hansı yeni metodunu öyrəndiniz?*
– *Sizin üçün dərsin ən önəmli nəticəsi nə oldu?*
– *Sizə nə aydın olmadı? və s.*


Bundan qorxuya düşən Avstriya, Malta, Venesiya və Reç Pospolita 1684-cü ildə Roma papasının təşəbbüsü ilə Osmanlıya qarşı "Müqəddəs birlik" adlı xaçlı ittifaqı təşkil etdi. İki il sonra bu birliyə Rusiya da qoşuldu.

Çoxsaylı ordu ilə Osmanlı torpaqlarına hücum edən müttəfiqlər Osmanlını şərqdən də müharibəyə cəlb etmək üçün "Müqəddəs birliy"ə qoşulmaq təklifi ilə Səfəvi sarayına elçilər göndərdilər. Səfəvi hökmdarı Süleyman şah onlara: "Biz zor günündə qan və din qardaşlarımızı arxadan vurmayacağıq", – cavabını verdi.

XVII yüzilliyin sonlarında "Müqəddəs birlik" dövlətləri ilə müxtəlif cəbhələrdə müharibə aparan Osmanlı dövləti məğlub olaraq Avropada xeyli ərazilər itirdi.

Bununla da Osmanlı dövləti "durğunluq" dövründən "geriləmə" dövrünə qədəm qoydu.

T XVII yüzilliyin II yarısında Osmanlı dövlətinin xarici siyasətinə aid cədvəli doldurun.

| Tutulan ərazilər | İtirilən ərazilər |
| --- | --- |
| | |

**Osmanlı dövləti geriləmə dövründə.** 1703-cü ildə taxta çıxan III Əhməd Osmanlının beynəlxalq aləmdə itirilmiş nüfuzunu bərpa etmək üçün tədbirlər görməyə başladı. Rusiyanın cənuba doğru artan təcavüzünün qarşısı alındı. Belə ki 1711-ci ildə I Pyotrun "Prut yürüşü" adlandırdığı hücum rus qoşunlarının Osmanlı ordusu tərəfindən mühasirəyə alınması və məğlub edilməsi ilə nəticələndi. I Pyotrun Osmanlı sədrəzəminin qərargahına göndərdiyi rus elçiləri barışıq imzalanmasına nail oldular.

S Prut müqaviləsini Osmanlı dövləti üçün uğur hesab etmək olarmı?

32

Prut savaşı



4

*II saat*

# OSMANLI İMPERİYASI

Durğunluq dövrü, Köprülü Mehmet paşa, geriləmə dövrü, "Lalə dövrü", "Yunan layihəsi", Yassı sülhü, III Səlimin islahatları

**Standart:**

2.1.1. Feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, dünyada baş vermiş iqtisadi, sosial dəyşiklikləri məkanla əlaqədə izah edir.

**Təlim məqsədi:**

Osmanlı imperiyasında feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, dünyada baş vermiş iqtisadi, sosial dəyşiklikləri məkanla əlaqədə izah edir.

**Təlim formaları:** böyük və kiçik qruplarla is
**Təlim üsulu:** karusel

**Dərsin gedişi**
**Tədqiqat sualı:** XVIII yüzillikdə Osmanlı imperiyası necə inkişaf etdi?

**Tədqiqatın aparılması.** Tədqiqat sualı elan olunandan sonra kiçik qruplarla iş formasından və *karusel* təlim üsulundan istifadə etməklə dərsi qurmaq olar. Bu təlim üsulu bir qədər çox vaxt tələb etdiyindən şagirdlərə veriləcək sual və tapşırıqların yerinə yetirilməsi nisbətən az vaxt aparmalıdır. Qruplara tədqiqat üçün aşağıdakı sual və tapşırıqları və ya müəllimin məsləhət bildiyi tapşırıqları vermək olar.

**I qrup**

III Əhmədin dövründə Osmanlı imperiyasında gedən siyasi prosesləri izah edin.

______________________________

______________________________

______________________________

**II qrup**

III Əhmədin dövründə Osmanlı imperiyasında gedən iqtisadi və mədəni prosesləri izah edin.

______________________________

______________________________

______________________________

**III qrup**

I Mahmudun dövründə Osmanlı imperiyasının inkişafını izah edin.

**IV qrup.**

"Yunan layihəsi"-ni və Kiçik Qaynarca sülhünü Osmanlı tarixi baxımından izah edin.

*Karusel* təlim üsulunun birinci mərhələsində qrup işinə ayrılmış vaxt bitdikdən sonra , əslində, müəllim dərsin yeni mərhələsinə – məlumatın mübadiləsi və müzakirəsi mərhələsinə keçid almış olur. Çünki bu mərhələdə müəyyən edilmiş zaman ərzində hər bir qrup digər qrupların yazdıqları ilə tanış olmaq və "rəqiblərinin" yazdıqlarına münasibət bildirmək imkanına malik olur. Dərsin bu mərhələsi bitəndən sonra növbəti mərhələyə keçid edilir.

Yaxşı olar ki, dərsin bu mərhələsi bitəndən sonra qrupları aşağıdakı meyarlara uyğun olaraq qiymətləndirilsin.

| Qruplar | Mübadilədən düzgün istifadə | Tapşırığın vaxtında yerinə yetirilməsi | Əməkdaşlıq | Təqdimetmə | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Vaxta qənaət etmək üçün qrup təqdimatlarını dərsin ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində etmək mümkündür. Lakin bu mərhələdə müəllim ümumiləşdirmələr aparmaq və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə suallar verə bilər. Verilən suallar əvvəlcədən hazırlanmalıdır. Şagirdlərə aşağıdakı suallarla müraciət etmək mümkündür:

– *Prut müqaviləsini Osmanlı dövləti üçün uğur hesab etmək olarmı?*
– *"Lalə dövrü"nün başa çatmasına hansı amillər səbəb oldu?*
– *Sizcə, Kiçik Qaynarca sülh müqaviləsinin imzalanmasını zəruri edən səbəblər hansılar idi?*
– *Sultan I Mahmudu III Əhmədin davamçısı saymaq olarmı? Fikrinizi əsaslandırın.*

– *III Əhmədin dövründə keçirilən islahatlardan hansını daha yüksək qiymətləndirirsiniz? Fikrinizi əsaslandırın.*

**Ev tapşırığı:** Sultan III Əhmədlə I Mahmudun oxşar və fərqli cəhətlərinə aid cədvəl qurun.

**Qiymətləndirmə meyarı:** izahetmə.

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə bu mərhələ zamanı müəllim müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğu şagirdin tədris meyarına necə cavab verdiyini dəqiqləşdirə bilər. Bu zamanı yuxarıda verilmiş meyar nəzərə alınmaqla müəyyən edilən səviyyələr üzrə şagirdləri qiymətləndirmək mümkündür.

Təqdimat mərasimini şagirdlərin özləri də qiymətləndirə bilərlər. Onlar aşağıda göstərilmiş vərəqi doldururlar. Əgər bunu təqdimatı keçirən qrupun üzvləri edirlərsə, o zaman bu, özünüqiymətləndirmə sayılır. Özünüqiymətləndirmə vərəqindən istifadə etməklə, şagirdlər həm də qrupun işini bütövlükdə, yəni qrupun onların qarşısında qoyulmuş vəzifənin öhdəsindən necə gəldiyini qiymətləndirə bilərlər.

**Ad, soyad, ata adı.** ______________________________

**Tarix.** ________________

| MEYARLAR | XEYR | QİSMƏN | TAM |
|---|---|---|---|
| Tapşırığı başa düşdüm və fikrimi izah etdim. | | | |
| Dərsdə diqqətli idim. | | | |
| Məntiqli yanaşmam var idi. | | | |
| Sual-cavabda aktiv idim. | | | |
| Əməkdaşlıq etdim. | | | |
| Etiket qaydalarına riayət etdim. | | | |




4

*III saat*

# OSMANLI İMPERİYASI

Durğunluq dövrü, Köprülü Mehmet paşa, geriləmə dövrü, “Lalə dövrü”, “Yunan layihəsi”, Yassı sülhü, III Səlimin islahatları

**Standartlar:**

2.1.1. Feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, dünyada baş vermiş iqtisadi, sosial dəyşiklikləri məkanla əlaqədə izah edir.

2.1.2. Dövlətlərin və xalqların həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür.

**Təlim məqsədləri:**

1. Osmanlı imperiyasında feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, dünyada baş vermiş iqtisadi, sosial dəyşiklikləri məkanla əlaqədə izah edir.
2. XVII–XVIII yüzillikdə Osmanlı imperiyasında baş verən ərazi dəyişiklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür.

**Təlim formaları:** böyük qruplar, fərdi iş

**Təlim üsulu:** bitməmiş cümlələr

**Dərsin gedişi**

**Tədqiqat sualı:** XVIII yüzillikdə Osmanlı imperiyası necə inkişaf etdi?

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılmasını *bitməmiş cümlələr* üsulunun köməyi ilə həyata keçirmək məqsədəmüvafiq olardı. Dərsin məqsədini, tədqiqat sualı şagirdlərə elan etdikdən sonra qısaca bu üsulun izahını vermək olar. Şagirdlərə müraciət edilir: *“Mən sizə bir bitməmiş cümlə deyəcəyəm və siz bu cümləni 2-3 arqumentlə tamamlamalısınız”.*

Şagirdlərə ünvanlanan *bitməmiş cümlələr* aşağıdakı formada ola bilər:

– *1783-cü ildə Krım xanlığının tutulmasını belə izah edərdim ki,* ............................

– *Yassı sülh müqaviləsinin bağlanmasını belə izah edərdim ki,* ............................

– *Osmanlı imperiyasının dağılmağa başlaması dövrünü belə dəyərləndirmək olar ki,* .....................

– *Sultan III Səlim haqqında mən* ................... *öyrəndim.*

– *Osmanlı imperiyasının Rusiya ilə müharibədə məğlubiyyətinin səbəblərini belə*

*şərh etmək olar ki, .................... .*

- *Bugünkü dərsdə mən XVIII yüzillikdə Osmanlı imperiyası haqqında .................... öyrəndim.*
- *Sultan III Səlimin yeni ordu quruculuğunun izahını belə verərdim ki, ........................*
- *Misirdə Osmanlı-fransız qarşıdurmasını belə dəyərləndirərdim ki, .....................*
- *Sultan III Səlimin hakimiyyətdən uzaqlaşdırılması bizə belə nəticə çıxarmağa imkan verir ki, ........................*
- *Sultan III Səlimin yeni ordu quruculuğuna qarşı müqavimətini belə dəyərləndirmək olar ki, ....................*

Cümlələri tamamlamaq üçün bir neçə şagirdə müraciət edin. Hər şagirdə fikrini ifadə etmək üçün verilən vaxt əvvəlcədən elan edilir. Bu dərs prosesində vaxt itkisinin qarşısını alacaqdır.

Əslində, dərsin bu mərhələsində məlumatın mübadiləsi və müzakirəsi mərhələsi yekunlaşmış olur. Şagirdlərin çıxışları bitəndən sonra müəllim öz fikirlərini bildirməlidir. Bu zaman müəllim şagirdlərdən əlavə fikirlər almaqla yanaşı, şagirdlərin fikirlərini də yekunlaşdıra bilər

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Şagirdlər onlara verilən tapşırıqları yerinə yetridikdən sonra tədqiqat sualına cavab tapmaq, təlim məqsədinin reallaşdırılmasını təmin etmək üçün aşağıdakı suallarla onlara müraciət edilir:

- *"Yunan layihəsi"ndə nəzərdə tutulan məsələləri necə təhlil etmək olar?*
- *Sizcə, Sultan III Səlimin islahatlarının Osmanlı imperiyasının sonrakı inkişafına təsiri oldumu? Fikrinizi əsaslandırın.*
- *Sizcə, nə üçün Sultan III Səlimin islahatları uğursuzluqla nəticələndi?*
- *Sizcə, Avropa ölkələrində səfirliklərin açılmasının Osmanlı imperiyasının inkişafında hansısa rolu olubmu?*
- *Osmanlı dövlətinin dağılma dövrünü səsləndirən səbəblər hansılardır?*

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə "XVII–XVIII yüzilliklərdə Osmanlı imperiyasında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritəyə köçürmək" tapşırığı verilir. Metodik vəsaitin sonunda verilmiş kontur xəritələrdən istifadə etmək olar.

**Ev tapşırığı.** Kiçik Qaynarca və Yassı müqavilələrinə aid cədvəl qurun.

**Qiymətləndirmə meyarları:** izahetmə, kontur xəritələrə köçürmə.

Formativ qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə dərsin bu mərhələsində o, müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğu şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilər. Qiymətləndirmə zamanı şagirdlər yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirilməlidir.

Refleksiya üçün aşağıdakı suallardan istifadə etməklə dərsi yekunlaşdırmaq olar:

- *Dərsdə hansı yeniliyi öyrəndiniz?*
- *Sizin üçün dərsin ən önəmli nəticəsi nə oldu?*
- *Dərs əsnasında qarşıya qoyulan hədəfə çatdınızmı?*
- *Sizə nə aydın olmadı?*
- *Hansı suallarınız var? və s.*

4

# OSMANLI İMPERİYASI

*IV saat*

Durğunluq dövrü, Köprülü Mehmet paşa, geriləmə dövrü, “Lalə dövrü”, “Yunan layihəsi”, Yassı sülhü, III Səlimin islahatları

**Standartlar:**
1.1.2. Oxşar proses və hadisələri əlaqələndirən sinxron cədvəllər tərtib edir.
3.1.2. Yeni tipli dövlətlərin qeyri-bərabər inkişafına aid esse yazır.

**Təlim məqsədləri:**
1. Osmanlı tarixində baş verən oxşar proses və hadisələri əlaqələndirən sinxron cədvəllər tərtib edir.
2. Osmanlı dövlətinin qeyri-bərabər inkişafına aid esse yazır.

**Təlim formaları:** böyük və kiçik qruplarla iş

**Təlim üsulları:** cədvəlin qurulması, yazı

**Dərsin gedişi**
**Tədqiqat sualı:** XVII–XVIII əsrlərdə inkişaf etmiş ölkələrə nisbətdə Osmanlı dövlətinin qeyri-bərabər inkişafı necə baş verdi?

**Tədqiqatın aparılması.** Tədqiqatın kiçik qruplarla iş formasından və *cədvəl qurulması* üsulundan istifadə edilməklə aparılması məqsədəmüvafiqdir. Adından göründüyü kimi, bu üsuldan istifadə zamanı şagirdlər öyrəndikləri mövzunun mətninə əsasən cədvəl qurmalıdırlar. Qruplara tədqiqat üçün aşağıdakı tapşırıqları vermək olar.

**I qrup**
Kiçik Qaynarca, Yassı sülhü və bu sülhlərlə nəticələnən hadisələrin sinxron cədvəlini tərtib edin.

**II qrup**
Osmanlı imperiyasının XVII və XVIII əsrlərdə apardığı müharibələrinə dair sinxron cədvəl tərtib edin.

**III qrup**
I Mahmudun və III Səlimin ordu islahatına dair sinxron cədvəl tərtib edin.

**IV qrup**
Sultan III Əhmədin və Sultan III Səlimin hakimiyyətdən kənarlaşdırılmasına dair sinxron cədvəl tərtib edin.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qruplarla iş üçün ayrılmış vaxt bitdikdən sonra hər bir qrup təqdimat üçün öz nümayəndəsini seçir. Qruplar iş vərəqlərini lövhədən asır və təqdimatlarını həyata keçirirlər. Şagirdlər təqdimatlar əsasında müxtəlif ya-

naşmalar, nəticələr və məlumatlarla tanış olurlar. Suallar verilir. Fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi istiqamətə yönəldilir və yeni biliklər sistemləşdirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət etmək olar:

- Sizcə, Sultan III Əhmədin hakimiyyətdən kənarlaşdırılmasında kimlər maraqlı idilər?
- Sizcə, III Səlimin hakimiyyətdən kənarlaşdırılması kimlərin maraqlarına xidmət edə bilərdi?
- Sultan I Mahmudun ordu islahatının xeyri oldumu? Fikrinizi əsaslandırın.
- Osmanlı imperiyasının XVII-XVIII əsrlərdə apardığı müharibələri bir sözlə necə dəyərləndirmək olar? Fikrinizi əsaslandırın.

**Yaradıcı tətbiqetmə.** Yaradıcı tətbiqetmə kimi sinfə aşağıdakı başlıqlar altında esse yazmaq tapşırığı verilir:

- "İqtisadi cəhətdən zəif ölkə"
- "Hərbi cəhətdən zəif ölkə"

Esse yazmaq üçün şagirdlərə müəyyən vaxt vermək və bunu onlara elan etmək məqsədəmüvafiqdir. Verilmiş vaxt bitdikdən sonra şagirdlərdən esseləri yoxlamaq üçün yığmaq, nəticələrini növbəti dərsdə elan etmək olar.

**Qiymətləndirmə meyarları:** Sinxron cədvəllər tərtib etmə, esse yazma.

Mövcud dərsin qiymətləndirməsi yuxarıdakı meyarlara nəzərən dərs izləməsi nəticəsində həyata keçirilməlidir. Əvvəlcədən qiymətləndirilməsi nəzərdə tutulmuş şagirdləri dərsin sonunda müəyyənləşdirilən səviyyələr üzrə qiymətləndirmək mümkündür.




5

*I saat*

# VOLQABOYU VƏ URAL, SİBİR, MƏRKƏZİ ASİYANIN TÜRK XALQLARI

Kuçum xan, juz, xristianlaşdırılma, Mərkəzi Asiyanın türk xanlıqları

***Qeyd:*** Mövcud dərsin tədrisinə iki saat ayrılmışdır. Bu paraqraf dərsliyin 42-51-ci səhifələrini əhatə edir. Dərslik müəllifi olaraq biz bu paraqrafı tədris saatına uyğun olaraq aşağıdakı qaydada bölmüşük:

– Birinci dərs səhifə 42-dən başlayaraq səhifə 45-dəki "Sibir türkləri çar Rusiyasının zülmü altında" yarımbaşlığınadək olan məlumatları əhatə edir
– İkinci dərs saatı 45-51-ci səhifələrdəki məlumatları əhatə edir (bura istər şəkil, illüstrasiya, istərsə də xəritələr daxildir).

Onu da bildirək ki, bu bölgü mütləq deyil. Bu bölgünü siz dərs deyən müəllim kimi təlim strategiyanıza, sinifdəki şagirdlərin bacarığına uyğun olaraq dəyişə və yeni bölgü forması yarada bilərsiniz.

**Standartlar:**

1.1.1. Oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətlərini izah edir.

1.1.3. Hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir.

**Təlim məqsədləri:**

1. Volqaboyo və Ural xalqlarının Rusiya tərəfindən işğalının baş verdiyi zamandan irəli gələn fərqli cəhətlərini izah edir.
2. Volqaboyo və Ural xalqlarının Rusiya tərəfindən işğalı və zülmü arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir.

**Təlim forması:** Kollektiv, fərdi

**Təlim üsulları:** Beyin həmləsi, mikrofon, cədvəl qurmaq.

**Dərsin mərhələləri:**

**Motivasiya:** Şagirdləri mövcud dərsə motivə etmək üçn açar sözlərdən istifadə edə bilərsiniz. Açar sözlər kimi – qazax, tatar, qırğız, xakas, yakut, altaylı, özbək, türkmən və s. sözləri lövhədə yazandan sonra şagirdlərə aşağıdakı sualları ünvanlaya bilərsiniz.

– Bu açar sözlər sizə nə deyir?
– Səslənən açar sözləri birləşdirən ümumi cəhət nədir?

– Bu xalqlar haqda nəsə bilirsinizmi?

Verdiyiniz suallara aldığınız cavabları ümumiləşdirdikdən sonra tədqiqat sualını elan edin.

**Tədqiqat sualı:** XVI-XVII yüzillikdə Volqaboyo və Ural xalqlarında inkişaf necə baş verdi?

**Tədqiqatın aparılması:** Tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün "mikrofon" üsulundan istifadə etmək məqsədəmüvafiq olardı. Bunun üçün şagirdlərə materialla tanışlıq üçün vaxt verin. Sonra onlara bu dərs üsulunun qaydalarını qısaca xatırladın:
– Uşaqlar sizə bir sual verərəm. Kim ki bu haqda 0.5-1 dəqiqə danışa bilərsə əlini qaldırsın və mən də "mikrofonu" ona verim. Onlara şərti mikrofon kimi təsəvvür edilən hansısa əşyanı (qələm, karandaş və s.) təklif edin. Şagirdlərə aşağıdakı sual və tapşırıqları vermək məqədəmüvafiq olardı.

- XVI yüzillini II yarısında Qazan və Həştərxan xanlıqlarının işğalının izahını verin.
- XVI yüzilliyin sonlarında Rusiyanın Volqaboyu və Ural türklərinə qarşı təzyiqini hədə görürsünüz?
- Rusiyanın "parçala və hökm sür" siyasətini izah edin.
- XVII yüzilliyin əvvəllərində xristianlığı qəbul etmiş türklərin Rusiyaya etdikləri köməyi şərh edin.
- XVII yüzilliyin əvvəllərində Volqaboyu və Ural türklərinin narazılığının səbəblərini izah edin.
- XVII yüzilliyin 80-ci illərində Volqaboyu və Uralın müsəlman-türk əhalisinin üsyana başlama səbəblərini izah edin.
- I Pyotrun dövründə Volqaboyu və Uralın müsəlman-türk xalqlarının istismarını çərh edin.
- I Pyotrun dövründə Volqaboyu və Uralın müsəlman-türk xalqlarının üsyanını qiymətləndirin.
- XVIII yüzilliyin II yarısında Volqaboyu və Ural türklərinin durumunu izah edin.

Səsələnən ilk suala hazır olanlardan birinə ilk sözü – mikrofonu verin. Dərs prosesində mikrofonun bir şagirddən növbə ilə digər şagirdə keçməsinə nəzarət edin. Yalnız şərti mikrofonu alana söz verin. Dərsin bu mərhələsində cavabları şərh etməyin və şagirdləri qiymətləndirməyin. Çünki bunun özü şagirdlərdə səhv etmək, səh danışmaq qorxusunu yarada bilər ki, bu da dərsdə şagird fəallığını aşağı sala bilər.

Qarşıya qoyduğunuz məqsədə çatmaqdan ötrü şagirdlərə aşağıdakı cədvəlin doldurulmasını təklif edin.

| | Tarix | Ərazi (xalq) | Səbəb | Nəticə | Məzmun |
|---|---|---|---|---|---|
| İşğal | | | | | |
| İstismar | | | | | |
| Üsyan | | | | | |

**Məlumatın müadiləsi və müzakirəsi:** Şagirdlərin cavabları diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Səhv nəticələrin səbəbləri araşdırılır, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir. Müzakirələr zamanı bütün sinif şagirdlərinin fəallığının təmin olunması sizdən asılı olacaqdır. Şagirdlərin müzakirələrdə fəal iştirakı sizə nəticələrin alınmasında yardımçı olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsin bu mərhələsində siz şagirdlərə verdiyiniz yönləndirici suallar vasitəsi ilə ümumiləşdirmə apara bilərsiniz. Bu da öz növbəsində sizə tədqiqat sualınıza cavab tapmağa kömək etmiş olar. Bununla belə tədqiqat sualının tam cavabını almaqdan ötrü sizə aşağıdakı suallar da yardımçı ola bilər.

- Rusiyanın Volqaboyu və Ural türklərinə qarşı müstəmləkəçilik siyasəti yürütməsini harda görmək olur?
- Rusiyanın Volqaboyu və Ural türklərinə qarşı apardığı müstəmləkəçilik siyasətinin mahiyyəti nədən ibarət idi?
- Rusiyada çar seçimində türk əsilli əyanların iştirakı nəyi sübut edir?
- Volqaboyu və Uralda rus müstəmləkəçiliyi əleyhinə tez-tez üsyanların baş verməsi nəyi göstərir?

**Qiymətləndirmə meyarları:** İzah etmə, xronoloji cədvəllər tərtib etmə.

Dərsin yekunu kimi formativ qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə bu mərhələ zamanı siz müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğunuz şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilərsiz. Qiymətləndirmə zamanı şagirdlərin yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirməli olduğunuzu da unutmamalısız.

Qiymətləndirmə kimi aşağıda verilmiş fərdi qiymətləndirmə vərəqindən də istifadə edə bilərsiniz.

Şagirdin adı soyadı

____________________

| Tapşırığı tam və düzgün yerinə yetirdim | Dərsdə diqqətli idim | Məntiqli yanaşmam var idi | Sual-cavabda aktiv idim | Əməkdaşlıq etdim | Etiket qaydalarına riayət etdim |
|---|---|---|---|---|---|
| | | | | | |



5

*II saat*

# VOLQABOYU VƏ URAL, SİBİR, MƏRKƏZİ ASİYANIN TÜRK XALQLARI

Kuçum xan, juz, xristianlaşdırılma, Mərkəzi Asiyanın türk xanlıqları

**Standart.**

3.1.1. Dövlətlərin (İngiltərə, Fransa, Rusiya, ABŞ, Osmanlı, İran, Çin, Hindistan, Mərkəzi Asiyanın türk dövlətləri, Qazaxıstan, Krım, Sibir, Volqaboyu, Qafqaz xalqları) yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil edir.

**Təlim məqsədi.**

Sibirdə və Mərkəzi Asiyada dövlətlərin yaranmasını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil edir.

**Təlim forması.** Böyük və kiçik qruplarla is

**Təlim üsulu.** Müzakirə

**Dərsin mərhələləri.**

**Tədqiqat sualı:** XVI-XVII yüzillikdə Sibir və Mərkəzi Asiya dövlətlərinin siyasi inkişafı necə getdi?

**Tədqiqatın aparılması:** Tədqiqat sualı elan olunandan sonra kiçik qruplarla iş formasında "müzakirə" təlim üsulundan istifadə etməklə dərsinizi qura bilərsiz. Qruplara tədqiqat üçün aşağıdakı sual və tapşırıqları və ya özünüzün məsləhət bildiyiniz tapşırıqları verə bilərsiz.

**I qrup.** Çar Rusiyasının zülmü altında Sibir türklərinin siyasi və sosial-iqtisadi vəziyyətini təhlil edin.

______________________________________________

______________________________________________

______________________________________________

**II qrup.** Buxara və Xivə xanlıqlarının siyasi və sosial-iqtisadi vəziyyətini təhlil edin.

______________________________________________

______________________________________________

______________________________________________

**III qrup.** Kokand xanlığının siyasi və sosial-iqtisadi vəziyyətini təhlil edin..

**IV qrup.** Qazax xanlığının siyasi və sosial-iqtisadi vəziyyətini təhlil edin.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Hazırlaşmaq üçün qruplara ayrılmış vaxt bitdikdən sonra hər biri öz təqdimatını edir. Bu zaman siz təqdimat ətrafında müzakirələrin aparılması üçün konkret vaxt ayırmağı yaddan çıxartmayın. Təqdimatlar edilərkən şagirdlərin yarımçıq işlədikləri tapşırıqların tamamlanması üçün digər qruplardan kömək istəyə bilərsiniz. Bu zaman şagirdləri lazımi məcraya yönəltmək üçün suallar vermək lazım gələcək. Müzakirələr zamanı şagirdlərin də yerdən suallar verməsini təmin etməyi yaddan çıxartmayın.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Ümumiləşdirmələr aparmaq və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə suallar verməlisiz. Verəcəyiniz sualları əvvəlcədən hazırlamağınız məqsədəmüvafiqdir. Şagirdlərə aşağıdakı suallarla müraciət edə bilərsiz.

- Cunqar zülmünə məruz qalan Jüzlərin Rusiyanın himayəsinə sığınmasına necə baxırsınız?
- Nadir şahın Mərkəzi Asiyaya hücumunun nəticələri nə oldu?
- Qazax xanlığının parçalanmasının səbəbləri nə idi?
- Qazax xanlığının parçalanmasının nəticəsi nə oldu?

**Ev tapşırığı:** Çar Rusiyasının XVI-XVIII yüzilliklərdə Volqaboyu və Ural, Sibir, Mərkəzi Asiyanın türk xalqlarına qarşı yürütdüyü siyasətin səbəb və nəticələrini cədvəl şəklində təqdim edin.

**Qiymətləndirmə meyarı:** Təhlil etmə.

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə bu mərhələ zamanı siz müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğunuz şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilərsiz. Bu zamanı yuxarıda verilmiş meyar nəzərə alınmaqla müəyyən etdiyiniz səviyyələr üzrə şagirdləri qiymətləndirə bilərsiz.

İstəyinizdən asılı olaraq şagirdlərə qrup qiymətləndirmə vərəqi verə bilərsiniz.

***Qeyd:*** cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmli ballardan istifadə edə bilərsiniz.

| Şagirdin adı, soyadı | Tapşırığa hazır olma | Başqaları dinləmə | Məsuliyyəti bölüşmə | Qrup yoldaşlarına kömək | Müzakirələrə qoşulma | Fikirlərini reallaşdırma | Fərqli fikirlərə hörmət etmə | Vəzifə almağa həvəsli olma | Zamandan məhsuldar istifadə etmə | Tapşırıqları yerinə yetirmə | Tapşırıqları təxirə salma | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |

**Şərhlər:**



# 6

*I saat*

# QAFQAZ

Şah I Abbas, rus işğalı, Sultan Mahmud, Nadir şah, Georgiyevsk müqaviləsi, Şeyx Mənsur, Ağa Məhəmməd şah Qacar

**Qeyd:** Mövcud paraqrafın tədrisinə iki saat ayrılmışdır. Bu paraqraf dərsliyin 52-63 – cü səhifələrini əhatə edir. Dərslik müəllifi olaraq biz bu paraqrafı tədris saatına uyğun olaraq aşağıdakı qaydada bölmüşük:

- Birinci dərs səhifə 52-dən başlayıb 59-cu səhifədəki "Şəhər bizim halva sizin" yarımımbaşlığına olan məlumatları əhatə edir. Təbii ki bu səhifələrdə yer alan xəritə, şəkil və illustrasiyalar, sual və tapşırıqları diqqətdən kənarda saxlamq düzgün olmazdır.
- İkinci dərs saatı 59-cu səhifədəki "Şəhər bizim halva sizin" yarımımbaşlığından paraqrafın sonunadək olan məlumatları əhatə edir.

Bu bölgü mütləq deyil. Bu bölgünü siz dəyişə və yeni bölgü forması yarada bilərsiniz.

**Alt standartlar:**

2.1.2. Dövlətlərin və xalqların həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür.

3.1.1. Dövlətlərin (İngiltərə, Fransa, Rusiya, ABŞ, Osmanlı, İran, Çin, Hindistan, Mərkəzi Asiyanın türk dövlətləri, Qazaxıstan, Krım, Sibir, Volqaboyu, Qafqaz xalqları) yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil edir.

**Təlim məqsədləri:**

1. Qafqazdada baş verən ərazi dəyişikliklərini məlumatlar əsasında kontur xəritələrə köçürür.
2. XVII-XVIII yüzilliklərdə Qafqazdakı siyasi, sosial-iqtisadi münasibətləri təhlil edir.

**Təlim forması:** Kollektiv, fərdi

**Təlim üsulu:** Beyin həmləsi, Karvan üsulu.

**Dərsin mərhələləri:**

**Motivasiya:** Mövcud dərsə motivasiya qurmaq üçün şagirdləri birinci paraqrafın 9-cu səhifəsində verilən məlumatı (1653-cü ildə Şirvan bəylərbəyi Xosrov xanın başçılıq etdiyi Səfəvi ordusu sayca özündən bir neçə dəfə çox olan rus-kazak dəstələrini darmadağın edərək, Moskva çarlarının Şimali Qafqazdakı Qarasu çayı boyunca inşa etdirdiyi

qalaları dağıtdı) şagirdlərə səsləndirib və onlara aşağıdakı suallarla müraciət edə bilərsiniz.

– Səslənən məlumatda sizə nə aydın oldu?
– Hadisələr harda cərəyan etdi?
– Qafqaz məkanına hansı ərazi daxildir?

Aldığınız cavabları ümumiləşdirib şagirdləri yeni dərsə kökləyib tədqiqat sualınızı elan edə bilərsiniz.

**Tədqiqat sualı:** XVII-XVIII yüzilliklərdə Qafqazdakı siyasi, sosial-iqtisadi münasibətlər necə inkişaf etdi?

**Tədqiqatın aparılması:** Tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün Karvan üsulundan istifadə etmək məqsədəmüvafiq olardı. Bu stansiyalarla iş üsuludur. Şagirdlər 4 qrupa ayrılırlar, 4 flipçartda hərəsində mövzu ilə bağlı bir sual qoyulur. Qruplar növbə ilə saat əqrəbi istiqamətində suallara ən azı 3 cavab yazırlar. Sonra növbə ilə digər qrupların cavablarını qiymətləndirərək öz cavablarını yazırlar. Hər cavabın qarşısında üç işarədən biri qoyulur: razıyam (✓), razı deyiləm(), başa düşmədim (?) işarəsi qoyulur. Qruplara fərqli qələmlər verilir: qırmızı, qara, göy, yaşıl və ya başqa rəng. Qruplarda olan üzvlərə iş tapşırıla bilər: vaxta nəzarət, yazan, təqdimatçı, nəzarətçi və s. Üsulun digər üsullardan ən üstün cəhəti ondan ibarətdir ki, heç kim boş qalmır, hamı müəyyən bir işlə məşğuldur.

**I Qrup:**

1. Suallara ən azı 3 cavab yazın.
2. Digər qrupların cavablarını qiymətləndirərək öz cavablarını yazın. Hər cavabın qarşısında üç işarədən biri qoyun: razıyam (✓), razı deyiləm(), başa düşmədim (?)

**Tapşırıq:** Qızılbaşlar irsi torpaqları necə azad etdilər?

______________________________________________________________________________
______________________________________________________________________________
______________

**II Qrup:**

1. Suallara ən azı 3 cavab yazın.
2. Digər qrupların cavablarını qiymətləndirərək öz cavablarını yazın. Hər cavabın qarşısında üç işarədən biri qoyun: razıyam (✓), razı deyiləm(), başa düşmədim (?)

**Tapşırıq:** Rusiyanın "İver torpaqlarına əl qoymaq" təşəbbüsünün uğursuzluğunu təhlil edin.

______________________________________________________________________________
______________________________________________________________________________
______________

**III Qrup:**

1. Suallara ən azı 3 cavab yazın.

2. Digər qrupların cavablarını qiymətləndirərək öz cavablarını yazın. Hər cavabın qarşısında üç işarədən biri qoyun: razıyam (✓), razı deyiləm(), başa düşmədim (?)

**Tapşırıq:** "Karvanbasan quldurların" cəzalandırılmasını təhlil edin.

______________________________________________________________________________

______________________________________________________________________________

__________

**IV Qrup:**

1. Suallara ən azı 3 cavab yazın.
2. Digər qrupların cavablarını qiymətləndirərək öz cavablarını yazın. Hər cavabın qarşısında üç işarədən biri qoyun: razıyam (✓), razı deyiləm(), başa düşmədim (?)

**Tapşırıq:** I Pyotrun yalançı vədləri niyə boşa çıxdı?

______________________________________________________________________________

______________________________________________________________________________

____________________________________

**Məlumatın müadiləsi və müzakirəsi:** Tədqiqatın aparılması bitəndən sonra müzakirəni keçirin. Bu zaman şagirdlərin qoyduqları işarələrin mənası açılır. Hər qrup işini müdafiə edir. Tədqiqatın gedişində şagirdlər əldə etdikləri məlumatları, yeni informasiyanın mübadiləsini aparırlar. Qoyulmuş suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir - birinin təqdimatını fəal dinləməyə sövq edir. Taqdimat bir növ yeni biliklərin dairəsini cızır və hələlik bu biliklər natamam və xaotik xarakter daşıyır. Yeni bir tələbat-həmin bilikləri qaydaya salmaq, sistemləşdirmək, müəyyə bir nəticəyə gəlmək üçün tədqiqat sualına cavab tapmaq zərurəti yaranır. Bütün bilik, bacarıq və vərdişlərin, təfəkkürün müxtəlif növlərinin (məntiq tənqidi, yaradıcı) səfərbərliyini tələb edir. Siz fasilitasiya əsasında (yönəldici, köməkçi suallardan istifada etməklə) əldə edilmiş faktların məqsədyönlü müzakirəsinə və onların təşkilinə kömək etməlisiniz.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Bu mərhələdə şagirdlər yeni bilginin kəşfi yolunda son addımı ataraq konkret nəticəyə gəlir və ümumiləşdirmələr aparırlar. Şagirdlər nəinki əldə olunan bilgiləri ümumiləşdirməli, həm də gəldiyi nəticəni tədqiqat sualı ilə və irəli sürülmüş fərziyyələrlə müstəqil olaraq tutuşdurmalıdır. Dərsin kulminasiyasını isə bilgiləri məhz özləri kəşf etdikləri üçün şagirdlərin duyduqları bənzərsiz sevinc və məmnuniyyət hissi təşkil edir. Bu proses zamanı siz dərsi yekunlaşdırmaq üçün aşağıdakı suallarla şagirdlərə müraciət edə bilərsiniz.

- Səfəvilər dövlətinin şimal-qərb sərhədlərinin möhkəmləndirilməsi üçün gördükləri tədbirlər hansılar idi?
- XVII yüzilliyin əvvəllərində rusların Qafqaza hücum etməsinə hansı amillər səbəb olmuşdu?
- I Pyotrun Xəzəryanı ərazilərə xüsusi diqqət yetirməsinin səbəbi nə idi?
- Nə üçün Qafqazla bağlı Rusiya və Osmanlı dövlətləri arasındakı razılaşma ədalətli deyildi?

– Rusiyanın VI Vaxtanqa qarşı münasibəti nəyi sübut edir?

**Yaradıcı tətbiq etmə:** Bu zaman şagirdlərə Qafqazdada baş verən ərazi dəyişikliklərini məlumatlar əsasında kontur xəritələrə köçürmək tapşırığını verin. Bunun üçün Metodik Vəsaitin sonunda verilmiş kontur xəritələrdən istifadə edə bilərsiniz.

**Qiymətləndirmə meyarları:** Kontur xəritələrə köçürmə, təhlil etmə.

Yuxarıdakı meyarlara uyğun olaraq şagirdləri səviyyələr üzrə qiymətləndirməli olduğunuzu unutmayın. Dərs prosesində kiçik qruplarla işə yer ayırdığınızdan dərsin sonunda şagirdlərə aşağıdakı formada özünüqiymətləndirmə vərəqi verə bilərsiniz.

Tarix ______________
Şagirdin adı soyadı ________________________________
Təqdimatın adı ________________________________________________
1-dən 5-dək ballar verin.

| | |
|---|---|
| Qrup üzvlərinin hazırlığı və təşkili qənaətbəxş idi. | |
| Qrupun hər bir üzvünün öz konkret mövzusu var idi. | |
| Hamı əlbir və ahəngdar işləyirdi. | |
| Qrup bütün sinfi fəal olmağa sövq edirdi. | |
| Qrupun hər bir üzvü səbirli idi və öz yoldaşlarına kömək edirdi. | |
| Qrup təqdimat üçün bir neçə üsuldan istifadə etmişdi. | |


I Pyotr Dərbənd qapıları önündə

Bu döyüşçülərə Qumuq şamxalı başçılıq edirdi. Çoxsaylı ordu və güclü artilleriyadan istifadə edən rus qoşunları dinc əhaliyə divan tutaraq bir çox yaşayış məskənlərini yandırdılar. Böyük itkilər hesabına da olsa, rus ordusu Dərbəndi tuta bildi.

Güclü tufan rus ordusunun ərzaq dolu gəmilərini batırdığından I Pyotr Dərbənddə hərbi qarnizon saxlayaraq Həştərxana qayıtdı.

Xəzərin qərb sahillərinin çar Rusiyası tərəfindən işğalı Osmanlı sarayında narazılıqla qarşılandı. Fransanın vasitəçiliyi ilə Rusiya ilə Osmanlı arasında sülh müqaviləsi imzalandı. Xəzərin qərb və cənub sahilləri boyu əraziləri əlində saxlaya bilən Rusiya Səfəvilərin Qafqazdakı digər ərazilərinin Osmanlının nüfuz dairəsinə daxil olmasını qəbul etdi.

**Nə üçün Qafqazla bağlı Rusiya və Osmanlı dövlətləri arasındakı razılaşma ədalətli deyildi?**

Səfəvilərə xəyanət etdiyinə görə Osmanlı tərəfindən yaxşı qarşılanmayan keçmiş Tiflis valisi VI Vaxtanq Rusiyaya qaçdı.

Peterburqda onu çox soyuq qarşıladılar. I Pyotr VI Vaxtanqı qəbul etmək belə istəmədi.

**Gürcü tarixçisinin yazdığı kimi, "Rus imperatorunun şərq xristianlarına vəd etdiyi himayəçilik gürcülər üçün yaxşı nəticələnmədi. Öz maraqları naminə gürcüləri müharibəyə cəlb edən I Pyotr onları taleyin hökmünə buraxıb aldatdığı bədbəxt VI Vaxtanqa yanında sığınacaq belə vermədi".**

58

VI Vaxtanq

**Rusiyanın VI Vaxtanqa qarşı münasibəti nəyi sübut edir?**

Rusiyanın əlinə keçmiş Xəzərsahili ərazilərdə işğal rejimi yaradıldı.

**"Şəhər bizim, halva sizin".** XVIII yüzilliyin 20-ci illərinin II yarısından başlayaraq Nadir xan Əfşarın sərkərdəlik fəaliyyəti nəticəsində Səfəvi torpaqlarının azad olunmasına başlanıldı.

Nadir şah yürüşdə

1732-ci ildə Səfəvilərlə Rusiya arasında imzalanmış Rəşt razılaşmasına görə rus qoşunları Xəzər dənizinin cənub sahillərindən və Kür çayına qədərki Xəzərsahili torpaqlardan çıxarıldı. İrəvan, Tiflis və Şirvanı osmanlılardan geri alan Nadir xan Əfşar 1735-ci ildə Gəncədə Rusiya ilə yeni müqavilə imzaladı. Müqaviləyə əsasən 1722-ci ilə qədərki Səfəvi-Rusiya sərhədi bərpa olundu. Nadir xan Əfşar azad etdiyi hər bir şəhərə daxil olduqdan sonra halva çaldırır və onu ehsan kimi şəhər əhalisinə payladırdı. Bu zaman Nadir xan Əfşar şəhər əhalisinə "şəhər bizim, halva sizin" sözləri ilə müraciət edirdi.

1736-cı ildə Muğan qurultayında şah elan edilən Nadir ruslardan azad edilmiş Şimali Qafqazdakı ərazilərdə də qızılbaş qarnizonları yerləşdirdi. Terek çayı qızılbaşlarla ruslar

59

# 6

*II saat*

# QAFQAZ

Şah I Abbas, rus işğalı, Sultan Mahmud, Nadir şah, Georgiyevsk müqaviləsi, Şeyx Mənsur, Ağa Məhəmməd şah Qacar

**Standart.**

1.1.3. Hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir.

**Təlim məqsədi:**

XVIII yüzillikdə Qafqazda baş verən hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir.

**Təlim formaları:** Böyük və kiçik qruplarla iş

**Təlim üsulları:** Mətnə əsasən cədvəlin doldurulması

**Dərsin gedişi**

**Tədqiqat sualı:** XVIII yüzillikdə Qafqazda siyasi proseslər necə baş verdi?

**Tədqiqatın aparılması.** Tədqiqatın kiçik qruplarla iş formasından və mətnə əsasən cədvəlin doldurulması üsulundan istifadə edilməklə qurulması məqsədəmüvafiqdir. Quracaöınız cədvəllər mətnin əsas ideyasını aşkar etməyə imkan verər. Mətnlə işləyən zaman bir neçə növ cədvəldən istifadə oluna bilər: sadalanan obyektlərin, anlayışların, təriflərin cədvəlin müvafiq sütunlarına yerləşdirilməsi, müqayisə olunan obyektlərdə (qruplarda) müəyyən əlamətlərin olub olmaması, göstərilən alqoritmlə qismən doldurulmuş cədvəli bitirmək və s. Bu və ya digər proseslər haqqında məlumatlar olan mətnlə işlədikdə işin gedişi boyunca "Nə? Harada? Nə zaman? Hansı səbəbdən?" cədvəlini doldurmaq olar

Adından göründüyü kimi, bu üsuldan istifadə zamanı şagirdlər onlara təqdim edilən mətnə əsasən cədvəli tamamlamalıdırlar. Dərsin daha maraqlı alınması və cədvəl üzərində işin daha əhatəli və "canlı" olması üçün eyni cədvəlin iki müxtəlif qrupa verilməsi təklif olunur. Bu həm də eyni hadisəyə fərqli yanaşmanı və müzakirənin daha maraqlı aparılmasını təmin edər. Qruplara tədqiqat üçün aşağıdakı tapşırıqları vermək olar:

**I qrup.**

1. Mətnə əsasən cədvəli doldurun.
2. Cədvəli doldurarkən xronoloji ardıcıllığı nəzərə alın.

| Sülh müqavilələri | | |
|---|---|---|
| Adı | | |
| Tarixi | | |
| İmzaladığı dövlətlər | | |
| Şərti | | |

**II qrup.**
1. Mətnə əsasən XVIII yüzillin I yarısına aid cədvəli doldurun.
2. Cədvəli doldurarkən xronoloji ardıcıllığı nəzərə alın.

| Nə? | Harada? | Nə zaman? | Hansı səbəbdən? |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |

**III qrup.**
1. Mətnə əsasən XVIII yüzillin 80 –ci illərinə aid cədvəli doldurun.
2. Cədvəli doldurarkən xronoloji ardıcıllığı nəzərə alın.

| Nə? | Harada? | Nə zaman? | Hansı səbəbdən? |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |

**IV qrup.**
1. Mətnə əsasən XVIII yüzillin 90 –cı illərinə aid cədvəli doldurun.
2. Cədvəli doldurarkən xronoloji ardıcıllığı nəzərə alın.

| Nə? | Harada? | Nə zaman? | Hansı səbəbdən? |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qruplarla iş üçün ayrılmış vaxt bitdikdən sonra hər bir qrup təqdimat üçün nümayəndəsini seçir. Qruplar iş vərəqlərini lövhədən asır və təqdimatlarını həyata keçirirlər. Şagirdlər təqdimatlar əsasında müxtəlif yanaşmalarla, nəticələrlə, məlumatlarla tanış olurlar. Suallar verilir. Fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi istiqamətə yönəldilir və yeni biliklər sistemləşdirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət etmək olar:

– XVIII yüzillikdə Osmanlı və Rusiya dövlətlərinin Qafqaz uğrunda mübarizəsi nə ilə nəticələndi?
– Georgiyevsk müqaviləsi Cənubi Qafqaz xalqlarının taleyinə necə təsir göstərdi?
– Alda və Kuban çayı sahilindəki döyüşlərin nə ilə müqayisə etmək olar?
– Ağa Məhəmməd şah Qacarın hakimiyyətə gəlməsi Qafqazdakı siyasi vəziyyətə necə təsir etdi?

**Yaradıcı tətbiqetmə.** Öyrənilən dövrdə Qafqaz çoxsaylı hücumlara məruz qaldığından şagirdlərə "Xarici müdaxiləçilərə qarşı mübarizə" başçılığı altında afişa yaradılması tapşırığı verilə bilər.

**Ev tapşırığı.** Şah I Abbasla Nadir xan Əfşarın oxşar və fərqli cəhətlərinə aid cədvəl qurun.

**Qiymətləndirmə meyarları:** Xronoloji cədvəllər tərtib etmə.

Mövcud dərsin qiymətləndirməsi yuxarıdakı meyara nəzərən dərs izləməsi nəticəsində həyata keçirilməlidir. Əvvəlcədən qiymətləndirilməsi nəzərdə tutulmuş şagirdləri dərsin sonunda yuxarıda verilmiş meyar nəzərə alınmaqla müəyyənləşdirdiyiniz səviyyələr üzrə qiymətləndirə bilərsiniz.

Vaxtınız olacağı təqdirdə şagirdlərə aşağıdakı formada qrup qiymətləndirmə vərəqi verə bilərsiniz.

**Qrupun adı:** ______________

**Təlimat:** Aşağıdakı meyarlara hansı səviyyədə əməl olunduğunu nəzərə alaraq qrupu qiymətləndirin.

| MEYARLAR | SƏVİYYƏLƏR | | | | |
|---|---|---|---|---|---|
| | Heç vaxt | Nadir hallarda | Bəzən | Tez-tez | Həmişə |
| Qrup üzvlərinin hər biri tapşırıqlarda iştirak edir? | | | | | |
| Qrup üzvləri bir-birlərinin fikir və fəaliyyətinə hörmət edir. | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| Qarşılıqlı şəkildə müzakirələr aparırlarmı? | | | | | |
| Qrup üzvləri qərarlarını bir-biri ilə bölüşür. | | | | | |
| Qrup üzvləri iş bölgüsünə əməl edirlər. | | | | | |
| Qrup üzvləri bir-birlərinə ehtimad göstərirlər. | | | | | |
| Qrup üzvləri bir-birlərini cəsarətləndirir. | | | | | |
| Nəticələrin qrup üzvləri tərəfindən növbəli və ədalətli şəkildə təqdim olunmasına diqqət edirlər? | | | | | |

**Şərhlər:**

______________________________________________

______________________________________________




7

*I saat*

# MƏDƏNİYYƏT

Mədrəsə, kitabxana, İskəndər bəy Münşi, Evliya Çələbi, mətbəə, Məhtimqulu, Tac Mahal

***Qeyd:*** "Mədəniyyət" mövzusunun tədrisinə iki saat ayrılmışdır. Bu paraqraf dərsliyin 64-75-ci səhifələrini əhatə edir. Hər tədris saatına uyğun olaraq bölgünü aşağıdakı qaydada həyata keşirtmək məqsədəmüvafiq olardı:

- Birinci dərs səhifə 64-dan başlayaraq 69-cı səhifədə yerləşən "memarlıq və incəsənət" yarımbaşlığınadək olan məlumatları əhatə edir.
- Paraqrafın 69–75-ci səhifələrində yerləşən "memarlıq və incəsənət" yarımbaşlığı ikinci dərs saatın tədrisi üçün nəzərdə tutulmuşdur. Təbii ki bu səhifələrdə yer alan şəkil, illüstrasiya, QR kod və "Marqlıdır" başlıqlı məlumatları diqqətdən kənar saxlamaq olmaz.

Müəllim olaraq bu bölgünün dəyişilməsində və yeni bölgü forması yaratmaq sahəsində siz tam müstəqilsiz.

**Alt standartlar:**

5.1.1. Şərq və Qərbdə intibah mədəniyyətinin xüsusiyyətlərini izah edir.
5.1.2. Elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edir.
5.1.3. Dünya mədəniyyətinin nailiyyətlərinə dair cədvəl və qrafiklər hazırlayır.

**Təlim məqsədləri:**

1. Şərq mədəniyyətinin xüsusiyyətlərini izah edir.
2. Şərqdə elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edir.
3. Şərq mədəniyyətinin nailiyyətlərinə dair cədvəl hazırlayır.

**Təlim forması:** Böyük  və kiçik qruplarla iş

**Təlim üsulu:** Klaster, "iki həqiqət və bir yalan"

**Dərsin mərhələləri.**

**Motivasiya:** Motivasiyanın düzgün qoyuluşu şagirdin dərsə marağının artmasına gətirib şıxarar. Bu maraq, ilk növbədə, dərs prosesində formalaşmalıdır. Ona görə də müəllimin üzərinə müəyyən yük düşür. Bunu nəzərə alaraq mövzu ilə bağlı motivasiya qurmağın bir neçə üsulunu təklif edirik:

**Motivasiya qurmağın birinci yolu**: "Klaster" üsulundan istifadə etməklə şagirdləri dərsə motivə edə bilərsiniz. Bunun üçün sizə açar sözlərdən olan " mədrəsə, kitabxana və ya mətbəə" sözlərinin hər hansı birindən istifadə etməyi təklif edərdik. Məsələn lövhədə "mədrəsə" sözünü yazıb şagirdlərdən bu sözə yaxın sözləri istəyə bilərsiniz. Sonda əldə edilən fikirləri (sözləri) ümumiləşdirib tədqiqat sualını elan edə yeni dərsə keçid edə bilərsiniz.

**İkinci yol:** Anlayışın çıxarılması üsulundan istifadə edərək şagirdləri dərsə maraqlandıra bilərsiniz. Bunun üçün lövhədə aşağıdakı formada dairələr cızmalısınız. Bunun ardınca açar sözləri səsləndirib şagirdlərə aşağıdakı sualla müraciət edin:

– Gördüyünüz bu ifadələri birləşdirən ümumi cəhət nədir? Yəni bu sənət sahələri nəyin tərkib hissəsidir?

Səsləndirdiyiniz izahlar bitdikdən sonra mərkəzdəki sualın cavabını şagirdlərin köməyi ilə elan edin.

*Nümunə:*




**Tədqiqat sualı:** Şərq mədəniyyəti dünya mədəniyyətinin inkişafına necə təsir etdi?

**Tədqiqatın aparılması:** Tədqiqatın aparılmasını kiçik qruplarla iş formasında "iki həqiqət və bir yalan" üsulu ilə həyata keçrilməsini tövsiyyə edərdik. Çox sadə və yarışmanı xatırladan bu dərs metodu şagirdləri həddən artıq dərsə maraqlandıracaqdır. Sinfi kiçik qruplaraböləndən sonra hər qrupa bir mövzu verib onlara növbəti tapşırığı verin:

– Bu mövzu haqqında üç fikir yazın.
– Yazdığınız bu üç fikirdən ikisi doğru, biri isə yalan olmalıdır. Bu zaman yalan doğruya bənzəməli, doğru fikirlər isə bir qədər qəribə görünməlidir.

– Yazdığınız fikirlər kitab cümləsi olmasın.

Təlim üsuluna uyğun olaraq qruplara aşağıdakı tapşırıqları verə bilərsiniz.

**I qrup.**
Təhsil haqqında fikirlərinizi yazın:
1. ____________________
2. ____________________
3. ____________________

**II qrup.**
Ədəbiyyat haqqında fikirlərinizi yazın:
1. ____________________
2. ____________________
3. ____________________

**III qrup.**
Mətbəə, "krallıq cəmiyyəti", tibb elmi haqqında fikirlərinizi yazın:
1. ____________________
2. ____________________
3. ____________________

**IV qrup.**
Elm xadimləri və onların nailiyyətləri haqqında fikirlərinizi yazın:
1. ____________________
2. ____________________
3. ____________________

**Məlumatın mübadiləsi və müzakirəsi:** Qruplara hazırlaşmaq üçün ayrılmış vaxt bitdikdən sonra hər bir qrup təqdimatını edir. Hər qrup təqdim edilən bu üç fikirlərdən hansının səhv olduğunu təxmin etməlidir. Müzakirələr zamanı özünüzün də dərsin məqsədinə söykənəcək üç fikir söyləməyiniz (təbii ki ikisi doğru, biri yalan) məqsədəmüvafiq olardı. Bu həm sizin qarşınıza qoyduğunuz məqsədə çatmağa, həm də şagirdlərə dərs üsulunun tələblərinə uyğun olaraq doğru və yanlış fikirlərin necə formalaşdırılmalı olduğunu nümunə əsasında göstərmiş olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Qrup təqdimatları ilə dərsin məlumatın mübadiləsi və müzakirəsi bitdikdən sonra siz dərsi yekunlaşdırmaq üçün şagirdlərə aşağıdakı suallara müraciət edə bilərsiniz.

– Sizcə Şeyx Səfi kitabxanasının tanınmasının əsas səbəbləri hansılar idi?
– Sizcə E.Çələbinin Təbriz şəhərinə xüsusi diqqət ayırmasının səbəbi nədir?
– Mətbəələrin yaradılması elmi biliklərin yayılmasına necə təsir göstərdi?
– "Benqal-Asiya cəmiyyəti"nin açılmasının əhəmiyyətini necə izah edərdiniz?
– Sizcə dünya mədəniyyətinin inkişafında şairlərin rolu nədən ibarət olmuşdur?
– Sadə xalq dilində əsərlərin yazılmasının tarixi əhəmiyyətini necə izah edərdiniz?
– Dövrün elm xadimlərindən hansını daha məhşur hesab edirsiniz? Fikrinizi əsaslandırın.

**Yaradıcı tətbiqetmə:** Şimali Qafqaz vəVolqaboyu türklərinin təhsil sistemini müqayisə edin.

| Şimali Qafqaz | | Volqaboyu |
|---|---|---|
| Fərqli | Oxşar | Fərqli |
| | | |

Qiymətləndirmə meyarları: Xüsusiyyətlərini izah etmə, təsirini izah edir etmə, cədvəl hazırlama.

Dərs izləməsi nəticəsində şagirdlərin qiymətləndirilməsini həyata keçirin. Dərsin bu mərhələsində siz müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğunuz şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə və əvvəlcədən müəyyən etdiyiniz səviyyələr üzrə qiymətləndirə bilərsiniz.

Qrup işini qiymətləndirmək üçün sonda şagirdlərə aşağıdakı formada qrup qiymətləndirmə vərəqi verə bilərsiniz.

**Qrupun adı:** ______________

**Təlimat:** Aşağıdakı meyarlara hansı səviyyədə əməl olunduğunu nəzərə alaraq qrupu qiymətləndirin.

| MEYARLAR | SƏVİYYƏLƏR | | | | |
|---|---|---|---|---|---|
| | Heç vaxt | Nadir hallarda | Bəzən | Tez-tez | Həmişə |
| Qrup üzvlərinin hamısı fəaliyyətə qoşulur? | | | | | |
| Qrup üzvlərinin hər biri tapşırıqlarda iştirak edir? | | | | | |
| Qrup üzvləri iş bölgüsünə əməl edirlər? | | | | | |
| Qrup üzvləri əldə etdikləri məlumatları müzakirə edirlər? | | | | | |
| Qrupda ziddiyətli fikirləri müzakirə edirlər? | | | | | |
| Qrup üzvləri bir-birlərini cəsarətləndirir? | | | | | |
| Qrup üzvləri bir-birlərinə ehtimad göstərirlər? | | | | | |
| Qrup məhsuldar şəkildə işləyirmi? | | | | | |
| Qrup üzvləri birlikdə işləməkdən zövq alırlar? | | | | | |

Şərhlər:

______________________________________________




# 7

*II saat*

# MƏDƏNİYYƏT

Mədrəsə, kitabxana, İskəndər bəy Münşi, Evliya Çələbi, mətbəə, Məhtimqulu, Tac Mahal

**Standartlar:**
5.1.1. Şərq və Qərbdə intibah mədəniyyətinin xüsusiyyətlərini izah edir.
5.1.3. Dünya mədəniyyətinin nailiyyətlərinə dair cədvəl və qrafiklər hazırlayır.

**Təlim məqsədləri:**
1. Şərq mədəniyyətinin xüsusiyyətlərini izah edir.
2. Şərq mədəniyyətinin nailiyyətlərinə dair cədvəl hazırlayır.

**Təlim forması.** Böyük və kiçik qruplarla iş

**Təlim üsulu.** Tərcüməçi üsulu.

**Dərsin gedişi**

**Tədqiqat sualı:** Şərq mədəniyyəti tarixdə necə iz qoydu?

**Tədqiqatın aparılması:** "Tərcüməçi" üsulunun köməyi ilə kiçik qruplarla iş formasında dərsin qurulmasını təklif edərdik. Bu zaman şagirdlərə mənbələrdən hissələr verib onlara bu mənbəni öz sözləri ilə izahlı şəkildə nəql etmək tapşırığını vermək olar. Dərsin keçilməsini bütünlüklə mənbələr əsasında mümkün olmadığını nəzərə alaraq hər qrupa bir xırda mənbə tipli məlumatla işləməklə yanaşı digər tapşırıqların verilməsi də məqsədəmüvafiqdir.

**I qrup.**

Tapşırıq 1. Dərsliyin 74-cü səhifəsindəki mənbə tipli məlumatı öz sözlərinizlə izahlı şəkildə nəql edin.

______________________________________________________________________
______________________________________________________________________
____________________

Tapşırıq 2. Şərq memarlığına dair cədvəl hazırlayın.

______________________________________________________________________
______________________________________________________________________
____________________

**II qrup.**

Tapşırıq 1. Dərsliyin 72-ci səhifəsindəki mənbə tipli məlumatı öz sözlərinizlə izahlı şə-

kildə nəql edin.

Tapşırıq 2. Şərq müsiqisinə və rəqsinə dair cədvəl hazırlayın.

**III qrup.**

Tapşırıq 1. Dərsliyin 75-ci səhifəsindəki mənbə tipli məlumatı öz sözlərinizlə izahlı şəkildə nəql edin.

Tapşırıq 2. Şərq rəssamlığına dair cədvəl hazırlayın.

**IV qrup.**

Tapşırıq 1. Dərsliyin 74-cu səhifəsindəki mənbə tipli məlumatı öz sözlərinizlə izahlı şəkildə nəql edin.

Tapşırıq 2. Şərq sənətkarlığına dair cədvəl hazırlayın.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Dərsin bu mərhələsində qruplara müəyyən vaxt verib tapşırıqlarını təqdim etmələrini tapşırın. Qrup təqdimatı zamanı digər qrupların onlara sual verməlırinə şərait yaradın. Beləliklə təqdim edilən cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsin bu mərhələsində siz şagirdlərə verdiyiniz yönləndirici suallar vasitəsi ilə ümumiləşdirmə apara bilərsiniz. Bu da öz növbəsində sizə tədqiqat sualınıza cavab tapmağa kömək etmiş olar. Bununla belə tədqiqat sualının tam cavabını almaqdan ötrü sizə aşağıdakı suallar da yardımçı ola bilər.

- Sizcə Qafqaz rəqsi burada yaşayan xalqların hansı xüsusiyyətlərini musiqi dili ilə təqdim edir?
- Sizcə verilmiş məlumatlardan hansı  Tac Mahalı möhtəşəmliyini sübut edir?
- Şəkil əsnasında Sultan Əhməd məscidinin digər  məscidlərdən hansı fərqini müəyyən etmək olar?
- Sizcə verilmiş məlumatlardan hansı  Şəki xan sarayının möhtəşəmliyini sübut edir?

– Sizcə Məhtimqulunun Azərbaycana olan sevgisi nədən irəli gəlirdi?
– Öyrəndiyiniz dövrdə Şərq mədəniyyətinin hansı sahəsi sizi valeh etdi? Fikrinizi əsaslandırın.

**Ev tapşırığı:** 70-ci səhifədəki şəkil əsasında "Şahın qəbulunda" adlı kiçik hekayə qurun.

**Qiymətləndirmə meyarları:** İzah etrmə, cədvəl hazırlama.

Qruplar qrup qiymətləndirmə meyarları əsasında qiymətləndirə bilərsiniz. Bu zaman meyarlara əlavələr etməkdə sərbəstsiniz.

| Qruplar | Mübadilədən düzgün istifadə | Təqdimetmə | Tapşırıq vaxtında yerinə yetirilib | Əməkdaşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

Qiymətləndirmə bütün dərs boyunca aparılır. Hər bir şagirdin fəaliyyəti nəzarətdə saxlanılır. Meyarlara və səviyyələrə görə formativ qiymətləndirilmə yazılır.

Dərsin sonunda refleksiya üçün aşağıdakı formada suallardan istifadə etmək olar.

– Yeni mövzu üzərində necə işlədiniz?
– Hansı mənbələrdən istifadə etdiniz?
– Sizə görə hansı mənbələr daha inandırıcı və ya hansı mənbələr daha maraqlı idi?
– Dərsdə informasiya əldə etmənin hansı yeni metodunu öyrəndiniz?
– Hansı suallarınız var? və.s



# 8

*I saat*

# İNGİLTƏRƏ

Burjuaziya, puritanlar, Stüartlar, Respublika, “Uzunmüddətli parlament”, “Şanlı inqilab”, sənaye çevrilişi

***Qeyd:*** Mövcud dərsin tədrisinə üç saat ayrılmışdır. Bu paraqraf dərsliyin 78–91-ci səhifələrini əhatə edir. Bu paraqrafın tədrisini aşağıdakı formada münasib bilirik:

– Birinci dərs 78-ci səhifədən başlayıb 80-ci səhifədəki “İnqilabın başlanması” yarımbaşlığınadək məlumatları əhatə edir.
– İkinci dərs saatı 80-ci səhifədəki “İnqilabın başlanması” yarımbaşlığından başlayıb 86-cı səhifəyədək olan məlumatları əhatə edir.
– Üçüncü dərs saatı 86-cı səhifədən –“Lord-protektor” yarımbaşlığından başlayıb paraqrafın sonunadək olan məlumatları əhatə edir.

Hər bir dərsin tədrisi zamanı müvafiq səhifələrdəki xəritəni, şəkilləri, illüstrasiyaları, sual və tapşırıqları diqqətdən kənarda saxlamaq lazım deyil. Onu da bildirək ki, yuxarıda sizə məsləhət görülən bölgü mütləq deyil. Bu bölgünü siz dərs deyən müəllim kimi təlim strategiyanıza, sinifdəki şagirdlərin bacarığına uyğun olaraq dəyişə və yeni bölgü forması yarada bilərsiniz.

**Alt standart.**

2.1.1. Feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, dünyada baş vermiş iqtisadi, sosial dəyşiklikləri məkanla əlaqədə izah edir.

**Təlim məqsədi.**

İngiltərədə feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, baş vermiş iqtisadi, sosial dəyşiklikləri məkanla əlaqədə izah edir.

**Təlim forması.** Böyük qruplarla iş

**Təlim üsulu.** Beyin həmləsi, akvarium

**Dərsin mərhələləri.**

**Motivasiya:** Mövcud dərs üçün sizə motivasiya qurmaq üçün Qərbi Avropanın xəritəsindən istifadə edə bilərsiniz. Xəritə siyasi xəritə olsa daha məqsədəmüvafiq olardı. Xəritəni lövhədən asıb şagirdlərə aşağıdakı sualları və ya özünüzün tərtib etdiyiniz sualları ünvanlaya bilərsiniz. Səsləndirəcəyiniz suallar;

– Gördüyünüz xəritə sizə nə deyir?
– Bu xəritə əsasında hansı adaları göstərə bilərsiniz?
– Göstərdiyinz adalardan hansı müstəqil və güclü dövlətdir?

Şagirdlərə verdiyiniz suallara cavabları aldıqdan sonra onları ümumiləşdirib tədqiqat sualını elan edin.

**Tədqiqat sualı:** İngiltərədə feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranması necə baş verdi?

**Tədqiqatın aparılması:** Tədqiqatın aparılmasını böyük qruplarla iş formasında aparılamsını tövsiyyə edərdik. Bu zaman siz akvarium metodundan yararlana bilərsiz. Bu iş üsulu üçün siz sinifi iki dairəyə -iç və çöl dairələrinə bölüb iç dairəyə müəyyən vaxt müddətində müəyyən bir problemin müzakirəsini tapşıra bilərsiz. Sonra akvarium dərs üsulunun qaydalarına uyğun olaraq dairədəki şagirdlər yerlərini dəyişib müzakirəni davam etdirməlidir. Müzakirə üçün aşağıdakı tapşırıqlardan istifadə edə bilərsiz.

– XVII_XVIII yüzillikdə İngiltərənin sosial –iqtisadi vəziyyətinin izahını verin.
– Stüartlar sülaləsi və püritançılıq haqda nə bilirsiniz?
– İngiltərənin siyasi vəziyyətini şərh edin.
– Burjuaziya və yeni zadəganlar haqda nə bilirsiniz?

"Akvarium"da iş zamanı əslində dərsin məlumatın mübadiləsi və müzakirəsi mərhəlsini də həyata keçirmiş olursuz. "Akvariumda" iş üçün ayrılmış vaxt bitdikdən sonra dərsin növbəti mərhələsini həyata keçirin.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsin sonunda əldə olunan nəticələri müəyyən edin. Yardımçı suallar kimi aşağıdakı suallardan istifadə edə bilərsiniz.

– XVII yüzilliyin birinci yarısında İngiltərədə sosial quruluşun mühüm xüsusiyyətləri nə idi?
– Sizcə çəpərləmələr nəyin təzahürü idi?
– İngiltərədə digər Avropa dövlətləri ilə müqayisədə mütləqiyyətin zəif olmasının səbəbi nə idi?
– Sizcə nəyə görə kilsə kralı müdafiə edirdi?
– I Yakov parlamentin mövcudluğuna qarşı olduğunu nə ilə əsaslandırırdı?
– XVII yüzillikdə İngiltərədə hansı mübarizələrin ideoloji əsasını təşkil edirdi?

**Qiymətləndirmə meyarları:** İzah etmə.

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bu mərhələ zamanı siz müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğunuz şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə və müəyyən etdiyiniz səviyyələr üzrə qiymətləndirə bilərsiz. Eləcə də, hər bir şagirdin öz fəaliyyətini qiymətləndirilməsini həyata keçirə bilərsiniz. Bunun üçün sizə aşağıdakı cədvəl kömək edə bilər.

**Şagirdin adı soyadı** ____________________________

| Dərsdə diqqətli idim | Sual-cavabda aktiv idim | Məntiqli yanaşmam var idi | Əməkdaşlıq etdim | Tapşırığı tam və düzgün yerinə yetirdim | Etiket qaydalarına riayət etdim |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |



# 8

*II saat*

# İNGİLTƏRƏ

Burjuaziya, puritanlar, Stüartlar, Respublika, “Uzunmüddətli parlament”, “Şanlı inqilab”, sənaye çevrilişi

**Alt standartlar.**

2.1.1. Feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, dünyada baş vermiş iqtisadi, sosial dəyşiklikləri məkanla əlaqədə izah edir.

4.1.1. Tarixi şəxsiyyətləri (Oliver Kromvel, Maksimilian Robespyer, I Pyotr, II Yekaterina, Corc Vaşinqton, Benjamin Franklin, Köprülü Mehmet paşa, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar) müqayisə edir.

**Təlim məqsədləri.**

1. İngiltərədə feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, baş vermiş iqtisadi, sosial dəyşiklikləri məkanla əlaqədə izah edir.
2. Oliver Kromveli Nadir şahla müqayisə edir.

**Təlim forması.** Böyük və kiçik qruplarla iş

**Təlim üsulu.** Mətn üzərində iş

**Dərsin mərhələləri.**

**Tədqiqat sualı:** Oliver Kromvel İngiltəərə tarixində hansı rolu oynadı?

Tədqiqatın aparılması: Tədqiqat sualı elan olunandan sonra kiçik qruplarla iş formasında mətn üzərində iş üsulu ilə dərsinizi qurmağınız məqsədəmüvafiq olardı. Adından göründüyü kimi bu zaman şagirdlər onlara verilmiş mətn üzərində işləməlidirlər.

Qruplara tədqiqat üçün aşağıdakı tapşırıqları və ya özünüzün məsləhət bildiyiniz tapşırıqları verə bilərsiz.

**I qrup.**

1. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərin köməyi ilə etməniz məqsədəmüvafiq olardı).
2. Mətnin hər hissəsinə ad qoyun. Planın bəndlərinin qoyduğunuz ad sual kimi, mətnin əsas fikrini əks etdirən mətndəki bir ifadə kimi də verilə bilər.
3. Boş buraxılmış yerləri doldurun.

XVII yüzilliyin 30-ci illərində İngiltərədə ___________ şərait yaranmışdı. İnqilabi şəraitin yaranması Şotlandiyada aparılan dini müharibələrlə bağlı idi. Müharibə İngiltərənin xəzinəsini xeyli boşaltmışdı. Xəzinəni oldurmaq istəyən I Karl ________ ildə parlamenti çağırdı ki, yeni vergilər təyin etməyə icazə alsın. Lakin istəyinə nail ola bilmədi. Bu parlament 1653-cü ilə qədər fəaliyyət göstərdiyindən ____________________________ adlanırdı. O.Kromvel başda olmaqla İngiltərə ordusu İrlandiyada hərbi əməliyyatlar apardı. İrlandiyanın əhalisi katolik idi və kral tərəfdarları İrlandiyanın imkanlarından istifadə edirdilər. İngiltərənin məqsədi İrlandiyanı __________________________________ inkişafına şərait yaratmaq idi. İrlandiyanın işğalı burjuaziyanın və yeni zadəganların daha da varlanmasına imkan yaratdı, eyni zamanda İngiltərə ordusunun xarakterində dəyişikliyə səbəb oldu. O, _________ orduya çevrildi. İngiltərə ordusu İrlandiya ilə eyni vaxtda Şotlandiyada hərbi əməliyyatlar apararaq onu da tabe etdi. Xalqın tələbi ilə kral məhkəməyə verildi. Məhkəmənin qərarı ilə kral 1649-cu ildə edam olundu və kral hakimiyyəti ləğv olundu. Kral hakimiyyətinin ləğv olunması ilə _____________sülaləsinin birinci dövrü başa çatdı. Bundan sonra İngiltərə Respublika elan olundu. Kral parlamentin ___________ ilə barışa bilmirdi. Parlamentin bir neçə deputatının həbs olunması haqqında göstəriş verildi. Lakin ____________________________ müdafiəsinə qalxdığından kral deputatları həbs etdirə bilmədi. Baş verən proseslər kralla parlament arasında gərginliyi artırdı. Nəticədə kral 1642-ci ildə parlamentə müharibə elan etdi.

**II qrup.**

1. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərin köməyi ilə etməniz məqsədəmüvafiq olardı).
2. Mətnin hər hissəsinə ad qoyun. Planın bəndlərinin qoyduğunuz ad sual kimi, mətnin əsas fikrini əks etdirən mətndəki bir ifadə kimi də verilə bilər.
3. Boş buraxılmış yerləri doldurun.

XVII yüzilliyin 30-ci illərində İngiltərədə inqilabi şərait yaranmışdı. İnqilabi şəraitin yaranması Şotlandiyada aparılan ____________________ bağlı idi. Müharibə İngiltərənin xəzinəsini xeyli boşaltmışdı. Xəzinəni oldurmaq istəyən I Karl _____________ ildə parlamenti çağırdı ki, yeni vergilər təyin etməyə icazə alsın. Lakin istəyinə nail ola bilmədi. Bu parlament 1653-cü ilə qədər fəaliyyət göstərdiyindən ______________________ adlanırdı. 1645-ci ildə parlament hərbi islahat haqqında qanun qəbul etdi. İslahata əsasən, ümumi rəhbərliyi və vahid maliyyə sistemi olan yeni tipli ordu yaradıldı. Könüllülük prinsipi əsasında təşkil olunan orduda əsgərlərin sayı qısa müddətdə 70 minə çatdı. Bu addımlar tezliklə öz bəhrəsini verdi. ____________________ parlamentin ordusu qalib gəldi. 1646-cı ilin yayında I Karl Şotlandiyaya qaçdı, lakin şotlandlar böyük məbləğdə pul alıb onu parlamentə təslim etdilər. Kral parlamentin üstünlüyü ilə barışa bilmirdi. Buna görə də 1648-ci ildə _____________________ köməyi ilə parlamentə qarşı yeni müharibəyə başladı. Lakin bu müharibədə də məğlubiyyətlə nəticələndi. İngiltərəyə və onun müstəmləkələrinə məhsullar İngiltərə _______________ gətirilməli idi. Bu qanun Hollandiyaya qarşı yönəlmişdi. Çünki Hollandiya İngiltərədən irəlidə idi və İngiltərə xarici ticarətdə Hollandiya _________________ geniş istifadə edirdi. İngiltərə hökuməti ticarət-müstəmləkə rəqabətində qalib gəlmək üçün güclü donanma yaratmağa başladı. İngiltərə respublikasının

___________________________ onun beynəlxalq nüfuzunun artmasına kömək etdi. İspaniya və Fransa onun müstəqilliyini tanımışdı. Hollandiya və Portuqaliya ilə aparılan müharibədə qalib gəlmiş və onlara üstünlüyünü qəbul etdirmişdi.

**III qrup.**

1. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərin köməyi ilə etməniz məqsədəmüvafiq olardı).
2. Mətnin hər hissəsinə ad qoyun. Planın bəndlərinin qoyduğunuz ad sual kimi, mətnin əsas fikrini əks etdirən mətndəki bir ifadə kimi də verilə bilər.
3. Boş buraxılmış yerləri doldurun.

Krala tabe olmayan ____________ fəaliyyətə başlaması İngiltərədə inqilabın başlanmasının əyani sübutu idi. İnqilabla bağlı ölkə _________________ tərəfdarları olmaqla iki hissəyə bölündü. Siyasi böhran ölkənin hər yerində çıxışlara təkan verdi. Xalq parlamenti müdafiə edirdi. Müharibənin əvvəli parlament üçün uğurlu olmadı. Parlament ordusunun zəifliyinin bəzi səbəbləri var idi. Parlament ordusundakı əsgərlərin bir qismi muzdlulardan, digər qismi isə könüllülərdən ibarət idi. Bu orduda __________________________ zəif idi. Orduya rəhbərlik edən puritanların ___________ hissəsi kraldan deyil, xalqdan çox qorxurdular, ona görə kralı məğlub etməyə çalışmırdılar. Kralla barışmağa meylli olan bu qüvvələr onunla danışıqlara başladılar. Onlar kral ____________________________ _________ _____________________ tələb etdilər. Lakin kral həmin tələbləri qəbul etmədi. Parlamentin maliyyə siyasəti də xalqın mənafeyinə zidd idi. Borcları qaytarmaq üçün parlament əhalidən alınan __________ artırdı. Parlament xarici ölkələrlə ticarət edən şirkətlərin hüquqlarına toxunmadı. Çünki parlamenti həmin şirkətlər də maliyyələşdirirdi. İngiltərə respublikasını birpalatalı parlament idarə edirdi. Ali qanunverici hakimiyyət parlamentə, icra hakimiyyəti isə Dövlət Şurasına məxsus idi. Hər iki qurumda burjuaziya və yeni zadəganlar üstünlük təşkil edirdi. Respublikanın daxili və xarici siyasəti bu təbəqələrin maraqlarına xidmət edirdi. Hökumətin həyata keçirdiyi iqtisadi tədbirlər nəticəsində ________________ ____________- iqtisadi imkanları artdı. Ölkəyə yun və ipək parçaların gətirilməsi qadağan edilmişdi.

**IV qrup.**

1. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərin köməyi ilə etməniz məqsədəmüvafiq olardı).
2. Mətnin hər hissəsinə ad qoyun. Planın bəndlərinin qoyduğunuz ad sual kimi, mətnin əsas fikrini əks etdirən mətndəki bir ifadə kimi də verilə bilər.
3. Boş buraxılmış yerləri doldurun.

XVII yüzilliyin 50-ci illərində İngiltərə əhalisi respublikaya olan inamını tamamilə itirmişdi. Respublikanın siyasəti _________ mənafeyinə zidd idi. Ticarətin zəifləməsi və sənayedəki __________ işsizlərin sayının artmasına səbəb oldu. Eyni zamanda kənd təsərrüfatı məhsullarının istehsalı azalmış və ərzaq məhsullarının qiyməti artmışdı. Ordunun saxlanılması üçün xərclər çoxalmışdı. Parlament qalib gəldikdən sonra bəzi addımlar atdı. Müzakirə edilən məsələlərdən biri ________________ ilə bağlı idi. Müharibənin baş-

lamasından sonra parlament ________________________________ torpaqlarının müsadirə olunması haqqında qərarlar qəbul etdi. Müsadirə edilmiş torpaqlar böyük sahələrlə satışa çıxarıldı. Bu torpaqları əsasən burjuaziya və ordunun zabitləri aldı. Kəndlilərin torpağa görə zadəganlardan asılılığı saxlanıldı və torpaq kəndlilərin mülkiyyətinə çevrilmədi. _______________ birtərəfli qaydada – burjuaziyanın və yeni zadəganların xeyrinə həll edildi. Çəpərləmələrə rəsmi şəkildə icazə verildi. Əhalinin və Şotlandiyanın köməyi ilə müharibənin gedişində dönüş yarandı. Parlament ordusuna _________________ başçılıq edirdi. O, hərbi işi yaxşı bilirdi. O.Kromvel mütləqiyyəti hərbi cəhətdən məğlub edib burjuaziyanın və yeni zadəganların mövqelərinin möhkəmlənməsini istəyirdi. O məqsədlərinə daha çox xalqın köməyi ilə çatmağa çalışırdı. Ona görə də O.Kromvel kəndlilərdən və sənətkarlardan ibarət yeni qoşun hissələri yaratmağa başladı. ____________________ parlamentdə həlledici rol oynayırdı. İngiltərə əhalisi parlamentin qərarlarını bəyənir və müdafiə edirdi. Parlament ali qanunverici və icra hakimiyyətini əlində cəmləşdirmişdi. Parlament kralın yeni vergilər təyin etməsi hüququnu qadağan etmişdi. Parlamentin qərarı ilə __________________ azad edilmişdi. Yeni qanuna əsasən, parlament kralın idarəsindən asılı olmayaraq üç ildən bir çağırılmalı idi.

**Qrupları qiymətləndirmə meyarları:**

| Qruplar | Mübadilədən düzgün istifadı | Təqdimetmə | Tapşırığın vaxtında yerinə yetrilməsi | Əməkdaşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I qrup | | | | | |
| II qrup | | | | | |
| III qrup | | | | | |
| IV qrup | | | | | |

**Məlumatın mübadiləsi və müzakirəsi:** Qruplara tədqiqat aparmaq üçün ayrılmış vaxt bitdikdən sonra hər bir qrup təqdimat üçün nümayəndəsini seçir. Qruplar iş vərəqlərini lövhədən asır və təqdimatlarını həyata keçirirlər. Şagirdlər mətn üzərində işləyən zaman qrupların gəldikldiyi nəticələrlə, məlumatlarla, hissələrə bölünmüş mətnə verilən adlarla tanış olurlar. Suallar verilir. Fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsi ümumiləşdirmək və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə suallar verməlisiz. Verəcəyiniz sualları əvvəlcədən hazırlamağınız məqsədəmüvafiqdir. Şagirdlərə aşağıdakı suallarla müraciət edə bilərsiz.

- I Karlın parlamenti yenidən çağırmasında məqsədi nə idi?
- İngiltərədə Vətəndaş müharibələrinin başlaması səbəbləri hansılardır?
- İngiltərədə Vətəndaş müharibəsi başlamaya bilərdimi?

– Vətəndaş müharibəsində parlamentin qələbə qazanmasına səbəb olan amillər hansılardır?
– Parlament aqrar məsələni hansı formada həll etdi?
– O.Kromveli necə qiymətləndirərdiniz?

**Yaradıcı tətbiqetmə:** Oliver Kromveli Nadir şahla müqayisə edin.

**Qiymətləndirmə:** İzah etmə, müqayisə etmə.

Mövcud dərsin qiymətləndirməsini yuxarıdakı meyarlara nəzərən dərs izləməsi nəticəsində həyata keçirməlisiz. Dərsin sonunda şagirdi yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla səviyyələr üzrə qiymətləndirə bilərsiz. Şagirdləri qiymətləndirmə zamanı özünüqiymtləndirmə vərəqindən də istifadə edə bilərsiniz.

**Şagirdin adı və soyadı:** ____________________
**Tarix:**________________

| Öyrənmə sahələri | Müvəffəqiyyətlər | DƏRƏCƏLƏR | | |
|---|---|---|---|---|
| | | Bəli | Qismən | Xeyr |
| **Tarixi məkan** | İngiltərədə feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, baş vermiş iqtisadi, sosial dəyşiklikləri məkanla əlaqədə izah edir. | | | |
| **Şəxsiyyət** | Oliver Kromveli Nadir şahla müqayisə edir. | | | |
| | **CƏMİ** | | | |


Ölkədə ali hakimiyyət parlamentə məxsus olduğundan əhali onu baş verən hadisələrin əsas günahkarı sayırdı. Kromvel vəziyyətdən istifadə edərək "Uzunmüddətli parlament"i ləğv etdi. Kromvel və onun tərəfdarları hərbi diktaturanı yeganə etibarlı hakimiyyət forması hesab edirdi. 1653-cü ildə o, **lord-protektor**★ elan edildi.

★ *Lord-protektor* **latınca "müdafiəçi, hami" deməkdir.**

Ölkədə diktatura rejimi quruldu. Real hakimiyyət hərbi diktator Kromvelə məxsus idi. O, ölkəni generalların köməyi ilə idarə edirdi. Diktator rejimi hər cür narazılıqların qarşısını amansızlıqla alırdı.

Ölkədə siyasi vəziyyət gərgin idi. Kəndlilər protektorun aqrar qanunvericiliyindən narazı idi. Onlar vergilərin tənzimlənməsini və çəpərləmələrin qadağan olunmasını tələb edirdilər. Əhali diktatura rejiminə qarşı mübarizə aparırdı.

**Stüartların bərpası.** İngiltərədə yaranmış vəziyyət hökuməti narahat edirdi. Protektorat ölkədə sosial və siyasi sabitliyi təmin edə bilmədi. Hakim dairələrin bir qismi monarxiyanın bərpasını vəziyyətdən ən yaxşı çıxış yolu hesab edirdi.

1660-cı ildə fəaliyyətə başlayan parlament özünün ilk qərarı ilə II Çarlz Stüartı İngiltərə taxtına dəvət etdi. Bununla da Stüartlar sülaləsi bərpa edildi.

T **Stüartlar sülaləsinin bərpa olunmasına şərait yaradan amilləri müəyyən edin.**

II Çarlz bəyannamə ilə çıxış edərək bildirdi ki, inqilab iştirakçılarına bəraət veriləcək, etiqad azadlığı və inqilab dövründə ələ keçirilmiş torpaqların toxunulmazlığı təmin ediləcəkdir. Lakin kral verdiyi vədlərə əməl etmədi. 1685-ci ildə II Çarlz öldü və onun yerinə II Ceyms Stüart kral oldu. O, ölkədə katolik-mütləqiyyət rejimi yaratmaq istəyirdi. Lakin İngiltərədə daha mütləqiyyətin və katolikliyin sosial bazası yox idi.

Burjuaziyanın və yeni zadəganların mövqelərinin möhkəmlənməsi parlamentin siyasi müstəqilliyinin artmasını təmin etdi. Parlament kralın mütləqiyyəti bərpa etmək cəhdləri ilə barışmaq fikrində deyildi. Katoliklik həm ingilislərə yad idi, həm də İngiltərənin əsas rəqibləri olan İspaniya və Fransada hakim idi. Torpaq sahibləri ehtiyat edirdilər ki, katolikliyin bərpası nəticəsində kilsə onların torpaqlarını geri istəyəcək. Əhalini isə dini təqiblərin bərpası ehtimalı narahat edirdi.

II Ceymsin katolikləri anqlikan kilsəsində yüksək vəzifələrə təyin etməsi **yepiskopların**★ bir qisminin müxalifətin tərəfinə keçməsinə səbəb oldu. Bu addımı onu təcrid olunmuş vəziyyətə saldı.

★ *Yepiskop* **provaslav, katolik və anqlikan kilsələrində ali dini rütbəli ruhanidir.**

**"Şanlı inqilab".** Əsas siyasi qüvvələr dövlət çevrilişi həyata keçirmək qərarına gəldi. Onlar yeni vətəndaş müharibəsinin qarşısını almaq üçün hollandiyalı Oranlı Vilhelmdən ordu ilə Londona gəlib hökuməti dəyişməyi və protestantlığı qorumağı xahiş etdilər. II Ceymsin kürəkəni olan Oranlı Vilhelm protestant və Fransanın düşməni idi. O, parlamentin sərbəst fəaliyyətini təmin etməyi vəd etmişdi. Hakimiyyət dəyişikliyinin dinc yolla həyata keçməsi İngiltərə tarixində **"Şanlı inqilab"** adlanır.

*Stüartların bərpası ilə bağlı toplantı*

II Çarlz

II Ceyms

Oranlı Vilhelm

86

87

# 8

*III saat*

# İNGİLTƏRƏ

Burjuaziya, puritanlar, Stüartlar, Respublika, "Uzunmüddətli parlament", "Şanlı inqilab", sənaye çevrilişi

**Alt standart.**

3.1.1. Dövlətlərin (İngiltərə, Fransa, Rusiya, ABŞ, Osmanlı, İran, Çin, Hindistan, Mərkəzi Asiyanın türk dövlətləri, Qazaxıstan, Krım, Sibir, Volqaboyu, Qafqaz xalqları) yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil edir.

**Təlim məqsədi.**

İngiltərənin idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil edir.

**Təlim forması.** Böyük qruplar, fərdi iş

**Təlim üsulu.** Auksion, afişaların yaradılması

**Dərsin mərhələləri.**

**Tədqiqat sualı.** İnqilab nəticəsində İngiltərədə yeni idarəçilik formaları, siyasi, sosial-iqtisadi münasibətlər necə quruldu?

**Tədqiqatın aparılması:** Tədqiqat sualı elan olunduqdan sonra fəal təlimin mərhələlərindən biri olan tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün "auksion" üsulundan istifadə etmək məqsədəmüvafiq olardı. Bunun üçün şagirdlərə materialla tanışlıq üçün vaxt verib onlara bu dərs üsulunun qaydalarını xatırlada (materialla tanış olmaq üçün veriləcək müddət bitdikdən sonra sizə, bir sual veriləcək. 1, 2, 3 sayanadək sualı cavablandıra bilməsəz cavab vermək şansı digər sinif yoldaşınıza keçər.) bilərsiniz.

Qarışıqlığın və sual "itkisi"nin olmaması üçün şagirdlərdən 5 nəfər ayırıb onları sıra ilə düzün. (Bu zaman qeydlər aparmaq üçün də bir nəfər lövhə qarşısında qalsa daha yaxşı olar.) Sıradakı birinci şagirdə auksion üsulunun qaydasına uyğun olaraq sual verin. Deyilən vaxtda cavablandıra bilməzsə həmin sualı yanındakı şagirddən cavablandırılmasını istəyin. O da bilməzsə növbəti şagirddən cavab istəyin. Beləcə beşinci şəxsədək.

Qeyd: Əslində hazırda sizə bəhs etdiyimiz bu üsul "auksion" üsulunun bir az təcrübədə sınanılmış "improvizə" edilmiş formasıdır. Şagirdlərə daha maraqlı olması üçün hazırlanan sualları qeyd dəftərinizdə nömrələyin və hər sualın nömrəsini də lövhədə yazın. Proses zamanı şagirdlərin müstəqil şəkildə hər hansı nömrəni seçməsinə şərait yaradın.

Bir mövzudan bəhs edən suallar dərslikdəki məlumata uyğun olaraq qarışıq olmalıdır. Yəni xronoloji və ya məzmun ardıcıllığı gözlənilməməlidir. Hazırladığınız və nömrələdiyinz suallarla yanaşı ehtiyat üçün 3-5 nömrələnməmiş sualınızın da olması daha yaxşı olardı. Şagirdlər nömrələri seçildikcə lövhədən həmin rəqəmi silin. Hər bir şagirdə 3 və ya 4 sualın cavablandırılmasına şərait yaradın. İlk şagird ana verilən sualları "açıb" onları cavablandırdıqdan sonra yerinə oturur və onun yerinə sinifdən digər şagird sıraya qatılır. Hansı şagirdin neçə suala düzgün cavab verməsini lövhə qarşısında saxladığınız şagird qeyd edir. Lövhədə aparılan bu qeydlərin bütün şagirdlərin görməsi şagirdlərə əlavə stimul verir. Təcrübə göstərir ki, bəzən imrovizə edilmiş bir üsul daha yaxşı effekt verir.

Bu üsulun tətbiqi zamanı aşağıdakı suallardan və düzülüş formasından istifadə etmək olar.

1. Maarifçilərin siyasi baxışları nəyə yönəlmişdi?
2. 1653-cü ildə İngiltərədə nə baş verdi?
3. Kapitalizmin inkişafını sürətləndirən səbəb nə oldu?
4. Lendlordlar kimlər idi?
5. Nə üçün Oranlı Vilhelmi ordu ilə gəlib hökuməti dəyişməyi xahiş etdilər?
6. Böyük Britaniya krallığı nə zaman yarandı?
7. Bəyannamə ilə çıxış edən II Karl nə vəd edirdi?
8. Niyə uzunmüddətli parlament ölkədə seçkiləri qeyri-müəyyən müddətə təxirə salmışdı?
9. Protektoratlıq dövründə hakim dairələr nəyi vəziyyətdən ən yaxşı çıxış yolu hesab edirdilər?
10. Sənaye çevrilişi əvvəlcə sənayenin hansı sahəsindən başladı?
11. İngiltərədə ticarətin inkişafına təsir edən amillər hansılar idi?
12. II Yakovun hansı addımı yepiskopların müxalifətin tərəfinə keçməsinə səbəb oldu?
13. Parlamentli monarxiya idarəetmə formasını necə başa düşürsünüz?
14. II Yakovun əsas istəyi nə idi?
15. Hüquqlar haqqında bill nə vaxt qəbul olundu?
16. Nəyin nəticəsində İngiltərədə mütləqiyyət zəiflədi?
17. Stüartlar sülaləsi nə vaxt bərpa edildi?
18. Şanlı inqilab nəyə deyirlər?
19. Böyük Britaniya necə yarandı?
20. Nə parlamentinn siyasi müstəqilliyinin artmasını təmin etdi?
21. Lord-protektaratlıq dövründə kəndlilər nə tələb edirdilər?
22. Aqrar çevrilişin başa çatmasında nəyin böyük rolu olmuşdur?

***Qeyd:*** Təbii ki yuxarıda verdiyimiz suallar nümunə xarakterlidir. Hörmətli müəllimlər, yuxarıda verilmiş tapşırıqlar azlıq təşkil edərsə siz özünüz əlavə tapşırıqlar hazırlaya və ya eyni tapşırığı (təbii ki tam cavablandırılmayan tapşırığı) təkrarən digər şagirdə verə bilərsiniz.

Bu zaman siz şagirdlərə özünüqiymətləndirmə vərəqini verə bilərsiniz.

Şagirdin adı və soyadı:

______________________________

1. Təlimata əməl etdim.

2. Tapşırığı yerinə yetirərkən vaxtdan düzgün istifadə etdim.

3. Bu dərsdə nələri öyrəndim?

4. Bu dərs müddətində sinif yoldaşlarıma necə kömək etdim?

5. Bu dərs müddətində ən yaxşı gördüyüm işlər :

**ŞƏRHLƏR:**

**Məlumatın müadiləsi və müzakirəsi:** Dərsin yuxarıda məsləhət gördüyümüz auksion üsulu ilə keçən zaman sinifin bütün diqqəti bu “bilik yarışına” cəmlənmiş olur ki, bu zaman da siz əslində dərsin tədqiqatın aparılması mərhələsində məlumatın mübadiləsi və müzakirəsi mərhələsini də yekunlaşdırmış olursunuz.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsin bu mərhələsində müəllim olaraq öz yekun sözlərinizlə şagirdləri son nəticələrə yönəldib tətqiqat sualına cavab tapın. Bu zaman siz şagirdlərə aşağıdakı sual və tapşırıqları verə bilərsiniz.

- Sizcə Stüartlar sülaləsinin bərpa olunmasına şərait yaradan amillər hansılar idi?
- “Şanlı inqilab”ın İngiltərə üçün nəticəsi nə oldu.
- İngiltərə maarifçiliyinin səciyyəvi cəhətlərini müəyyən edin.
- Sənaye çevrilişinə şərait yaradan amilləri müəyyən edin.

**Ev tapşırığı:** Şagirdlərə “inqilab inkişafa aparır” adlı afişa yaradılmasını tapşırın.

**Qiymətləndirmə meyarı:** Təhlil etmə.

Formativ qiymətləndirmə sizin dərsi izləməniz nəticəsində baş verməlidir. Bununla belə bu mərhələ zamanı siz müxtəlif suallar verməklə də təlim prosesini izləyərək diqqətdə saxladığınız şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilərsiniz. Qiymətləndirmə zamanı şagirdlərin yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirməli olduğunuzu unutmayın.

Dərsin sonunda refleksiya üçün aşağıdakı sualları da verə bilərsiniz.

- Sizə nə aydın olmadı?
- Hansı suallarınız var?
- Dərs əsnasında qarşıya qoyulan hədəfə çatdınızmı?



9

*I saat*

# ŞİMALİ AMERİKA

koloniyalar, hindular, “Möhür qanunu”, “Boston çay qonaqlığı”, Filadelfiya konqresi, Corc Vaşinqton, “İstiqlaliyyət bəyannaməsi”, Konstitusiya.

***Qeyd:*** Şimali Amerika mövzusunun tədrisinə iki saat ayrılmışdır. Dərsliyin 92–101-ci səhifələrini əhatə edən bu paraqrafı tədris saatına uyğun olaraq aşağıdakı qaydada bölmüşük:

– Birinci dərs səhifə 92-dən başlayaraq səhifə 97-ci səhifənin sonunadək olan məlumatları əhatə edir.
– İkinci dərs saatı 98–101-ci səhifələrdəki məlumatları əhatə edir.

İstər birinci saatın, istərsə də ikinci saatın tədrisi zamanı dərslikdəki şəkil, xəritə, mənbə tipli əlavə, maraqlı məlumatlar, sxem, cədvəl, sual və tapşırıqları diqqətdən kənarda saxlamamağınız mütləqdir. Onu da bildirək ki, bu bölgü mütləq deyil. Bu bölgünü siz dərs deyən müəllim kimi təlim strategiyanıza, sinifdəki şagirdlərin bacarığına uyğun olaraq dəyişə və yeni bölgü forması yarada bilərsiniz.

**Standartlar.**

3.1.1. Dövlətlərin (İngiltərə, Fransa, Rusiya, ABŞ, Osmanlı, İran, Çin, Hindistan, Mərkəzi Asiyanın türk dövlətləri, Qazaxıstan, Krım, Sibir, Volqaboyu, Qafqaz xalqları) yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil edir.

3.1.2. Yeni tipli dövlətlərin qeyri-bərabər inkişafına aid esse yazır.

**Təlim məqsədləri.**

1. Şimali Amerikada siyasi, sosial-iqtisadi münasibətləri təhlil edir.
2. İngilis koloniyalarının qeyri-bərabər inkişafına aid esse yazır.

**Təlim forması.** Böyük qruplarla, fərdi iş

**Təlim üsulları.** BİBÖ, “əgər mən təbiət hadisəsi olsaydım”

**Dərsin gedişi.**

**Motivasiya.** Dərs üçün motivasiyanı BİBÖ üsulunu seçməklə həyata keçirə bilərsiniz. Bunun üçün lövhədə dərsə başlayanda BİBÖ cədvəlini çəkin. Çəkilmiş cədvəli dərsin sonunadək silməyin. Çünki BİBÖ dərsin motivasiya mərhələsindən başlayaraq sonadək doldurulması zəruri olan üsullardan biridir.

| Bilirəm | İstəyirəm Biləm | Öyrəndim |
| --- | --- | --- |
| | | |
| | | |
| | | |

Cədvəli çəkdikdən sonra aşağıdakı məlumatı şifahi şəkildə şagirdlərə çatdırın.

"İqtisadi və hərbi cəhətdən dünyanın ən güclü dövlətlərindən olan bu dövlət vaxti ilə ingilis koloniyası olub və çox keçmədən müstəqilliyinə qovuşmuşdur. bu dövlət ayrıca bir materikdə yerləşir iki tərəfdən –sağdan və soldan okeanlarla əhatə olunub".

Sonra isə şagirdlərdən bu dövlətin hansı dövlət olduğunu, bu dövlət haqda hansı bilgilərə malim olduqlarını soruşun. Şagirdlərin bütün bildikləri BİBÖ cədvəlinin "Bilirəm" hissəsində qeyd edilməlidir. "Bilirəm" hissə doldurulduqdan sonra bir iki cümlə ilə yeni dərsə keçid edib tədqiqat sualını elan edib edə bilərsiniz.

**Tədqiqat sualı:** Şimali Amerikada siyasi, sosial-iqtisadi münasibətlər necə inkişaf etdi?

**Tədqiqatın aparılması:** Tədqiqatın aparılmasını fərdi iş formasında aparılamsını tövsiyyə edərdik. Tədqiqat sualı elan olunandan sonra "əgər mən təbiət hadisəsi olsaydım" (bu üsulun adı şərtidir) təlim üsulundan istifadə etməklə dərsinizi qura bilərsiz. Bunun üçün məsləhət olar ki şagirdlərə aşağıdakıları bildirəsiniz:

- Sizə verdiyim tapşırıqda yarımçıq bir cümlə yazılıb. Hər kəs ona verilən cümləni tamamlasın. Fikrinizi 2-3 cümlə ilə də tamamlaya bilərsiniz.
- Sizə verilən taşırığı yerinə yetirmək üçün 2 dəqiqə vaxt verirəm.

Şagirdlərə verəcəyiniz vaxt nisbidir. Bunu sinifin səviyyəsinə və cari dərs planlaşdırılmasına uyğun olaraq artıra və ya azalda bilərsiniz. Şagirdlərdən birini ekspert təyin edin (ilk dərslərdə ekspert qismində özünüz çıxış etsəz daha yaxşı olar). Ekspertə təkrar olunmayan bütün fikirləri qeydə almaq tapşırığını verin.

Bu zaman şagirdlərə tədqiqat üçün aşağıdakı tapşırıqları verə bilərsiniz. Bir tapşırığın bir neçə şagirdə verməli olduğunuz qaçılmazdır. Bunun özü belə dərsin daha canlı, maraqlı alınmasına, qarşınıza qoyduğunuz məqsədə çatmağınıza yardım edər.

**Tapşırıq № 1.**
Əgər mən Şimali Amerikaya gələn torpaqsız kəndli olsaydım

_____________________________________

**Tapşırıq № 2.**
Əgər mən hindu tayfa üzvü olsaydım

_____________________________________

**Tapşırıq № 3.**
Əgər mən koloniyaların şimal torpaqlarında yaşayan olsaydım olsaydım

___________________________________

**Tapşırıq № 4.**
Əgər mən plantasiya sahibi olsaydım

___________________________________

**Tapşırıq № 5.**
Əgər mən qul alveri ilə məşğul olan olsaydım

________________________________

**Tapşırıq № 6.**
Əgər mən qul olsaydım

___________________________________

**Tapşırıq № 7.**
Əgər mən koloniyalarda inkişafın qarşısını almaqda maraqlı olan ingilis kralı olsaydım

___________________________________

**Tapşırıq № 8.**
Əgər mən qubernator olsaydım

___________________________________

**Tapşırıq № 9.**
Əgər mən koloniyada fəaliyyət göstərən məclis üzvü olsaydım

___________________________________

**Tapşırıq № 10.**
Əgər mən "möhür" qanununa etiraz edənlərdən olsaydım

___________________________________

**Tapşırıq № 11.**
Əgər Corc Vaşinqton olsaydım

___________________________________

**Tapşırıq № 12.**
Əgər Tomas Ceferson olsaydım

___________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi:** Dərsin tədqiqat mərhələsinə ayrılmış vaxt bitdikdən sonra məlumatın mübadiləsi və müzakirəsi mərhələsini həyata keçirin. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir. Təyin etdiyiniz ekspert qeydlərini aparır. Bütün şa-

girdlərin cavabları dinlənildikdən sonra ekspert əldə edilmiş nəticələri şərh edir. Dərsin bu mərhələsi bitəndən sonra mövbəti mərhələyə keçid ala bilərsiniz.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Müzakirə zamanı söylənilən fikirlərin ümumiləşdirilməsi, dərsin əvvəlində söylənilmiş fərziyyələrə müqayisə aparılması və tədqiqat sualı ilə bağlı nəticə çıxarılması üçün şagirdlərə suallar verməniz yaxşı olardı. Verəcəyiniz sualları əvvəlcədən hazırlamağınız məqsədəmüvafiqdir. Bu zaman dərslikdəki sual və tapşırıqlardan da istifadə edə bilərsiniz.

- Koloniyaları nə üçün "Yeni İngiltərə" adlandırırdılar?
- Cəsur və döyüşkən hinduların müstəmləkəçilərə məğlub olmasının nəticəsi nə oldu?
- Koloniyalarda əhalinin sayının artması nə ilə bağlı idi?
- Şimal və Cənub koloniyaları arasında əsas fərq nədən ibarət idi?
- Şimali Amerikada qul əməyinin tətbiqi nə ilə nəticələndi?
- Xəritə əsasında koloniyaların Atlantik okeanı sahillərində salınmasının səbəbini izah edin.
- İngiltərənin koloniyaların siyasi və iqtisadi inkişafına maneələr yaratmasının səbəblərini izah edin.

**Yaradıcı tətbiqetmə:** Yaradıcı tətbiqetmə kimi şagirdlərə "Şimali Amerika koloniyalarının inkişafına maneələr" adlı esse yazılmasını təklif edin.

***Qeyd;*** Əgər yaradıcı tətbiqetməyə yaxtınız qalmasa onda yaradıcı tətbiqetmə üçün ayırdığınız tapşırığı ev tapşırığı kimi verin. Ev tapşırığını şagirdlərdən alıb yoxlayandan sonra isə esse yazma meyarı üzrə şagirdlərin qiymətləndirməli olduğunuzu da unutmayın.

**Qiymətləndirmə meyarları:** Esse yazma, təhlil etmə.

Tədris prosesində apardığınız qiymətləndirmə zamanı öyrənilmiş materialın şagirdlər tərəfindən nə dərəcədə mənimsənilməsi, mühakimə yürütmə qabiliyyətinin inkişafı, konkret faktları, hadisələri izah edərkən, müxtəlif tapşırıqları yerinə yetirərkən şagirdlərin əldə etdiyi biliyi tətbiq etmə bacarı haqqında obyektiv təsəvvür yaranır. Dərs prosesində siz şagirdin şifahi cavabını dinləyərək onun hər hansı təqdimatını müşahidə edərək, nəinki onun bu və ya digər bilik və bacarıqlara yiyələndiyini, həmçinin şagirddə düşüncə tərzinin nə dərəcədə inkişaf etdiyini, təqdimetmə , fikrini dəqiq ifadə etmə və s. bacarıqlarını müəyyənləşdirə bilərsiniz. Unutmayın ki, formativ qiymətləndirməni məzmun standartı əsasında müəyyənləşdirilmiş və təlim məqsədləri üzrə hazırlanmış meyarlarla aparılmalısınız.

Dərsin sonunda refleksiya üçün aşağıdakı formada suallardan istifadə edə bilərsiniz.

- Hansı suallarınız var?
- Yeni materialın öyrənilməsi sizə hansı təsiri bağışladı?
- Dərs əsnasında qarşıya qoyulan hədəfə çatdınızmı?
- Yeni mövzu üzərində necə işlədiniz?
- Dərsdə informasiya əldə etmənin hansı yeni metodunu öyrəndiniz? və.s



# 9

*II saat*

# ŞİMALİ AMERİKA

koloniyalar, hindular, "Möhür qanunu", "Boston çay qonaqlığı", Filadelfiya konqresi, Corc Vaşinqton, "İstiqlaliyyət bəyannaməsi", Konstitusiya.

**Standartlar.**

4.1.1. Tarixi şəxsiyyətləri (Oliver Kromvel, Maksimilian Robespyer, I Pyotr, II Yekaterina, Corc Vaşinqton, Benjamin Franklin, Köprülü Mehmet paşa, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar) müqayisə edir.

4.1.2. Tarixi şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır.

**Təlim məqsədləri.**

1. Corc Vaşinqtonu Oliver Kromvellə müqayisə edir.
2. Corc Vaşinqtonun digər tarixi şəxsiyyətlərlə oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır.

**Təlim forması.** Böyük qruplarla, fərdi iş

**Təlim üsulları.** "Əgər mən təbiət hadisəsi olsaydım"

**Dərsin gedişi.**

**Tədqiqat sualı:** Corc Vaşinqton ABŞ-ın yaradılmasında hansı rolu oynadı?

**Tədqiqatın aparılması:** Tədqiqatın aparılmasını fərdi iş formasında aparılamsını tövsiyyə edərdik. Tədqiqat sualı elan olunandan sonra şagirdlərə əvvəlki dərsdən tanışolan "əgər mən təbiət hadisəsi olsaydım" təlim üsulundan istifadə etməklə dərsinizi qura bilərsiz. Şagirdlər əvvəlki dərsdə bu üsulla tanış olsalar da məsləhət olar ki onlara qısaca aşağıdakıları bildirəsiniz:

– Sizə verdiyim tapşırıqda yarımçıq bir cümlə yazılıb. Hər kəs onlara verilən cümləni tamamlasın. Fikrinizi 2-3 cümlə ilə də tamamlaya bilərsiniz.
– Sizə verilən taşırığı yerinə yetirmək üçün 2 dəqiqə vaxt verirəm.

Şagirdlərə verəcəyiniz vaxt nisbidir. Bunu sinifin səviyyəsinə və cari dərs planlaşdırılmasına uyğun olaraq artıra və ya azalda bilərsiniz. Şagirdlərdən birini ekspert təyin edin. Ekspertə təkrar olunmayan bütün fikirləri qeydə almaq tapşırığını verin.

Bu zaman şagirdlərə tədqiqat üçün aşağıdakı tapşırıqları verə bilərsiniz. Bir tapşırığın bir neçə şagirdə verməli olduğunuz qaçılmazdır. Bunun özü belə dərsin daha canlı, maraqlı alınmasına, qarşınıza qoyduğunuz məqsədə çatmağınıza yardım edər.

**Tapşırıq № 1.**
Əgər mən müharibənin gedişində istiqlaliyyət tərəfdarı olsaydım

______________________________

**Tapşırıq № 2.**
Əgər mən müharibənin gedişində istiqlaliyyət əleyhdarı olsaydım

______________________________

**Tapşırıq № 3.**
Əgər mən ordu komandanı Corc Vaşinqton olsaydım

______________________________

**Tapşırıq № 4.**
Əgər mən prezident Corc Vaşinqton olsaydım

______________________________

**Tapşırıq № 5.**
Əgər mən Bencamin Franklin olsaydım

____________________________

**Tapşırıq № 6.**
Əgər mən koloniyalara kömək edən fransız kralı olsaydım olsaydım

______________________________

**Tapşırıq № 7.**
Əgər mən koloniyalarla müharibə aparan İngilis hökümət başçısı olsaydım

______________________________

**Tapşırıq № 8.**
Əgər mən konstitusiya qəbul edən məclis üzvü olsaydım

______________________________

**Tapşırıq № 9.**
Əgər mən Senat nümayəndəsi olsaydım

______________________________

**Tapşırıq № 10.**
Əgər mən Nümayəndələr palatasının üzvü olsaydım

______________________________

**Tapşırıq № 11.**
Əgər mən konstitusiyanın qəbulundan sonra ABŞ vətandaşı olsaydım

______________________________

**Tapşırıq № 12.**
Əgər mən konstitusiyanın qəbulundan əvvəl ABŞ sakini olsaydım

______________________________

**Məlumatın mübadiləsi və müzakirəsi:** Bu mərhələdə iştirakçılar tədqiqatın gedişində əldə etdikləri tapıntıların, yeni informasiyanın mübadiləsini aparırlar. Qoyulmuş tapşırığa cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir-birinin təqdimatını fəal dinləməyə sövq edir. Taqdimat bir növ yeni biliklərin dairəsini cızır. Hələlik bu biliklər natamam və xaotik xarakter daşısa da dərsin növbəti mərhələsində bunların ümumiləşdirilməsini təşkil edin. Çagirdlərin hazırladıqları cavablar diqqətlə dinlənilən zaman təyin etdiyiniz ekspert qeydlərini aparır və sonda əldə edilmiş nəticələri şərh edir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Aparılan araşdırmanın yekunlaşdırılması, yeni biliklərin ümumiləşdirilməsi, nəticə çıxarılması məqsədi ilə aparılan müzakirə şagirləri ortaq mövqeyə gəlməyə, ümumi qənaətlərə istiqamətləndirir. Bunun üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla da müraciət edə bilərsiz.

- Filadelfiya şəhərinin ABŞ üçün əhəmiyyəti nədən ibarət idi?
- Saratoqa döyüşünün əhəmiyyəti nədən ibarət oldu?
- Fransanın ABŞ-a kömək etməkdə məqsədi nə idi?
- Paris müqaviləsinin əhəmiyyətini izah edin.
- ABŞ Konstitusiyasına görə hakimiyyət bölgüsünü təhlil edin.
- İstiqlaliyyət müharibəsinin hansı nəticələri oldu?
- Corc Vaşinqtonun ABŞ tarixində oynadığı rolu necə qiymətləndirərdiniz?
- Corc Vaşinqtonu Oliver Kromvellə necə müqayisə etmək olar?

**Ev tapşırığı:** Corc Vaşinqtonun digər tarixi şəxsiyyətlərlə oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayın.

**Qiymətləndirmə meyarları:** Müqayisə etmə, cədvəl hazırlama.

Dərsin bu mərhələsində müəllim olaraq siz, dərs ərzində apardığınız qeydlər əsasında şagirdləri fərdi şəkildə qiymətləndirə bilərsiniz. Bu zaman yeni biliyin mənimsənilməsinə bir daha nəzər salıb, şagirdlərin təqdimatları, dərs zamanı müzakirələrdə iştirak səviyyəsi, verdiyi məntiqli cavabları barədə yığcam rəy mübadiləsi apararaq şagirdləri qiymətləndirə bilərsiniz. Eləcə də şagirdlərin nailiyyətləri və çatışmamazlıqları nəzərə çatdırılması və tövsiyyələrin verilməsi də unudulmamalıdır. sonuncu meyar üzrə şagirdlərin qiymətləndirilməsi onların ev tapşırığının yoxlanılmasından sonra mümkün olacaqdır.

Dərsin sonunda şagirdlərə özünüqiymətləndirmə vərəqlərini də paylaya bilrəsiniz.

**Ad, soyad.** ______________________

| MEYARLAR | XEYİR | QİSMƏN | TAM |
|---|---|---|---|
| Tapşırığı başa düşdüm və fikrimi izah etdim | | | |
| Dərsdə diqqətli idim | | | |
| Məntiqli yanaşmam var idi | | | |
| Sual cavabda aktiv idim | | | |
| Əməkdaşlıq etdim | | | |
| Etiket qaydalarına riayət etdim | | | |




# 10

*I saat*

# FRANSA

Mütləqiyyət, maarifçilər, inqilab, respublika, yakobinçilər, Direktoriya, Napoleon Bonapart

***Qeyd:*** Mövcud paraqrafın tədrisinə dörd saat ayrılmışdır. Bu paraqraf dərsliyin 102–117-ci səhifələrini əhatə edir. Dərslik müəllifi olaraq biz bu paraqrafı tədris saatına uyğun olaraq aşağıdakı qaydada bölmüşük:

– Birinci dərs 102-105-ci səhifələri əhatə edir.
– İkinci dərs saatı 106-cı səhifədən başlayıb 111-ci səhifəyədəki Yakobin diktaturası yarımbaşlığınadək olan məlumatları özündə əks etdirir.
– Üçüncü dərs 111-ci səhifədəki Yakobin diktaturası yarımbaşlığından paraqrafın sonunadək olan materialları əhatə edir.
– 8-ci sinif Ümumi tarixin bəzi fənn standartlarından hər dərsdə reallaşdırılmasının çətin olduğunu nəzərə alaraq biz müəllif olaraq 4-cü saatı bu standartların reallaşdırılmasına həsr edilməsini tövsiyyə edərdik. Bu zaman da siz 1.1.2., 1.1.3., 2.1.2., 3.1.2., 4.1.2. standartlarının reallaşdırılması üçün yaxşı imkan əldə etmiş olarsınız.

Hər bir dərs saatının  tədrisi zamanı müvafiq səhifələrdə yer alan sxemləri, şəkilləri, illüstrasiyaları, xəritələri, sual və tapşırıqları, "maraqlıdır" başlıqlı məlumatları diqqətlə nəzərdən keçirməniz mütləqdir. Çünki hər bir əyani vəsaitin özündə bir informasiya vardır. Onu da qeyd edək ki yuxarıda sizə təqdim etdiyimiz tədris bölgüsü mütləq deyil. Bu bölgünü siz dəyişə və yeni bölgü forması yarada bilərsiniz.

**Alt standart.**

2.1.1. Feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, dünyada baş vermiş iqtisadi, sosial dəyşiklikləri məkanla əlaqədə izah edir.

**Təlim məqsədi.**

Fransada feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, ölkədə baş vermiş iqtisadi, sosial dəyşiklikləri məkanla əlaqədə izah edir.

**Təlim forması.** Böyük qruplarla iş, fərdi iş
**Təlim üsulu.** Söz assosasiyası, fasiləli oxu.

**Dərsin mərhələləri.**

**Motivasiya:** Söz assosasiyası üsulundan istifadə etməklə motivasiyanızı qura bilərsi-

niz. Bunun üçün lövhədə baş ştatlar, XI Lüdoviq, yüzillik müharibə, jaklar üsyanı, Janna Dark, Frank dövləti və s. sözləri yazılır və şagirdlərə;

– Bu sözlər sizə nə deyir?
– Bu sözlərli birləşdirən ümumi cəhətlər hansılardır?

kimi suallarla müraciət olunur. Alınan cavabları ümumiləşdirib şagirdlərin diqqətini tədqiqat sualına yönəltməyiniz vacibdir.

Motivasiyanın hansı yollarla rellaşdırılmasından aslı olmayaraq əsas odur ki, şagirdlərdə fərziyyələr yaransın, eləcə də motivasiya uzun vaxt aparmasın. Düşündürücü və 4-5 dəqiqəyə baş tutacaq olarsa daha səmərəli olar.

**Tədqiqat sualı:** Fransada feodal münasibətlərinin dağılması necə baş verdi?

**Tədqiqatın aparılması:** Bu mərhələni həyata keçirmək üçün fasiləli oxu üsulundan istifadə etmək olar. Məlum olduğu kimi bu usulla dərsi keçən zaman şagirdlərə növbə ilə mövzunu oxudub müəyyən hissələrdə fasilələrə yol verirməlisiz. Mövzuarası verilmiş sual və tapşırıqlar sizin fasilə edəcəyiniz hissələr ola bilər. Siz şagirdlərin səviyyəsindən aslı olaraq bu fasilələri mürəkkəb görünən və düşünməyə, eləcə də mülahizələr söyləməyə imkan yaradan hissələrdə də edə bilərsiniz. Və bu zaman da şagirdlərə dərslikdə verilmiş sual və tapşırıqlarla müraciət edə bilərsiz.

– Fransada milli siyasi birlik və vətənpərvərliyin olmamasının səbəblərini müəyyən edin.
– Rüşvətin dövlət idarəçiliyinə və onun gələcək fəaliyyətinə təsirini araşdırın.
– Fransanın ABŞ-dakı proseslərə yardım etməsinin səbəb və nəticələrini müəyyən edin.
– İngiltərə və Fransa maarifçiliyini müqayisə edin.
– Russonun ideyalarının digər maarifçilərin ideyaları ilə oxşar və fərqli cəhətlərini müəyyən edin.

Verilən sual və tapşırıqların müzakirəsi zamanı şagirdlərin cavablarına hörmətlə yanaşın. Şagirdlərə verəcəyiniz suallar onların əvvəllər əldə etdikləri biliklərinin üzə çıxmasına şərait yaradacaq. Onlar həm dərslikdə verilən məlumatlardan nəticə çıxarmaqla, həm də əvvəllər öyrəndikləri materiallara istinad etməklə faktlar söyləyəcəklər. Şagirdlərin izahı onların münasibət bildirmə, izah etmə bacarıqlarını da formalaşdırmaqda yardımçı olar.

Tövsiyə edirik ki, şagirdlər öz fikirlərini söyləyərkən ən zəruri sayılan məqamları lövhədə və ya flipçartda (bunu vatman kağızı da əvəz edə bilər) qeyd etsin. Çünki bu fikirlər sonda ümumiləşdirmə və nəticələrin əldə olunması zamanı lazım olar. Fasiləli oxu zamanı təkcə mövzunu əhatə etmiş sual və tapşırıqlar deyil, xəritə və əyani vəsaitlər də diqqət mərkəzində saxlanılmalıdır. Mövzunun oxunuşu zamanı fasilə verməklə qısa vaxt ərzində şagirdlərin qiymətləndirməsini həyata keçirə bilərsiniz.

Fasiləli oxu bitdikdən sonra mövzu ilə yekun müzakirə aparıb dərsin məlumatın mübadiləsi və müzakirəsi mərhələsinə keçid əldə edə bilərsiz. Burada siz şagirdlərə əlavə olaraq inqilab ərəfəsində Fransanın iqtisadi, siyasi vəziyyəti ilə sosial durumu ilə bağlı əlavə sual və tapşırıqlar verə bilərsiz. Şagirdlərin verdikləri cavablar dinlənilir. Deyilən arqumentlər lövhədə qeydə alınır. Səslənmiş fikirlər müzakirə edilir. Bununla da siz dərsin bu mərhələsini yekunlaşdırmış olarsiz. Yaddan çıxartmaq lazım deyi, dərsin məqsədlərinə və tədqiqat sualına yönəlmiş olan sualları əvvəlcədən hazırlamağınız vacibdir.

Bu zaman şagirdlərə özünüqiymətləndirmə üçün aşağıdakı cədvələ uyğun qiymətləndirmə nümunəsini verə bilərsiniz.

Şagirdin adı, soyadı

___________________

| Dərsdə diqqətli idim | Məntiqli yanaşmam var idi | Sual-cavabda aktiv idim | Tapşırığı tam və düzgün yerinə yetirdim | Əməkdaşlıq etdim | Etiket qaydalarına riayət etdim |
|---|---|---|---|---|---|
| | | | | | |

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsi ümumiləşdirmək üçün siz şagirdlərə aşağıdakı ümumiləşdirici sual və tapşırıqlarla müraciət edə bilərsiz.

– Sizcə Fransada məhkəmə sistemini niyə ədalətli saymaq olmazdı?
– XVIII yüzilliyin əvvəllərində Fransanı iqtisadi və siyasi cəhətdən sarsıdan nə olmuşdur?
– Yeddiillik müharibənin Fransa üçün hansı nəticələri oldu?
– Fransa İngiltərə ilə müharibədə Şimali Amerika koloniyalarına kömək etməklə gözlədiyi nəticələrə çata bildimi?
– XIV Lüdoviqin "dövlət mənəm" ifadəsini necə başa düşürsünüz?
– Maarifçilik nədir?

Dərsin gedişindəki müzakirələrlə yanaşı ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində aparılan müzakirələr nəticəsində şagirdlər Fransada feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını səbəblərini sadalayarlar. Eləcə də ölkədə baş vermiş iqtisadi, sosial dəyşiklikləri məkanla əlaqədə izah edə biləcəklər.

**Yaradıcı tətbiqetmə:** 6-7 sözdən ibarət Fransa tarixinə dair krossvord tərtib edin.

**Qiymətləndirmə meyarı:** İzah etmə.

Təlim məqsədinə uyğun olaraq aparılan qiymətləndirmə dərsin bütün mərhələlərində həyata keçirilə bilər. Şagirdləri bilik və bacarıqlarını əsasən 4 səviyyə üzrə qiymətləndirin. Bu səviyyələr meyara uyğun həyata keçirilməlidir. Bu səviyyələr ən zəif bacarığa malik olan şagirddən tutmuş ən yüksək bacarıqlı şagirdə görə dəyişə bilər.

**Refleksiya** üçün aşağıdakı suallardan istifadə edə bilərsiniz.

– Dərsdə hansı yeniliyi öyrəndiz?
– Sizin üçün dərsin ən önəmli nəticəsi nə oldu?
– Sizə nə aydın olmadı?
– Hansı suallarınız var? və.s




10

*II saat*

# FRANSA

Mütləqiyyət, maarifçilər, inqilab, respublika, yakobinçilər, Direktoriya, Napoleon Bonapart

**Alt standart.**

3.1.1. Dövlətlərin (İngiltərə, Fransa, Rusiya, ABŞ, Osmanlı, İran, Çin, Hindistan, Mərkəzi Asiyanın türk dövlətləri, Qazaxıstan, Krım, Sibir, Volqaboyu, Qafqaz xalqları) yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil edir.

**Təlim məqsədi.**

Fransa respublikasının yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil edir.

**Təlim forması**. Böyük və kiçik qruplar iş, fərdi iş
**Təlim üsulu.** Anlayışın çıxarılması, "iki həqiqət və bir yalan", "X-O" oyunu

**Dərsin mərhələləri.**

**Tədqiqat sualı:** Fransa respublikası necə quruldu?

**Tədqiqatın aparılması:** "İki həqiqət və bir yalan" üsulunun köməyi ilə dərsin tədqiqatın aparılması mərhələsini həyata keçrə bilərsiniz. Bu zaman sinfi kiçik qruplara bölüb, hər qrupa bir mövzu verib onlara növbəti tapşırığı verin:

- Bu mövzuya haqqında üç fikir yazın.
- Yazdığınız bu üç fikirdən ikisi doğru, biri isə yalan olmalıdır. Bu zaman yalan doğruya bənzəməli, doğru fikirlər isə bir qədər qəribə görünməlidir.
- Yazdığınız fikirlər kitab cümləsi olmasın.

Təlim üsuluna uyğun olaraq qruplara aşağıdakı tapşırıqları verə bilərsiz.

**I qrup.** İnqilab ərəfəsində Fransada sosial vəziyyət haqqında fikirlərinizi yazın:
1. ______________________________________________
2. ______________________________________________
3. ______________________________________________

**II qrup.** Fransada inqilabın başlanması haqqında fikirlərinizi yazın:
1. ______________________________________________

2. ______________________________________________
3. ______________________________________________

**III qrup.** Fransada inqilabın qələbəsindən konstitusiyalı monarxiyanın qurulmasınadək olan hadisələr haqqında fikirlərinizi yazın:

1. ______________________________________________
2. ______________________________________________
3. ______________________________________________

**IV qrup.** Fransada konstitusiyanın qəbul olunması, respublikanın qurulmasına dair fikirlərinizi yazın:

1. ______________________________________________
2. ______________________________________________
3. ______________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi:** Tədqiqatın aparılması mərhələsi üçün nəzərdə tutduğunuz vaxt bitdikdən sonra hər bir qrupun təqdimatını etməsini təşkil edin. Bu zaman digər qruplar təqdim edilən bu üç fikirlərdən hansının səhv olduğunu təxmin etməlidir. Müzakirələr zamanı özünüzün də dərsin məqsədinə söykənəcək üç fikir söyləməyiniz (təbii ki ikisi doğru, biri yalan) məqsədəmüvafiq olardı. Bu sizin qarşınıza qoyduğunuz məqsədə çatmağa kömək etmiş olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Şagirdlərə yeni bilginin kəşfi yolunda atılan son addımı konkret nəticəyə gəlmək və ümumiləşdirmələr aparmaqdır ki onu da siz dərsinizin bu mərhələsində həyata keçirin. Bu proses zamanı şagirdlər nəinki əldə olunan bilgiləri ümumiləşdirməli, həm də gəldiyi nəticəni tədqiqat sualı ilə və irəli sürülmüş fərziyyələrlə müstəqil olaraq tutuşdurmalıdır. Müzakirə zamanı söylənilən fikirlərin ümumiləşdirilməsi, dərsin əvvəlində söylənilmiş fərziyyələrlə müqayisə aparılması və tədqiqat sualı ilə bağlı nəticə çıxarılmasına sizin verdiyiniz suallar da kömək edər. Bunun üçün sizə aşağdakı suallar yardımçı ola bilər.

– Sizcə XVI Lüdoviq inqilabın başlanmsının qarşısını almaq üçün nə etməli idi?
– Fransada inqilab başlamaya bilərdimi? Fikrinizi əsaslandırın.
– Ruhanilərin və zadəganların səsvermə məsələsində aşağı təbəqə ilə razılaşmamasının səbəbi nə idi?
– Konstitusiyalı monarxiya quruluşunu necə qiymətləndirərdiniz?
– 1791-ci il Konstitusiyasının əhəmiyyəti nə idi?

**Yaradıcı tətbiq etmə:** Dərsin bu mərhələsində şagirdlərə əvvəlki illərdə şagirdlərə təklif etdiyiniz "X-O" oyununu keçirə bilərsiniz. İlk öncə şagirdlərə "NÜMUNƏ-1"-dəki kimi vərəq paylayın.

**NÜMUNƏ-1**

| | | |
|---|---|---|
| 1 | 2 | 3 |
| 4 | 5 | 6 |
| 7 | 8 | 9 |

Əvvəlki illərdə bu üsulun tətbiq edilməsinə rəğmən şagirdlər bu oyunun qaydasını bilsələr də yaxşı olar ki çaşqınlığın olmaması üçün onlara bir də xatırladın: Sizə səsləndirəcəyəm cümlənin doğru olduğunu fikirləşirsinizsə sizə verdiyim cədvəlin birinci xanasına böyük bir "0" işarəsini çəkin. Yox əgər sizə səsləndirdiyim cümlə fikrinizcə səhvdirsə onda cədvəlin birinci xanasına böyük bir "X" işarəsi çəkin. Yaxşı olar ki bu deyilənlri lövhədə bu formada qeyd edəsiniz:

– "0" – doğrunu
– "X" – səhvi bildirir

Şagirdlərə səsləndirəcəyiniz cümlələr aşağıdakı formada ola bilər:

1. İnqilab ərəfəsində burjuaziya Fransada imtiyazlı təbəqə idi.
2. Milli Məclisin konstitusiya hazırlamaq addımı ilə Fransada inqilab başlamış oldu.
3. XVI Lüdoviq maliyyə məsələlərini həll etmək üçün 1789-cu ildə Baş ştatları çağırdı.
4. Özlərini Milli Məclis adlandıranlar aşağı təbəqə nümayəndələri idilər.
5. "İnsan və vətəndaş hüquqları haqqında Bəyannamə" İngiltərənin hüquqlar haqqında billi əsasında tərtib edildi.
6. İnqilabın əsas hərəkətverici qüvvəsi idi – tacirlər.
7. 1791-ci il konstitusiyasına əsasən icra hakimiyyətinin başçısı oldu – kral.
8. Fransada ilk respublika quruldu 1792-ci ildə.
9. Bastiliyanın alınması Fransa inqilabının tam qələbəsi idi.

Səsləndirdiyiniz cümlələrə şagirdlər tərəfdən doğru cavab verilsə cədvəliniz aşağıdakı formada doldurulacaq:

**NÜMUNƏ-1**

| | | |
|---|---|---|
| 1 X | 2 X | 3 X |
| 4 X | 5 X | 6 X |
| 7 X | 8 X | 9 X |

**Qiymətləndirmə meyarı:** Təhli etmə.

Yuxarıda verilmiş meyar əsasında, dərs izləməsi nəticəsində şagirdlərin qiymətləndirilməsini həyata keçirin. Unutmayın ki qiymətləndirmə zamanı siz çagirdlərin informasiyanı yadda saxladığını yox, bu informasiyanı anlamaq səviyyəsini və hər hansı problemin həll edilməsi zamanı həmin bilikdən istifadə etmək bacarığını daha çox nəzərə almalısınız.

Qrupları qiymətləndirən zaman aşağıdakı qrup qiymətləndirmə vərəqindən də yararlana bilərsiniz.

| Qruplar | Mübadilədən düzgün istifadə | Tapşırığın vaxtında yerinə yetrilməsi | Əməkdaşlıq | Təqdimetmə | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |



# 10

*III saat*

# FRANSA

Mütləqiyyət, maarifçilər, inqilab, respublika, yakobinçilər, Direktoriya, Napoleon Bonapart

**Alt standartlar:**

1.1.2. Oxşar proses və hadisələri əlaqələndirən sinxron cədvəllər tərtib edir.

3.1.1. Dövlətlərin (İngiltərə, Fransa, Rusiya, ABŞ, Osmanlı, İran, Çin, Hindistan, Mərkəzi Asiyanın türk dövlətləri, Qazaxıstan, Krım, Sibir, Volqaboyu, Qafqaz xalqları) yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil edir.

**Təlim məqsədləri:**

1. Fransa tarixində baş verən oxşar proses və hadisələrin sinxron cədvəllərini tərtib edir.
2. Fransa Respublikasının yaranmasını, idarəçilik formalarını, siyasi münasibətləri təhlil edir.

**Təlim forması:** Böyük və kiçik qruplarla iş

**Təlim üsulu:** "Üç cümlə"

**Dərsin mərhələləri.**

**Tədqiqat sualı:** Fransa Respublikası ilə Avropa ölkələri arasında siyasi münasibətlər necə qurulmuşdu?

**Tədqiqatın aparılması:** Tədqiqatın aparılmasını fəal təlimin "üç cümlə" üsulundan istifadə etməklə həyata keçirə bilərsiz. Bu üsulla keçilən dərs zamanı şagirdlərə verilmiş tapşırığı əsaslandırılmış şəkildə daha qısa həcmdə vermək tapşırığını verin. Və sonra onlara növbəti tövsiyyələri xatırladın –hansı qrup hekayəni daha qısa yazıbsa o qalib gəlir. Bu zaman məzmun əsas götrülür. Bunun ardınca qruplara tədqiqat üçün aşağıdakı sual və tapşırıqları verə bilərsiz.

**I qrup.**

Yakobin diktaturası dövrünü təhlil edin.

______________________________________________________________

______________________________________________________________

**II qrup.**
Fransa inqilabının nəticələrini təhlil edin.

**III qrup.**
Koalisiya müharibələrini təhlil edin.

**IV qrup.**
General Napoleonun fəaliyyətini təhlil edin.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra dərsin mübadilə və müzakirə mərhələsini həyata keçirin. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim etməlidirlər. Cavabları diqqətlə dinlənləyib, onların müzakirə olunmasına, əlavələr edilməsinə şərait yaradın. Dərsin bu mərhələsində bütün sinif şagirdlərinin müzakirələrdə iştirakını təmin etməyə çalışın. Çünki müzakirələrdə çox sayda şagirdin iştirakı sizə ümumi nəticəyə gəlməyə yardım etməklə yanaşı, qiymətləndirməni rahat həyata keçirməyə, şagird fəallığını təmin etməyə ümumilikdə dərsi maraqlı etməyə kömək etmiş olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Aparılan tədqiqatın ümumi nəticəsini çıxartmaq üçün bu mərhələdə siz şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət edə bilərsiniz.

- Yakobin diktaturası dövrünü necə qiymətləndirərdiniz?
- İnqilabi Fransa ilə mübarizədə Avropa dövlətləri nə üçün aralarında olan fikir ayrılıqlarına son qoydu?
- Yakobinçilərin fəaliyyətlərinin müsbət cəhətlərini sadalayın.
- Yakobinçilərin fəaliyyətlərinin mənfi cəhətlərini sadalayın.
- İngiltərə ilə mübarizə aparan Fransa hansı yolla İngiltərəni sülhə məcbur etmək istəyirdi?

**Yaradıcı tətbiqetmə:** Yakobinçilərin hakimiyyət dövrü və Direktoriya dövrünə aid sinxron cədvəl tərtib edin.

**Qiymətləndirmə meyarları:** Tərtib etmə, təhlil etmə.
Formativ qiymətləndirmənin şagirdini fərdi xüsusiyyətlərini öyrənmək üçün böyük əhəmiyyəti vardır. Müəllim olaraq şagirdin şifahi cavabını dinləmək, onun hər hansı təqdimatını müşahidə edərək, onun bu və ya digər bilik və bacarıqlara yiyələndiyini, həmçinin şagirddə düşüncə tərzinin nə dərəcədə inkişaf etdiyini, təqdim etmə, təhlil etmə, iza-

hını vermə, şərh etmə və s. bacarıqlarını müəyyənləşdirir. unutmayın ki qiymətləndirmə sizin dərsi izləməniz nəticəsində baş verməlidir. Siz dərsin bu son mərhələsində yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla səviyyələr üzrə şagirdləri qiymətləndirə bilərsiniz.

Qrup iştirakçisinin özünüqiymətləndirmə vərəqi.

**Ad soyad** ___________________________
**Tarix** _______________________

| Meyarlar | Demək olar ki heç vaxt | Heç vaxt | Bəzən | Tez-tez | Həmişə |
|---|---|---|---|---|---|
| Fəal iştirak edirdim. | | | | | |
| Tapşırıqları yerinə yetirirdim. | | | | | |
| Öz ideyalarını dəqiq izah edirdim. | | | | | |
| Başqalarını dinləyir və dəstəkləyirdim. | | | | | |

10

*IV saat*

## FRANSA

Mütləqiyyət, maarifçilər, inqilab, respublika, yakobinçilər, Direktoriya, Napoleon Bonapart

***Qeyd:*** Bu dərs icmalı mövcud paraqrafın tədrisi üçün nəzərdə tutulan dördüncü saatdır. Birinci dərs saatının icmalı zamanı "qeyd" bölməsində bu dərs saatını 1.1.2., 1.1.3., 2.1.2., 3.1.2., 4.1.2. standartlarının reallaşdırılması həsr edə bilərsiniz. Deylənləri nəzərə alaraq məsləhət edərdik ki mövcud dərsi 1.1.3. və 4.1.2. standartlarını reallaşdırmağın üzərində qurasınız.

**Alt standartlar.**

1. Hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir.
2. Tarixi şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır.

**Təlim məqsədləri.**

1. XVIII yüzilliyin II yarısında Fransada baş verən hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir.
2. Fransa tarixində mühüm rol oynayan şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır.

**Təlim forması.** Böyük qruplarla və kiçik qruplarla iş
**Təlim üsulu.** Cədvəl qurmaq

**Dərsin mərhələləri.**
***Qeyd:*** Əslində tədris edəcəyiniz bu dərs artıq şagirdlərə tanış olan materiallar üzərində qurulmuş, keçilmiş materialların təkraraən nəzərdən keçirilməsinə, lakin yeni araşdırmalara yol açan bir dərs formasıdır. Deyilənləri nəzərə alaraq bu dərs üçün tədqiqat sualının qoyulmasını lazım bilmədik.

**Tədqiqatın aparılması:** Tədqiqatın aparılması "XVIII yüzilliyin II yarısında Fransada baş verən hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edilməsi" və "Fransa tarixində mühüm rol oynayan şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlanması" məqsədlərinin yerinə yetirilməsinə yönəldilməlidir. Bunun üçün siz şagirdlərə tədqiqat üçün 10-cu paraqrafın bütün materialını əhatə edən aşağıdakı tapşırıqları verə bilərsiniz.

**I qrup.**
Fransada birinci və ikinci Respublika dövründəki hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəl tərtib edin.
**II qrup.**
Napoleonun Nadir şahla oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayın.

**III qrup.**
Fransanın 1789–1795-ci illərdəki hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edin.

**IV qrup.**
Robespyerin Oliver Kromvellə oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayın.

Şagirdlərin qrup işini meyarlar üzrə qiymətləndirin. Yaxşı olar ki meyarları əvvəlcədən hazırlayıb sinifin görünən hissəsindən asıb və şagirdlərə qrup işlərinin bu meyarlarla qiymətləndiriləcəyini əvvəlcədən elan edəsiniz.

| Qruplar | Mübadilədən düzgün istifadə | Tapşırığın vaxtında yerinə yetrilməsi | Əməkdaşlıq | Təqdimetmə | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I qrup | | | | | |
| II qrup | | | | | |
| III qrup | | | | | |
| IV qrup | | | | | |

**Məlumatın mübadiləsi və müzakirəsi:** Əldə edilən nəticələrin müzakirəsi bütün bilik, bacarıq və vərdişlərin, təfəkkürün müxtəlif növlərinin (məntiq tənqidi, yaradıcı) səfərbərliyini tələb edir. Bu zaman siz fasilitasiya əsasında (yönəldici, köməkçi suallardan istifada etməklə) əldə edilmiş faktların məqsədyönlü müzakirəsinə və onların təşkilinə kömək etməlisiniz. İnformasiyanın təşkili bütün faktlar arasında əlaqələrin aşkara çıxarılmasına və onların sistemləşdirilməsinə yönəldilməlidir. Hazırlaşmaq üçün qruplara ayrılmış vaxt bitdikdən sonra hər birinin öz təqdimatını etməsinə şərait yaradın. Bu zaman siz təqdimat ətrafında müzakirələrin aparılması üçün konkret vaxt ayırmağı yaddan çıxartmayın. Təqdimatlar edilərkən şagirdlərin yarımçıq işlədikləri tapşırıqların tamamlanması üçün digər qruplardan kömək istəyə bilərsiniz. Bu zaman şagirdləri lazımi məcraya yönəltmək, suallar vermək lazım gələcək. Müzakirələr zamanı şagirdlərin də yerdən suallar verməsini təmin etməyi yaddan çıxartmayın.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Məlumatın mübadiləsi və müzakirəsi mərhələsi aparılan araşdırmanın yekunlaşdırılması, yeni biliklərin ümumiləşdirilməsi, nəticə çıxarılması məqsədi ilə aparılmalıdır. Qrup təqdimatları zamanı müzakirə şagirləri ortaq mövqeyə gəlməyə, ümumi qənaətlərə istiqamətləndirər.

**Yaradıcı tətbiqetmə:** “Feodalizmə zərbə vuran inqilab” başlıqlı afişa yaradılmasını tapşırın.

**Qiymətləndirmə meyarları:** Tərtib etmə, cədvəl hazırlama.

Formativ qiymətləndirmə siz tərəfdən məzmun standartı əsasında müəyyənləşdirilməli və təlim məqsədləri üzrə hazırlanmış meyarlarla aparılmalıdır.

Qiymətləndirmənin istənilən prosesin təkmilləşdirilməsini təmin edən bir mexanizm, təhsilin keyfiyyətinin yüksəlməsinə xidmət edən əks -əlaqə vasitəsi olduğunu nəzərə alaraq dərs prosesində şagirdlərin qiymətləndirilməsi zamanı yuxarıdakı meyarları nəzərə almağınız vacibdir. Bu məqsədlə qiymətləndirəcəyiniz şagirdləri dərs boyu diqqətdə saxlamalı və fəaliyyətlərini izləməlisiniz. Dərsin sonunda onları yuxarıda verilmiş meyar nəzərə alınmaqla səviyyələr üzrə qiymətləndirmək olar.



# 11

*I saat*

# RUSİYA

Romanovlar, “Məclis Qanunnaməsi”, I Pyotr, “Şimal müharibəsi”, II Yekaterina, Yassı müqaviləsi

***Qeyd:*** Mövcud paraqrafın tədrisinə 2 saat vaxt nəzərdə tutulmuşdur. Bu paraqraf dərsliyin 118-ci səhifəsində başlayıb 127-ci səhifəsində bitir. Dərslik müəllifi olaraq biz bu paraqrafı tədris saatına uyğun olaraq aşağıdakı qaydada bölmüşük. Bu bölgü mütləq deyil, bir məsləhətdir. Bölgünü təlim strategiyanıza uyğun olaraq istədiyiniz formada dəyişə bilərsiniz.

- 118-ci səhifədən 124-cü səhifədəki I Pyotrun islahatları yarımbaşlığınadək bütün (şəkil, illüstrasiya, sxem, sual, tapşırıq, xəritə, naraqlı məlumat və s.) məlumatlar I tədris saatı üçün nəzərdə tutulmuşdur.
- İkinci tədris saatı 124-cü səhifədəki I Pyotrun islahatları yarımbaşlığından başlayıb paraqrafın sonunadək 128-ci səhifəyədək məlumatları özündə əks etdirir.

**Alt standartlar:**

3.1.1. Dövlətlərin (İngiltərə, Fransa, Rusiya, ABŞ, Osmanlı, İran, Çin, Hindistan, Mərkəzi Asiyanın türk dövlətləri, Qazaxıstan, Krım, Sibir, Volqaboyu, Qafqaz xalqları) yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil edir.

3.1.2. Yeni tipli dövlətlərin qeyri-bərabər inkişafına aid esse yazır.

**Təlim məqsədləri:**

1. Rusiya dövlətinin idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil edir.
2. Rusiya dövlətinin qeyri-bərabər inkişafına aid esse yazır.

**Təlim forması**: Böyük və kiçik qruplar
**Təlim üsulu:** Beyin həmləsi, müzakirə

**Dərsin mərhələləri**

**Motivasiya**: Motivasiyanı beyin həmləsi üsulundan istifadə edərək rahat qura bilərsiniz. Bunun üçün şagirdlərə:

- Azərbaycanın hansı qonşu dövlətləri var?
- Sizcə bu dövlətlərdən hansısı XVIII yüzillikdən etibarən Azərbaycan torpaqlarının işğallarına başladı?

Aldığınız cavablardan əldə edilən fərziyələri lazimi məcraya yönəldib dərsin motivasiyasını reallaşdıra bilərdiniz. Bunu ardınca tədqiqat sualını elan edin.

**Tədqiqat sualı:** XVII–XVIII yüzillikdə Rusiyada siyasi, sosial-iqtisadi münasibətlər necə inkişaf etdi?

**Tədqiqatın aparılması:** Tədqiqatın aparılmasını kiçik qruplarla iş formasında aparılamsını tövsiyyə edərdik. Fəal təlimin müzakirə üsulundan istifadə etməniz daha yaxşı olardı. Bu zaman qruplara tədqiqat üçün aşağıdakı sualları verə bilərsiniz.

**I qrup.**
XVII yüzilliyin ikinci yarısında Rusiyanın sosial-iqtisadi vəziyyətini təhlil ediin.

**II qrup.**
XVII yüzilliyin ikinci yarısında Rusiyanın siyasi vəziyyətini təhlil ediin.

**III qrup.**
XVII yüzilliyin ikinci yarısında Rusiyanın xarici siyasətini təhlil ediin.

**IV qrup.**
XVIII yüzilliyin birinci yarısında Rusiyanın siyasi vəziyyətini təhlil ediin.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra məlumatın mübadiləsi və müzakirəsi mərhələsini həyata keçirin. Bu mərhələdə iştirakçılar tədqiqatın gedişində əldə etdikləri tapıntıların, yeni informasiyanın mübadiləsini aparırlar. Qrup təqdimatı zamanı təqdim edilən cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Qoyulmuş suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir - birinin təqdimatını fəal dinləməyə sövq edir. Müəllim olaraq müzakirə zamanı fasilitasiya əsasında (yönəldici, köməkçi suallardan istifada etməklə) əldə edilmiş faktların məqsədyönlü müzakirəsində və onların təşkilində şagirdlərə kömək edin.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Şagirdlərin yeni bilginin kəşfi yolunda son addımı konkret nəticəyə gəlmək və ümumiləşdirməni aparmaqdır. Aparılan araşdır-

manın yekunlaşdırılması, yeni biliklərin ümumiləşdirilməsi, nəticə çıxarılması məqsədi ilə aparılan müzakirə şagirləri ortaq mövqeyə gəlməyə, ümumi qənaətlərə istiqamətləndirir. Müzakirə zamanı söylənilən fikirlərin ümumiləşdirilməsi, dərsin əvvəlində söylənilmiş fərziyyələrə müqayisə aparılması və tədqiqat sualı ilə bağlı nəticə çıxarılması üçün siz şagirdlərə aşağıdakı suallarla müraciət edə bilərsiniz.

– Sizcə manufakturaların Rusiyanın iqtisadi inkişafına necə təsir göstərdi?
– 1649-cu il məclis qanunnaməsini necə qiymətləndirərdiniz?
– Proteksionist siyasətin yürüdülməsinin əhəmiyyəti nə idi?
– XVII yüzilliyin 80-90-cı illərində Rusiyanın Osmanlı dövlətinə qarşı apardığı mübarizənin nəticələrini necə təhlil etmək olar?
– Sizcə Şimal ittifaqının yaradılması təsadüf idimi? Fikrinizi əsaslandırın.

**Ev tapşırığı:** Rusiya dövlətinin qeyri-bərabər inkişafına aid esse yazın.

**Qiymətləndirmə meyarları:** Təhlil etmə, esse yazma.

Yeni biliyin mənimsənilməsinə bir daha nəzər salaıb, şagirdlərin təqdimatlarını, dərs zamanı müzakirələrdə iştirak səviyyəsini, verdikləri məntiqli cavabları barədə yığcam rəy mübadiləsi apararaq şagirdləri qiymətləndirə bilərsiniz. Bununla belə bu mərhələ zamanı siz müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğunuz şagirdin qiymətləndirəcəyiniz meyara hansı səviyyədə cavab verdiyini dəqiqləşdirə bilərsiniz. Sonuncu meyarı qiymətləndirmək verdiyiniz ev tapşırığının yerinə yetrilməsindən sonra mümkün olacaq.

Əvvəlcədən müəyyən etdiyiniz meyarlar əsasında qrupları da qiymətləndirə bilərsiniz.

| Qruplar | Mübadilədən düzgün istifadə | Əməkdaşlıq | Tapşırığın vaxtında yerinə yetrilməsi | Təqdimetmə | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I qrup | | | | | |
| II qrup | | | | | |
| III qrup | | | | | |
| IV qrup | | | | | |



# 11

*II saat*

# RUSİYA

Romanovlar, “Məclis Qanunnaməsi”, I Pyotr, “Şimal müharibəsi”, II Yekaterina, Yassı müqaviləsi

**Alt standartlar:**

2.1.2. Dövlətlərin və xalqların həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür.

4.1.1. Tarixi şəxsiyyətləri (Oliver Kromvel, Maksimilian Robespyer, I Pyotr, II Yekaterina, Corc Vaşinqton, Benjamin Franklin, Köprülü Mehmet paşa, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar) müqayisə edir.

**Təlim məqsədləri:**

1. Rusiyanın həyatında baş verən ərazi dəyişikliklərini kontur xəritələrə köçürür.
2. I Pyotru və II Yekatrinanı tarixi şəxsiyyətlərlə müqayisə edir.

**Təlim forması:** Kollektiv, fərdi
**Təlim üsulu:** Karvan üsulu.

**Dərsin mərhələləri:**

**Tədqiqat sualı:** I Pyotr və II Yekatrina Rusiyanın tarixində hansı rolu oynadılar?

**Tədqiqatın aparılması:** Tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün sizə əvvəlki dərslərdən tanış olan Karvan üsulundan istifadə etməyi məsləhət görərdik. Bunun üçün şagirdləri 4 qrupa ayrımaq və 4 flipçartda hərəsində mövzu ilə bağlı bir sual qoymaq lazımdır. Qruplar növbə ilə saat əqrəbi istiqamətində suallara ən azı 3 cavab yazmalı, bunun ardınca növbə ilə digər qrupların cavablarını qiymətləndirərək öz cavablarını yazmalıdırlar. Hər cavabın qarşısında üç işarədən biri qoyulur: razıyam (✔), razı deyiləm(), başa düşmədim (?) işarəsi qoyulur. Qruplara fərqli rəngli qələmlər (qırmızı, qara, göy, yaşıl və s.) verilməsi məqsədəmüvafiqdir.. Qruplarda olan üzvlərə iş tapşırıla bilər: vaxta nəzarət, yazan, təqdimatçı, nəzarətçi və s.

**I Qrup:**

1. Suallara ən azı 3 cavab yazın.
2. Digər qrupların cavablarını qiymətləndirərək öz cavablarını yazın. Hər cavabın

qarşısında üç işarədən biri qoyun: razıyam (✓), razı deyiləm(), başa düşmədim (?)

**Tapşırıq:** I Pyotrun və II Yekatrinanın yürütdüyü xarici siyasətini necə müqayisə edərdiniz?

**II Qrup:**

1. Suallara ən azı 3 cavab yazın.
2. Digər qrupların cavablarını qiymətləndirərək öz cavablarını yazın. Hər cavabın qarşısında üç işarədən biri qoyun: razıyam (✓), razı deyiləm(), başa düşmədim (?)

**Tapşırıq:** I Pyotr və II Yekatrina Rusiyanın tarixində hansı rolu oynadılar?

**III Qrup:**

1. Suallara ən azı 3 cavab yazın.
2. Digər qrupların cavablarını qiymətləndirərək öz cavablarını yazın. Hər cavabın qarşısında üç işarədən biri qoyun: razıyam (✓), razı deyiləm(), başa düşmədim (?)

**Tapşırıq:** I Pyotr islahatlarını necə təhlil edərdiniz?

**IV Qrup:**

1. Suallara ən azı 3 cavab yazın.
2. Digər qrupların cavablarını qiymətləndirərək öz cavablarını yazın. Hər cavabın qarşısında üç işarədən biri qoyun: razıyam (✓), razı deyiləm(), başa düşmədim (?)

**Tapşırıq:** XVIII yüzilliyin II yarısında Rusiyanın xarici siyasətinin ana xəttini necə qiymətləndirərdiniz?

Təbii ki, qrup işləri mütləq meyarlar əsasında dəyərləndirilməlidir. Sizə təqdim etdiyimiz meyarlar tövsiyə xarakterlidir. İstədiyiniz meyarı qrup qiymətləndirmə meyarları qisminə əlavə edə bilərsiniz.

| Qruplar | Tapşırığın düzgün yerinə yetrilməsi | Əməkdaşlıq | Vaxta qənaət | Təqdimetmə | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I qrup | | | | | |
| II qrup | | | | | |
| III qrup | | | | | |
| IV qrup | | | | | |

**Məlumatın müadiləsi və müzakirəsi:** Müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Qrupların işlərini təqdim etmələri üçün vaxt elan edin. Çünki şagirdlərin işlərinin təqdimatına məhdudiyyət qoymasaz digər işlərinizi çatdıra bilməzsiniz. Təqdimat zamanı şagirdlərin qoyduqları işarələrin mənası açılır. Hər qrup işini müdafiə edir. Tədqiqatın gedişində şagirdlər əldə etdikləri məlumatları, yeni informasiyanın mübadiləsini aparırlar. Taqdimat bir növ yeni biliklərin dairəsini cızır və hələlik bu biliklər natamam və xaotik xarakter daşıyır. Yeni bir tələbat-həmin bilikləri qaydaya salmaq, sistemləşdirmək, müəyyə bir nəticəyə gəlmək üçün tədqiqat sualına cavab tapmaq zərurəti bütün bilik, bacarıq və vərdişlərin, təfəkkürün müxtəlif növlərinin (məntiq tənqidi, yaradıcı) səfərbərliyini tələb edir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsin bu mərhələsində şagirdlər əldə etdikləri bilgiləri ümumiləşdirməli, gəldiyi nəticəni tədqiqat sualı ilə və irəli sürülmüş fərziyyələrlə müstəqil olaraq tutuşdurmalıdır. Bu proses zamanı müəllim olaraq öz yekun sözlərinizlə şagirdləri son nəticələrə yönəldib tətqiqat sualına cavab tapın. Bu zaman siz şagirdlərə aşağıdakı sualları verə bilərsiniz.

- I Pyotrun Rusiya tarixində oynadığı rolu necə qiymətləndirərdiniz?
- I Pyotru Nadir şahla necə müqaisə edərdiniz?
- Sizcə XVIII yüzillik ərzində Rusiya nəzərdə tutduğu məqsədlərini həyata keçirə bildimi? Fikrinizi əsaslandırın.
- II Yekatrinanı Napoleonla necə müqaisə edərdiniz?
- II Yekatrinanın Rusiya tarixində oynadığı rolu necə qiymətləndirərdiniz?

**Yaradıcı tətbiq etmə:** Bu zaman şagirdlərə Rusiyanın həyatında baş verən ərazi dəyişikliklərini kontur xəritələrə köçürmək tapşırığını verin. Bunun üçün Metodik Vəsaitin sonunda verilmiş kontur xəritələrdən istifadə edə bilərsiniz.

**Qiymətləndirmə meyarları:** Kontur xəritələrə köçürmə, təhlil etmə.

Şagirdlərin formativ qiymətləndirilməsi zamanı siz daha çox onların informasiyanı anlamaq səviyyəsini, mühakimə yürütmə, təqdimetmə, təhlil etmə, qiymətləndirmə, dəyərləndirmə və s. bu kimi idraki bacarıqlarını, eləcə də hansı problemin həll edilməsi zamanı həmin bilikdən istifadə etmək bacarığını nəzərə almalısınız. Formativ qiymətləndirmə siz tərəfdən, məzmun standartı əsasında müəyyənləşdirilməli və təlim məqsədləri üzrə hazırlanmış meyarlarla aparılmalıdır.

Dərsin sonunda şagirdlərə özünüqiymətləndirmə vərəqini təklif edə bilərsiniz.

**Ad, soyad, ata adı.** ______________________

**Tarix.** ______________

Aşağıda sadalananlar barədə öz şəxsi keyfiyyətlərini necə qiymətləndirirsən?

| Meyar | Qeyri kafi | Kafi | Yaxşı | Əla |
|---|---|---|---|---|
| Əməkdaşlıq | | | | |
| Səmimiyyət | | | | |
| Başqalarına kömək | | | | |
| Başqalarına hörmət | | | | |
| Dinləmək bacarığı | | | | |
| Səhvin etirafı | | | | |
| Düzlük | | | | |
| Hərəkət etməzdən qabaq düşünmək | | | | |
| Başqaları haqqında ədalətlə fikir yürütmə | | | | |




# 12

*I saat*

# MƏDƏNİYYƏT

Maarifçilik, Moskva Universiteti, Nyuton, Lomonosov, Molyer, Radişşev, Versal sarayı, Motsart

***Qeyd:*** Mövcud dərsin tədrisinə iki saat ayrılmışdır. Dərslik müəlifi olaraq Avropa və Şimali Amerika mədəniyyətinidən bəhs edən, 128-139-cu səhifələri əhatə edən "Mədəniyyət" paraqrafını tədris saatına uyğun olaraq aşağıdakı formada bölməyi məqsədəmüvafiq bilmişik. Bununla belə dərsi tədris edən praktik müəllim kimi siz "Mədəniyyət" mövzusunun necə keçrilməsində tam sərbəstsiz.

– Birinci tədris saatı 128-ci səhifədən başlayıb 132-ci səhifədəki "elm" yarımbaşlığınadək olan materialları özündə əks etdirir.
– İkinci tədris saatı 132-ci səhifədəki "elm" yarımbaşlığından paraqrafın sonunadək məlumatları əhatə edir.

**Alt standartlar.**
5.1.1. Şərq və Qərbdə intibah mədəniyyətinin xüsusiyyətlərini izah edir.
5.1.2. Elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edir.

**Təlim məqsədləri.**
1. Qərb mədəniyyətinin xüsusiyyətlərini izah edir.
2. Qərb mədəni nailiyyətlərin dünya mədəniyyətinin inkişafına təsirini izah edir.

**Təlim forması.** Böyük qruplarla iş, fərdi iş
**Təlim üsulu.** Söz assosasiyası, bir dəqiqə

**Dərsin mərhələləri.**
Motivasiya: Söz assosasiyası üsulundan istifadə etməklə motivasiyanı qurmaq mümkündür. Bunun üçün lövhədə təhsil, elm, maarif, memarlıq, musiqi, rəssamlıq, rəqs, mətbuat və s. sözləri yazılır və şagirdlərə;

– Lövhədə gördüyünüz sözlər sizə nə deyir?
– Bu sözlərli birləşdirən ümumi cəhətlər hansılardır?

kimi suallarla müraciət olunur. Alınan cavablar ümumiləşdirilir, şagirdlərin diqqəti keçiləcək dərsə yönəldilir və tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı.** Qərb mədəni nailiyyətlərin dünya mədəniyyətinin inkişafına necə təsir etdi?

**Tədqiqatın aparılması:** Tədqiqat sualı elan olunduqdan sonra dərsin tədqiqatın aparılması mərhələsini "bir dəqiqə" üsulu ilə keçməyiniz məqsədəmüvafiq olardı.

Bunun üçün şagirdlərə bu dərs üsulunun qaydalarını xatırlada (sizə, bir sual və ya bir cümlə bildiriləcək. Siz də öz növbənizdə səsləndirilən problemi bir dəqiqə ərzində durmadan şərh etməlisiz.) bilərsiniz. Bu üsulun tətbiqi zamanı aşağıdakı sual və tapşırıqlardan istifadə etmək məqədəmüvafiq olardı. Bu zaman sual və tapşırıqları əvvəlcədən qiymətləndirməyi planlaşırdığınız şagirdlərə verməyiniz məqsədəmüvafiq olardı.

Şagirdlərə materialla tanışlıq üçün vaxt verin. Verilən vaxt bitdikdən sonra aşağıdakı sual və tapşırıqlardan istifadə etməklə dərsinizi davam etdirə bilərsiniz.

- Rasionalizmin xüsusiyyətlərini izah edin.
- Avropada milli mədəniyyətin formalaşması dövrünün xüsusiyyətlərini izah edin.
- Kapitalizmin inkişafının mədəniyyətin inkişafına təsirini izah edin.
- Şimali Amerika təhsilinin inkişaf xüsusiyyətlərini izah edin.
- İngiltərə təhsilinin inkişaf xüsusiyyətlərini izah edin.
- Maarifçiliyin inkişaf xüsusiyyətlərini izah edin.
- Rusiya təhsilinin inkişaf xüsusiyyətlərini izah edin.
- Fransa təhsilinin inkişaf xüsusiyyətlərini izah edin.
- Almaniya təhsilinin inkişaf xüsusiyyətlərini izah edin.

***Qeyd:*** Hörmətli müəllim, yuxarıda verilmiş tapşırıqlar azlıq təşkil edərsə siz özünüz əlavə tapşırıqlar hazırlaya və ya eyni tapşırığı (təbii ki tam cavablandırılmayan tapşırığı) təkrarən digər şagirdə verə bilərsiniz.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Dərsin tədqiqatın aparılması mərhələsi bitdikdən sonra dərsin məlumatın mübadiləsi və müzakirəsi mərhələsinə keçə bilərsiz. Burada siz şagirdlərə əlavə olaraq Avropa və Şimali Amerika mədəniyyətinin inkişaf xüsusiyyətləri, Qərb mədəniyyətinin dünya mədəniyyətinə təsiri ilə bağlı əlavə sual və tapşırıqlar verə bilərsiz. Şagirdlərin verdikləri cavablar dinlənilir. Deyilən arqumentlər lövhədə qeydə alınır. Səslənmiş fikirlər müzakirə edildikdən sonra dərsin bu mərhələsini yekunlaşdıra bilərsiz. Yaddan çıxartmaq lazım deyi, dərsin məqsədlərinə və tədqiqat sualına yönəlmiş olan sualları əvvəlcədən hazırlamalısız.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsi ümumiləşdirmək üçün siz şagirdlərə aşağıdakı ümumiləşdirici sual və tapşırıqlarla müraciət edə bilərsiz.

- XVII-XVIII yüzilliklərdə Avropa mədəniyyətinin inkişaf xüsusiyyətlərini müəyyən edin.
- Avropa maarifçilərinin əsas məqsədləri nə idi?
- Sizcə Avropa maarifçilərinin fikir və ideyaları dünyada sosial və mədəni inkişafa kömək edibmi? Fikrinizi əsaslandırın.
- Avropa və Şimali Amerika təhsilində baş verən yenilikləri necə qiymətləndirərdiniz?
- Sizcə Qərb təhsili dünya təhsilinin inkişafına təsiri oldumu? Fikrinizi əsaslandırın.

Dərsin gedişindəki müzakirələrlə yanaşı ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində aparılan müzakirələr nəticəsində şagirdlər Qərb mədəniyyətinin xüsusiyyətlərini, Qərb mədəni nailiyyətlərin dünya mədəniyyətinin inkişafına təsirini izah edə bilərlər.

**Yaradıcı tətbiqetmə.** Biliklərin mənimsənilməsinin başlıca meyarı onun yaradıcı surətdə tatbiq etmə biliyi möhkəmləndirir, onun praktiki əhəmiyyətini uşağa açıb göstərir. Bu mərhələdə siz şagirdlərə "Avropa ölkələrinin təhsil sistemlərini müqayisə edərək oxşar və fərqli cəhətlərinə aid cədvəl qurulması" tapşırığını verə bilərsiniz.

**Qiymətləndirmə meyarları:** Xüsusiyyətlərini izah etmə, təsirini izah etmə.

Göstərilən meyarlar əsasında şagirdlərin formativ qiymətləndirməsini həyata keçirin. Siz formativ qiymətləndirməni müxtəlif vasitələrdən istifadə etməklə də yaza bilərsiniz. Qiymətləndirmə zamanı şagirdlərə aşağıdakı formada özünüqiymətləndirmə vərəqi verə bilərsiniz.

**Adı və soyadı** : ______________________________

**Tarix** _____________________________

Bu anket özünüqiymətləndirmə məqsədiylə hazırlanmışdır. Gördüyünüz işləri ən düzgün formada ifadə edən seçimi işarələyin (X)

| QABİLİYYƏTLƏR | DƏRƏCƏLƏR | | |
|---|---|---|---|
| | Bəli | Qismən | Xeyr |
| 1. Müəllimin izahlarını və məsləhətlərini dinlədim. | | | |
| 2. Təlimata əməl etdim. | | | |
| 3. Dərsdə diqqətli idim. | | | |
| 4. Dərsi pozmadım. | | | |
| 5. Anlamadığım tapşırıqlara aid sual verdim. | | | |
| 6. Tapşırığı yerinə yetirərkən vaxtdan düzgün istifadə etdim. | | | |
| 7. Dərsdə fəallıq göstərdim. | | | |

**ŞƏRHLƏR:**

______________________________________________________________________

______________________________________________________________________


Harvard Universiteti (müasir görünüşü)

Rusiya və Şimali Amerika təhsilində baş verən yeniliklərə aid cədvəli doldurun.

| Rusiya | Şimali Amerika |
|---|---|
| | |
| | |

**Elm.** Təhsil sahəsində tətbiq olunan yeniliklər müxtəlif elmlərin tərəqqisinə səbəb oldu. Manufakturaların və ticarətin inkişafı da bu məsələyə təsirsiz ötüşmədi.

İngilis alimi İsaak Nyutonun başlıca xidmətlərindən biri dünya cazibə qanununu kəşf etməsidir. O bu qanunu Günəş sistemi planetlərinin hərəkətlərini izah etmək üçün tətbiq etdi. Nyuton alman alimi Qotfrid Leybnitslə birlikdə ali riyaziyyatın əsasını qoydu.

İsaak Nyuton

132

Niderland alimi Antoni Levenhukun baxılan cismi 150-300 dəfə böyüdən linza ixtira etməsi bakteriyaları aşkara çıxarmağa imkan verdi. İngilis alimi Edvard Cenner çiçək xəstəliyinə qarşı hazırladığı peyvəndi öz ölkəsində tətbiq etməyə başladı.

Bu dövrdə Rusiyada elmin müxtəlif sahələri inkişaf edirdi. Rus coğrafiyaçıları Kuril adalarını, Alyaska yarımadasını kəşf etdilər.

Antoni Levenhuk

Qotfrid Leybnits

Edvard Cenner

133

# 12

*II saat*

# MƏDƏNİYYƏT

Maarifçilik, Moskva Universiteti, Nyuton, Lomonosov, Molyer, Radişşev, Versal sarayı, Motsart

**Alt standartlar.**
5.1.2. Elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edir.
5.1.3. Dünya mədəniyyətinin nailiyyətlərinə dair cədvəl və qrafiklər hazırlayır.

**Təlim məqsədləri.**
1. Avropa və Şimali Amerika elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edir.
2. Avropa və Şimali Amerika mədəni nailiyyətlərinə dair cədvəl hazırlayır.

**Təlim forması.** Böyük qruplar, fərdi iş
**Təlim üsulları.** Bitməmiş cümlələr

**Dərsin gedişi.**
**Tədqiqat sualı:** Qərb mədəni nailiyyətlərin dünya mədəniyyətinin inkişafına necə təsir etdi?

**Tədqiqatın aparılması:** Dərisn bu mərhələsində "bitməmiş cümlələr" üsulunun köməyi ilə şagirdlərə öz ideyalarının söylənilməsinə şəraiti yaradın. Bu zaman siz şagirdlərə səsləndirdiyiniz fikir ətrafında diqqətlə və dərindən işləmək, onları digərləri ilə müqayisə etmək, təklif olunmuş mövzu üzrə daha sərbəst danışmaq, fikirlərini müstəqil şərh etmək bacarığını inkişaf etdirmək imkanı vermiş olarsınız. Bunun üçün şagirdlərə qısaca bu üsulun izahını verməniz yaxşı olardı. "Uşaqlar indi mən sizə bir bitməmiş cümlə deyərəm və siz bu cümləni 2-3 arqumentlə tamamlamalısınız".

Sizin şagirdlərə səsləndirəcəyiniz "bitməmiş cümlələr" –iniz aşağıdakı formada ola bilər.

– Elmin inkişafını belə izah edərdim ki, ............................
– İsaak Nyutonun elmə verdiyi töhvələrin izahını belə verərdim ki. ...........................
– Rusiya elminin inkişafı haqda belə izah verə bilərəm ki, ....................
– Linzanın ixtira edilməsi haqqında mən ................... öyrəndim.
– Bencamin Franklin haqda informasiya bizə belə bir nəticə çıxarmağa imkan verir ki, .......................

- "Qulliverin səyahətləri" romanında ........................... tənqid atəşinə tuturdu.
- Batist Molyer haqda mən ............................. öyrəndim.
- Höte yaradıcılığını belə şərh etmək olar ki. .................
- Radişşevin yaradıcılığını belə qiymətləndirmək olar ki, ....................
- Bu günkü dərsdə mən barokko üslubu haqda ............................. öyrəndim.
- Rusiyada tanınmış memarlıq abidələrinin tikilməsini belə şərh edərdim ki, .....................
- Motsartın operalarının bu gün də səhnələrdə tamaşaya qoyulması bizə belə nəticə çıxarmağa imkan verir ki, ........................
- Dövrün rəssamlığı haqda belə izah verərdim ki, ............................
- Teatrın inkişafı haqda belə izah verə bilərəm ki, ....................

Səsləndirdiyiniz cümlənin tamamlanmasını bir neçə şagirddən istəyin. Müzakirənin sonunda lazım gələcəyi halda müəllim olaraq öz fikrinizi ifadə edib şagirdlərin fikirlərini yekunlaşdıra bilərsiniz. Vaxt bölgüsünü əvvəlcədən elan etməniz zəruridir ki, şagirdlər əlavə vaxt itkisinə şərait yaratmasınlar.

Əslində dərsin bu mərhələsində dərsin məlumatın mübadiləsi və müzakirəsi mərhələsini də yekunlaşdırılmış olursunuz. Şagirdlərin çıxışları bitəndən sonra müəllim kimi söz alıb öz fikirlərinizi ifadə edin. Bu zaman siz şagirdlərdən əlavə fikirlər ala, şagirdlərin fikirlərini yekunlaşdıra bilərsiniz.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Müzakirə başa çatdıqdan sonra tədqiqat sualına cavab tapmaq, təlim məqsədinin reallaşdırılmasını təmin etmək üçün aşağıdakı suallarla şagirdlərə müraciət edə bilərsiniz.

- Şərq və Qərb mədəniyyətlərinin inkişaf xüsusiyyətlərini necə izah edərdiniz?
- Ədəbiyyat sahəsində baş verən yeniliklər nə ilə bağlı idi?
- Dövrün yazıçılarının hansı oxşar xüsusiyyətləri var idi?
- Sizcə Radişşevin mütləqiyyətə qarşı belə çıxış etməsinin səbəbi nə idi?
- Mədəniyyətin inkişafında teatrın rolu nədən ibarətdir?

**Yaradıcı tətbiqetmə.** Bu mərhələdə siz şagirdlərə yaradıcı təfəkkürün inkişafına kömək olacaq hər hansı bir tapşırıq verə, və ya dərslikdə olan sual və tapşırıqlardan istifadə edə bilərsiz.

- Avropa və Şimali Amerikada müxtəlif elm sahələrinin inkişafına dair cədvələ hazırlayın.

**Qiymətləndirmə.** İzah etmə, cədvəl hazırlama.

Yuxarıda yazılmış meyarlar əsasında fomativ qiymətləndirməni həyata keçirin. Formativ qiymətləndirmənin şagirdini fərdi xüsusiyyətlərini öyrənmək üçün böyük əhəmiyyəti olduğunu nəzərə alaraq onların dərs zamanı müzakirələrdə iştirak səviyyəsi, verdiyi məntiqli cavabları barədə yığcam rəy mübadiləsi aparmaq məqsədəmüvafiq olardı.

**Refleksiya.** Biliklərin mənimsənilməsinin bütün mərhələlərini təhlil etməyə və dərindən başa düşməyə imkan verən başlıca mexanizmlərdən biri olan təlim prosesinin refleksiyası üçün aşağıdakı formada suallardan istifadə etmək olar.

– Dərsdə hansı yeniliyi öyrəndiniz?
– Sizin üçün dərsin ən önəmli nəticəsi nə oldu?
– Sizə nə aydın olmadı?
– Hansı suallarınız var?
– Yeni materialın öyrənilməsi sizə hansı təsiri bağışladı?
– Dərs əsnasında qarşıya qoyulan hədəfə çatdınızmı?
– Yeni mövzu üzərində necə işlədiniz? və s.



























**1. Şah II Abbasın dövründə:**

A) Portuqallarla mübarizə aparıldı.
B) İngilislərlə müqavilə imzalandı.
C) Moskva çarlarının Şimali Qafqazda tikdirdikləri qalalar dağıdıldı.
D) Osmanlılarla Qəsri-Şirin müqaviləsi imzalandı.
E) Böyük Moğol dövlətilə dostluq əlaqələri yaradıldı.

**2. Böyük Moğol dövlətində dövlət fonduna daxil edilmiş torpaqlar adlanırdı:**

A) xalisə B) mülk C) iqta D) cagir E) soyurqal

**3. 1757-ci ildə Çində:**

A) Min sülaləsi devrildi.
B) Kəndli üsyanı baş verdi.
C) Mancurlar hakimiyyətə gəldilər.
D) Avropalıların ölkəyə gəlməsini qadağan edən qanun qəbul edildi.
E) İmperator titulu qəbul olundu.

**4. Xronoloji ardıcıllığı müəyyən edin:**

1. Həştərxan xanlığının ruslar tərəfindən işğal edilməsi
2. "Müqəddəs birliy"in yaradılması
3. Kokand xanlığının meydana gəlməsi

A) 1,2,3 B) 2,1,3 C) 3,2,1 D) 1,3,2 E) 3,1,2

**5. XVII əsrdə Osmanlı dövlətində bir sıra islahatlar həyata keçirmiş vəzir:**

A) III Əhməd
B) Köprülü Mehmet paşa
C) İbrahim paşa
D) Mahmud paşa
E) Osman paşa

**6. I Pyotrun Dərbənddə hərbi qarnizon qoyub Həştərxana geri qayıtmasının səbəbi:**

A) rus ordusunun ərzaq gətirən gəmilərinin dənizdə batması
B) Səfəvilər tərəfindən məğlub edilməsi
C) İsveçlə şimal müharibəsinin başlanması
D) İmperiya daxilində üsyanların baş verməsi
E) Kazakların Həştərxana basqın etməsi

**7. 1732-ci ildə Səfəvilərlə ruslar arasında imzalanmış Rəşt müqaviləsinə aiddir:**

A) Ruslar Kürə qədər olan əraziləri səfəvilərə qaytarırdı.
B) Ruslar Cənubi Qafqazı tamamilə tərk etdi.
C) Səfəvilər ruslara ilk dəfə gömrüksüz ticarət hüququ verirdi.
D) Araz çayı iki dövlət arasında sərhəd olurdu.
E) Səfəvilər Dərbənddən Gilanadək əraziləri ruslara verirdi.

**8. Ağağ Məhəmməd xan Qacar Şimala doğru birinci yürüşünü təşkil etmişdir:**

A) 1791-ci ildə B) 1790-cı ildə C) 1793-cü ildə D) 1797-ci ildə E) 1795-ci ildə

**9. Şah I Abbasın saray tarixçisi olmuşdur:**

A) İsgəndər bəy Münşi
B) Həsən bəy Rumlu
C) Kəmaləddin Behzat
D) Məhəmməd Tahir
E) Nəsirəddin Tusi

**10. Eyler-Venn diaqramında müqayisə edin:**

XVIII əsrdə

*Osmanlı* *Rusiya*




a. Avstriya ilə müharibə aparmışdır.
b. Azərbaycan ərazisinə yürüş etmişdir.
c. Volqaboyunda baş vermiş üsyanları yatırmışdır.
A) I-a, II-b, III-c
B) I-b, II-c, III-a
C) I-c, II-b, III-a
D) I-c, II-a, III-b
E) I-a, II-c, III-b

**11. I Ceyms:**

A) Vətəndaş müharibəsində məğlub olmuşdur.
B) Parlamenti qovmuşdur.
C) Stüartlar sülaləsinin əsasını qoymuşdur.
D) XVII əsrin 20-ci illərində hakimiyyətə gəlmişdir.
E) İrlandiyanı işğal etmişdir.

**12. Rusiya çariçası II Yekaterinanın müəllifi olduğu yunan lahiyəsi üçün xarakterik olanları müəyyən edin:**

1. Xristianları müsəlmanların zülmündən qorumaq
2. Şərqdə İngiltərə və Fransanın nüfuzuna zərbə vurmaq
3. Qara dənizə çıxış əldə etmək
4. Balkanları Osmanlı ilə bölüşdürmək

A) 1,4 B) 2,3 C) 2,3 D) 1,2 E) 1,3

**13. Xronoloji ardıcıllığı müəyyən edin:**

1. Uzunmüddətli parlamentin fəaliyyətini dayandırması

2. III Səlimin hakimiyyətə gəlməsi
3. ABŞ-də İstiqlaliyyət bəyannaməsinin qəbul olunması
A) 2,3,1 B) 1,3,2 C) 3,2,1 D) 3,1,2 E) 1,2,3

**14. İstiqlaliyyət müharibəsində ABŞ-nin müttəfiqi olmuş dövlətin yerləşdiyi ərazini xəritədə müəyyən edin:**




A) 5 B) 3 C) 1 D) 2 E) 4

15. ABŞ-də İstiqlaliyyət bəyannaməsinin qəbul edilməsindən neçə il sonra Fransada Burjua inqilabı başlamışdır:
A) 10-il B) 5-il C) 13-il D) 8-il E) 6-il

**16. Hadisə-nəticə əlaqəsi doğru verilmişdir:**

| | *Hadisə* | *Nəticə* |
|---|---|---|
| A | İngiltərədə Uzunmüddətli parlamentin çağırılması | Vətəndaş müharibəsinin başlanması |
| B | Saratoqa döyüşünün baş verməsi | Fransanın məğlub olması |
| C | Yakobin diktaturasının süqut etməsi | Fransa Burjua inqilabının başa çatması |
| D | III Əhmədin hakimiyyətə gəlməsi | Köprülü Mehmet paşanın islahat keçirməsi |
| E | Şimal müharibəsinin başlanması | İsveçin qalib gəlməsi |

**17. I Pyotr II Yekaterinadan fərqli olaraq:**
A) Osmanlı ilə müharibə aparmışdır.
B) Qara dəniz sahillərində bir sıra ərazilər ələ keçirmişdir.
C) Şimal müharibəsində qalib gəlmişdir.
D) XVIII əsrdə hakimiyyətdə olmuşdur.
E) Rusiya imperiyasını idarə etmişdir.

**18. Fransa maarifçilik hərəkatının üzvləri idilər:**

1. Volter  2. Napoleon  3. Russo  4. Danton  5. Mont Eksjö

A) 1,2,3  B) 2,3,5  C) 3,4,5  D) 1,3,5  E) 1,2,4

**19. Klasteri tamamlayın:**

1783-cü ildə

1. Krım ruslar tərəfindən işğal edildi.
2. ABŞ-də konstitusiya qəbul olundu.
3. Versal sülhü imzalandı.
4. Fransada burjua inqilabı başladı.

A) 1,3  B) 3,4  C) 2,4  D) 1,4  E) 1,2

**20. Poltava döyüşündə qalib gəlmiş dövlət:**

A) İsveç  B) Osmanlı  C) Fransa  D) Avstriya  E) Rusiya

**21. I Pyotrun keçirdiyi islahatlar sırasında verilə bilməz:**

A) hərbi  B) mədəni  C) ticarət  D) sosial  E) idarəetmə

**22. 1787-ci ildə ABŞ və 1795-ci ildə Fransa tarixində oxşar cəhət:**

A) inqilabın baş verməsi
B) Vətəndaş müharibəsi başlaması
C) Konstitusiyanın qəbul edilməsi
D) İngiltərə ilə müqavilə imzalanması
E) Respublika idarə sisteminin yaradılması

**23. Xronoloji ardıcıllığı müəyyən edin:**

1. Yorktaun döyüşünün baş verməsi
2. Prut sülhünün imzalanması
3. İngiltərədə vətəndaş müharibəsinin başlanması

3,2,1

**24. Versalda ABŞ-nin müstəqilliyini tanımış dövlətin yerləşdiyi ərazini xəritədə müəyyən edin:**




1

**25. Osmanlılarla Səfəvilər arasında imzalanmış müqavilələr:**

1. İstanbul
2. Nabur
3. Qəsri-Şirin
4. Rəşt

1,3

**26. III Səlimin islahatları üçün xarakterikdir:**

1. Yeniçərilərə 3 aydan bir əlavə maaşlar verilməsi qadağan edildi.
2. Avropa nümunəsində silahlanmış və təlim görən yeni hərbi hissələr yaradıldı.
3. Yeniçərilərə yeni qaydada ziyamət və timar torpaqları verildi.
4. Yeniçərilərin ticarət etməsinə icazə verildi.

1,2

**27. İngiltərənin inqilab dövründə İşğal etdiyi ərazilər:**

1. İrlandiya 2. Şimali Amerika 3. Hindistan 4. Şotlandiya

1,4

**Sizə təqdim edilmiş mətni oxuyun və 28–30-cu sualları cavablandırın:**

Amerikanın kəşf olunmasından sonra avropalıların bu qitəyə maraqları daha da artmışdı. Burada müstəmləkələr əldə etmək uğrunda mübarizədə İspaniya, Portuqaliya, İngiltərə və Fransa dovlətləri xüsusilə seçilirdi. Müstəmləkəçilərin "Yeni dünya"ya gəlişi qitənin yerli əhalisinin kütləvi surətdə məhv edilməsi və sürətli məskunlaşma ilə müşahidə olunurdu.

**28. Tarixi biliklərinizə əsasən Amerikada ilk ingilis məskəninin yaradıldığı ili qeyd edin.**

1607-ci ildə

**29. Şimali Amerika uğrunda İngiltərə və Fransa arasında baş vermiş müharibənin necə adlandırıldığını müəyyən edib yazın.**

Yeddiillik müharibə

**30. Tarixi biliklərinizə əsasən Əhalinin Amerikaya kütləvi axın etməsinin ən azı iki səbəbini yazın.**

1. Dini təqiblər
2. Kəndlilərin torpaqsızlaşması

# ƏDƏBİYYAT SİYAHISI


**Azərbaycan dilində**

1. A.Bakıxanov. "Gülüstani-İrəm". Bakı, 2000
2. İsgəndər bəy Münşi Türkman. "Tarix-i aləmara-yi Abbasi ("Dünyanı bəzəyən Abbasın tarixi"). I cild. Farscadan tərcümə, ön söz, şərh və göstəricilərin müəllifləri AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor O.Əfəndiyev və tarix elmləri namizədi N.Musalı. Bakı, 2009
3. Mahmudov M. "Dünyada təhsil sistemləri". Bakı, 2014
4. "Mədəniyyət tarixi və nəzəriyyəsi". Manafova M., Əfəndiyeva N, Şahhüseynova S. Bakı, 2010
5. Məmmədağa Baxışov. "İngiltərənin yeni tarixi". Bakı, 2012
6. Mustafazadə Tofiq. Ümumi tarix, I kitab. Bakı, 2009
7. Mustafazadə Tofiq. Ümumi tarix. II kitab. Bakı, 2012
8. M.Baxtadze, V.Vaçnadze, V.Quruli. Gürcüstan tarixi (ən qədim dövrlərdən indiyə qədər) Tbilisi, 2004 (rus dilində)
9. R.Qurbanov. "Türk xalqlarının tarixi". II cild. Bakı, 2011
10. Ş.F.Fərzəlibəyli. "Azərbaycan və Osmanlı imperiyası". Bakı, 1995
11. Tahir Baxşəliyev. "Rusiya tarixi ən qədim zamanlardan günümüzədək". Bakı, 2021
12. Z.Həsənəliyev, Z.Bayramlı. "II Şah Abbasın hakimiyyəti illərində Azərbaycan Səfəvilər dövlətinin daxili və xarici siyasəti". Bakı, 2011

**Türk dilində**

1. Akdes Nimes Kurat. "Rusya tarihi". Ankara 1987
2. Allan Nevins və Henry Steele Commager. "ABD tarihi". İlk çeviri Halil İnalcık. İstanbul 1961
3. "Bizimkiler" (Anadolu merkezli dünya tarihi). cilt 23, 24, 25, 26
4. Chrıstopher Hıll. "İngiltere'de Devrim Çağı" 1603–1714. İstanbul 2016
5. Clive Ponting. "Dünya tarihi". İstanbul 2011
6. Eric J. Hobsbawm. "Fransız devrimine bakış". İstanbul, 2015
7. Fahir Armaoğlu. !"19 yüzyıl siyasi tarihi". Ankara 1997
8. İhsan Burak Birecikli. "Amerikanın kuruluşu və ABD-Avrupa ilişkileri" (1776–1876).History Studies tarih dergisi.2011
9. Jacques Bainville. "Fransa tarihi". İstanbul 1938
10. J.M. Roberts. "Avrupa tarihi". İstanbul 2015
11. Murray Bookchin. "Köylü isyanlarından Fransız devrimine". Ankara 2011
12. Oral Sander. "Siyasi tarih" (İlk çağlardan 1918e). Ankara 2012
13. Rifat Uçarol. "Siyasi tarih" (1789–2014). İstanbul 2014
14. "Rusya tarihi". Anadolu Universitesi. Eskişehir 2013
15. William H. McNeill. "Dünya tarihi". Ankara 2001

**Rus dilində**

1. Алаев Л. Б. Средневековая Индия. СПб. 2003
2. Васильев Л, С. История Востока. Том 2. Москва, 2013
3. Великие империи мира. Москва, 2011
4. Новая история Индии. Москва, 1951
5. Новая история стран Азии и Африки XVI–XIX вв. Ч. 2 М., 2010
6. Синха Н. К., А. Ч. Банераджи История Индии. Москва, 1954

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində


**1.** Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. // "Azərbaycan məktəbi" jurnalı, 2013, №5

**2.** Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası. // "Kurikulum", 2009, №2

**3.** Abbasov Ə. "Qiymətləndirmə keyfiyyətin idarə olunma vasitəsidir". // "Təhsil problemləri" qəzeti, 2009, 11–20 iyun

**4.** Abbasov Ə. "Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri". // "Kurikulum" jurnalı, 2008, №1

**5.** Abbasov Ə. "Kurikulum islahatının əsas istiqamətləri". // "Azərbaycan məktəbi" jurnalı

**6.** Ağayev Əjdər. "Öyrədən öyrənən əməkdaşlığı interaktiv vasitə kimi". // "Təhsil" jurnalı, 2016, №16

**7.** Ağayev S. Tarixin tədrisində interaktiv təlim metodunun tətbiqi təcrübəsindən. Bakı, 2009

**8.** Bəylərov E. "Formativ qiymətləndirmə". // "Kurikulum" jurnalı, 2011, №3

**9.** Bəylərov E. "Şagird nailiyyətlərinin qiymətləndirilməsində yeni yanaşmalara dair"

**10.** Cavadov İ. "Şagirdlərin təlim nəticələrinin qiymətləndirilməsinə dair". // "Kurikulum" jurnalı, 2012, №2

**11.** Cavadov İ. "Şagird nailiyyətlərinin monitorinqi və qiymətləndirilməsi: müasir yanaşmalar". // "Azərbaycan məktəbi" jurnalı, 2014, №4

**12.** Cavadov İ. "Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə". "Azərbaycan müəllimi" qəzeti, 2014, 30 may

**13.** Cəbrayılov İ. "Azərbaycan tarixinin tədris metodikası", Bakı, 2006

**14.** Dəmirov A.H., Məmmədov S.M., İsmayılov Ş.N. Yeni təlim texnologiyaları və müasir dərs. Bakı, 2017

**15.** Əhmədov A. "Ümumtəhsil sistemində kurikulum islahatı: real nəticələrə doğru". // "Kurikulum" jurnalı, 2008, №1

**16.** Əhmədov A., Şərifov T., Abbasov Ə. "Şagird nailiyyətlərinin qiymətləndirilməsi". // "Kurikulum" jurnalı, 2008, №1

**17.** Əliyeva K. "Yekun (summativ) qiymətləndirmənin təşkili üsulları". // "Azərbaycan məktəbi" jurnalı, 2011, №5

**18.** Əliyeva T. "Yeni qiymətləndirmə təhsildə inkişaf deməkdir". // "Azərbaycan müəllimi" qəzeti, 2013, 5 aprel

**19.** Əlizadə Ə. Yeni pedaqoji təfəkkür. Bakı, 2001

**20.** Əsədova M. "Diaqnostik qiymətləndirmənin əsas mahiyyəti və ədəbiyyat dərslərində ondan istifadə". // "Azərbaycan müəllimi" qəzeti, 2012, 28 sentyabr

**21.** Əsgərov R., Qurbanov M. "Qiymətləndirmə prosesi". // "Təhsil problemləri" qəzeti, 2015, 24–30 noyabr

**22.** Əsgərov R., Qurbanov M. "Qiymətləndirmə vasitələri". // "Təhsil problemləri" qəzeti, 2014, 1 yanvar

**23.** Əsgərov Ş. "Qiymətləndirmənin yeni kriteriyası, şagird-müəllim nisbəti prosesi". // "Azərbaycan məktəbi" jurnalı, 2012, №2

**24.** Hacıyeva T. "İbtidai təhsil pilləsində qiymətləndirmənin aparılması barədə". // "Azərbaycan müəllimi" qəzeti, 2010, 29 oktyabr

**25.** Hacıyeva T. “Monitorinq, qiymətləndirmə və təhsilin keyfiyyəti”. // “Azərbaycan müəllimi” qəzeti, 2011, 18 mart

**26.** Hüseynov E. “Fəal interaktiv təlimin üstünlükləri”. // “Azərbaycan müəllimi” qəzeti, 2016, 15 oktyabr

**27.** Hüseynov R. “Azərbaycan tarixi tədrisinin bəzi məsələlərinə dair”. // “Azərbaycan məktəbi” jurnalı, 2010, №1

**28.** Hüseynov R. “Formativ qiymətləndirmə sahəsində mövcud olan bəzi problemlər və onların aradan qaldırılması yolları”. // “Azərbaycan məktəbi” jurnalı, 2013, №4

**29.** İnteraktiv təlim ensiklopediyası. Bakı, 2010

**30.** Qəniyeva N. “Təlimdə səviyyəyə görə qiymətləndirmə”. // “Təhsil problemləri” qəzeti, 2015, 8 mart

**31.** Mehrabov A.O., Cavadov İ.A. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. Bakı, “Azmaşkom-Tex” Ltd. MMC, 2007, 184 s.

**32.** Məlikov R., Nəcəfli T. Tarixin interaktiv təlimi. Bakı, 2002

**33.** Paşayev T. Pedaqoji fəaliyyətin qiymətləndirilməsi. Bakı, 2011

**34.** Süleymanova A. Təhsilin əsasları. Bakı, 2014

**35.** Təhsil Qanunu. Bakı, 2009

**36.** TGC. Təlim və İnkişaf Mərkəzi. Tarix fənni üzrə paylama materialı. Bakı, 2013

**37.** “Ümumi təhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılmasına dair müvəqqəti təlimat” // “Təhsil problemləri” qəzeti, 2013, 08–15 sentyabr

**38.** Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılması Qaydaları” // “Kurikulum” jurnalı, 2009, №4

**39.** Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə təlim vəsaiti. Xəzər Universitəsi-Bakı-2012

**40.** Veysova Z. Fəal interaktiv təlim: Müəllimlər üçün vəsait. UNECEF, 2007

**41.** Ağayev Ə.A. Təlim prosesi: ənənə və müasirlik. Bakı, "Adiloğlu" nəşriyyatı, 2006

**42.** Əhmədova M., Əliyev M., Qasımlı M. və b. Müəllim hazırlığının və orta təhsilin yeni perspektivləri ( Qərb təhsil sisteminin təcrübəsi əsasında)

**43.** Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, “Pedaqogika”, 2004

**44.** Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür. Bakı, “Adiloğlu”, 2001.

**45.** Kərimova F., Əhmədova M.C. və b. İneraqtiv kurikulum: mahiyyəti və nümunələr. Bakı, “Adiloğlu”, 2005

**46.** Qədimova X. İnteraktiv təlim metodları, Bakı, 2005

**47.** Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Yeni kurs. Bakı, "Nurlan", 2007

**48.** Hüseynov E., Quliyev N., Ağalarov P., Ümumi tarix 6, Metodik vəsait, Bakı, "Şərq-Qərb" 2021

**49.** Hüseynov E., Quliyev N., Ağalarov P., Ümumi tarix 7, Metodik vəsait, Bakı, "Şərq-Qərb" 2022

## Rus dilində

**50.** Алексашкина Л.Н., Боголюбов Л.Н., Ворожейкина Н.И. Учебник стандарты школ России (государственнные общеобразовательные стандарты начального общело, основного

общего и среднего (полного) общего образования). Книга первая. М., "Прометей", 1998

**51.** Алиева А., Магомедова З, Меликов Р. Инновационная методика преподавания общественных наук в школе (на примере истории, граждановедения и конфликтологии). Баку, 2001

**52.** Амонашвили Ш.А. Воспитательная и образовательная функция оценки учения школьников: Экспериментально-педагогическое исследование. М., "Педагогика", 1984, 296 с.

**53.** Амонашвили Ш.А. Основы гуманной педагогики. Книга четвертая. Об оценках, Москва, Амри- та-Русь, 2012

**54.** Анатолий Гин Приемы педагогической техники. Москва, 2013

**55.** Безрукова В.С. Педагогика. Ростов-на-Дону, 2013

**56.** Величко В.В., Карпиевич Е.Ф., Кирилюк Л.Г. Инновационные методы обучения в гражданском образовании. Минск, 2001

**57.** Вяземский Е.Е. Историческое образование в современной России, Справочно-метадическое пособие для учителей. М., 2002

**58.** Довгялло М.С., Козик Л.А., Сальков А.П. Методика преподавания истории. Минск, 2010.

**59.** Крикунова Т.К. Практическая педагогика. М., 2001

**60.** Никулина Н.Ю. Методика преподавания истории в средней школе: Учебное пособие, М., 2000

**61.** Радугин А.А. Психология и педагогика. М., 2001

## İngilis dilində

**62.** Andrew Flint and Stuart Jack. Approaches to learning and teaching History a toolk it for international teachers. Cambridge Assessment International Education, 2018

**63.** Borich.G.D. Efective teaching methods/Upper Saddle River, 1996

**64.** Chris Husbands, What is History Teaching? Bristol, USA.1996

**65.** History-social science framework for California Public schools. Education with Criteria for Instructional materials. Sacramento, 2005

**66.** History 7-11 developing primary teaching skills. London, 1997

**67.** Linda S. Levistik, Keith C. Barton. Doing history, New York, 2011

**68.** Russel Tarr. A history teaching tool box. Copyright, 2016

**69.** Thomas G. Devine. Teaching student skills, Boston, 1997

## İnternet resursları

**70.** *http://1905.az/*

**71.** *http://cebhe.info/*

**72.** *http://www.history.az/*

**73.** *http://www.history.ru/*

**74.** *http://www.history.en/*

**75.** *http://www. testlerim.org*

**76.** *http://portal.edu.az/*

**77.** *http://www.muallim.edu.az/*